Hər kəs ədalətli olacaq
ƏDALƏT

# Ərdoğan İlham Əliyevə zəng etdi

*Antiterror tədbirləri müzakirə edildi*



**Sentyabrın 20-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Adalet.az xəbər verir ki, bu barədə Prezidentin Mətbuat Xidməti məlumat yayıb.

Bildirilib ki, telefon söhbəti zamanı lokal xarakterli antiterror tədbirlərinin başa çatması və Azərbaycanın Qarabağ bölgəsində olan qanunsuz silahlı birləşmələrin silahı yerə qoymaları və tərk-silah olmaları barədə fikir mübadiləsi aparılıb.

Dövlət başçıları Azərbaycan və Türkiyənin daim bir-birinin yanında olduqlarını vurğulayıblar.

**Azərbaycan və Türkiyə prezidentləri qarşılıqlı maraq doğuran məsələlər, o cümlədən gələcək təmaslar və strateji müttəfiqlik əlaqələrinin perspektivlərinə dair fikir mübadiləsi aparıblar.**

# Baş nazir İqtisadi Şuranın iclasını keçirdi




**İqtisadi Şuranın vergi və gömrük qanunvericiliyi aktlarına təklif olunan dəyişikliklərə həsr olunmuş iclası keçirilib.**

Bu barədə Adalet.az-a Nazirlər Kabinetindən məlumat verilib.

İclasın gündəliyində 2024-cü ilin büdcə-vergi siyasəti çərçivəsində hazırlanmış vergi və gömrük sahəsində güzəşt və azadolmaların qiymətləndirilməsi, onun nəticələrinə əsasən vergi və gömrük qanunvericiliyi aktlarına təklif olunan dəyişikliklər, eləcə də Vergi Məcəlləsinə edilən dəyişiklik layihəsinə sahibkarlıq subyektlərinin vergi yükünün azaldılması və sahibkarlıq fəaliyyətinin təşviq edilməsi, sosial xarakterli güzəştlər vasitəsilə əhalinin vergi yükünün azaldılması, vergi nəzarəti mexanizminin və vergi inzibatçılığı tədbirlərinin təkmilləşdirilməsi və vergitutma bazasının genişləndirilməsi üzrə dəyişiklikləri əhatə edən istiqamətlər və digər məsələlər geniş müzakirə olunub.

**İclasda maliyyə naziri Samir Şərifovun və iqtisadiyyat naziri Mikayıl Cabbarovun məruzələri dinlənilib. İclasın yekununda İqtisadi Şuranın üzvlərinin rəy və təklifləri nəzərə alınmaqla vergi və gömrük qanunvericiliyi aktlarına təklif olunan dəyişikliklər barədə aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib.**

# Prezidentin saytına saniyədə 4 milyondan çox hücum olub



**Azərbaycan ərazisində antiterror tədbirlərinə başlayandan bəri bir sıra dövlət qurumlarının saytlarına kiberhücumlar olub.**

Adalet.az xəbər verir ki, bu barədə Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin (XRİTDX) idarə rəisi Tural Məmmədov Beynəlxalq Kibertəhlükəsizlik Günləri Konfransında (İCSD 2023) bildirib. "Təkcə Prezidentin rəsmi saytına saniyədə 4 milyondan çox DDoS (Denial-Of-Service Attack) hücum qeydə alınıb", - T. Məmmədov qeyd edib. Onun sözlərinə görə, XRİTDX-in mütəxəssisləri onların qarşısını alır: "Bu istiqamətdə fəaliyyətimizi gücləndirilimiş rejimdə davam etdiririk".

Xatırladaq ki, Azərbaycanın sentyabrın 19-20-i tarixlərində keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin birləşmələri təslim oldular. Razılaşmaya əsasən, Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin birləşmələri, qeyri-qanuni erməni silahlı dəstələri silahı yerə qoyur, döyüş mövqelərindən və hərbi postlardan çıxır və tam şəkildə tərk-silah olunurlar. Ermənistan silahlı qüvvələrinin birləşmələri Azərbaycan ərazilərini tərk edir, qeyri-qanuni erməni silahlı dəstələri buraxılır. Paralel şəkildə bütün silah-sursat və ağır texnika təhvil verilir.

# Qarabağdakı erməni hərbi birləşmələri reinteqrasiyaya mane olurdu

Bax:səh-2

# Prezident Administrasiyasından Yevlax görüşü ilə bağlı açıqlama



**Azərbaycan Respublikası Prezidentinin Administrasiyası sentyabrın 21-də Yevlax şəhərində Qarabağın erməni sakinləri ilə keçirilən görüş barədə açıqlama yaylb.**

Adalet.az xəbər verir ki. açıqlamada deyilir: "Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının dəvəti əsasında 2023-cü il sentyabrın 21-də Yevlax şəhərində Qarabağın erməni sakinləri ilə təmaslar üzrə müəyyən edilmiş məsul şəxs Ramin Məmmədov Qarabağın erməni sakinlərinin təmsilçiləri qismində Sergey Martirosyan və David Melkumyan ilə görüşüb. Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzinin Rusiya tərəfinin rəhbəri kontr-admiral Oleq Semyonov iştirakçı qismində görüşə qatılıb. Konstruktuv və müsbət mühitdə keçən görüşdə Azərbaycan Respublikasının Konstitusiyası və qanunları əsasında Qarabağın erməni əhalisinin reinteqrasiyası, infrastrukturunun bərpası və fəaliyyətinin təşkil olunması məsələləri üzrə müzakirələr aparılıb. Ramin Məmmədov tərəfindən reinteqrasiya üzrə planlar təqdim edilib. Həmçinin Azərbaycan Respublikası Müdafiə Nazirliyinin antiterror tədbirlərinin dayandırılması üzrə 20 sentyabr tarixli bəyanatında əks olunmuş məsələlərin tez bir zamanda icrasının vacibliyi vurğulanıb. Azərbaycanın Qarabağ bölgəsinin erməni sakinlərinin nümayəndələri sosial və humanitar xarakterli məsələlərin müzakirəsi kontekstində xüsusilə yanacağa ehtiyac duyulduğunu bildiriblər. Eyni zamanda, qida məhsulları olmaqla humanitar yardımın göstərilməsini xahiş ediblər. Görüşün nəticəsi olaraq onların xahişi müsbət qarşılanıb. Xüsusilə bağça və məktəblərin istilik sistemləri, təcili tibbi yardım və yangınsöndürmə xidmətlərinin ehtiyacları təmin olunmaqla yanacağın tezliklə təchiz edilməsi və humanitar dəstəyin həyata keçirilməsi planlaşdırılır.

Tezliklə növbəti görüşün keçirilməsi barədə razılıq əldə edilib".

Hər kəs ədalətli olacaq
www.adalet.az
ƏDALƏT
Qurucusu: Adil Minbaşıyev
İctimai-siyasi, hüquq qəzeti
Qəzet 1990-cı ilin iyulundan çıxır
№ 36 (6029) 22 sentyabr 2023-cü il
Qiyməti 40 qəpik

# 44 GÜN + 24 SAAT



## Ayxan Hacızadə: "Antiterror tədbirləri zamanı mülki əhali hədəf alınmayıb"



**"44 günlük müharibədən bu yana, son 3 il ərzində Azərbaycan dəfələrlə bildirib ki, ermənilər də daxil olmaqla bütün etnik qrupların Azərbaycan qanunvericiliyi və konstitusiyasında nəzərdə tutulmuş bütün hüquqlarını təmin etməyə hazırdır".**

Adalet.az xəbər verir ki, bunu Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəhbəri Ayxan Hacızadə "The İnsider" nəşrinə müsahibəsində deyib. O bildirib ki, rəsmi Bakı Qarabağ bölgəsində yaşayan etnik erməniləri Azərbaycan cəmiyyətinin bir hissəsi hesab edir: "Biz milli qanunvericiliyə uyğun olaraq onların hüquq və təhlükəsizliyini qorumağa hər zaman hazırıq".

A.Hacızadə qeyd edib ki, Ermənistan 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatının 4-cü maddəsinə indiyədək əməl etməyib: "Ermənistan silahlı qüvvələri Rusiya sülhməramlı kontingentinin yerləşdirilməsi ilə paralel olaraq geri çəkilməli idi, lakin bu yerinə yetirilməyib. Son bir neçə gün ərzində Ermənistan qoşunlarının hərbi eskalasiyaya səbəb olan təxribat-kəşfiyyat əməliyyatı nəticəsində altı polis və iki mülki şəxs həlak olub".

XİN rəsmisi bildirib ki, Azərbaycan Qarabağda həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri zamanı yüksək dəqiqlikli silahlardan istifadə edib: "Demək olar ki, heç bir mülki obyekt vurulmayıb. Lakin 44 günlük genişmiqyaslı müharibəyə nəzər saldıqda görərik ki, Azərbaycan tərəfdən mülki əhali arasında itkilər Ermənistan tərəfinin mülki itkilərindən qat-qat çox olub. Bu o deməkdir ki, Azərbaycan heç vaxt mülki əhalini hədəfə almayıb".

## Türk Dövlətləri Təşkilatı Qarabağdakı terror aktlarını pisləyib

**Türk Dövlətləri Təşkilatı (TDT) Ermənistanın Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı törətdiyi təxribatlardan ciddi narahatlığını ifadə edir, Azərbaycanın Qarabağ iqtisadi rayonunda dinc əhali və Azərbaycan əsgərlərinin ölümünə səbəb olan son terror aktlarını pisləyir.**

Adalet.az xəbər verir ki, bu barədə TDT-nin bəyanatında deyilir.

Bəyanatda vurğulanır ki, Ermənistan silahlı qüvvələrinin qalıqlarının Azərbaycan ərazisində qanunsuz mövcudluğu, minaların yerləşdirilməsi, təbii sərvətlərin istifadəsi, silah-sursat və hərbi texnikanın qaçaqmalçılığı, eləcə də şəxsi heyətin qeyri-qanuni rotasiyasının həyata keçirilməsi normallaşma prosesinə ciddi zərbə vurur.

Təşkilat həyata keçirilən antiterror tədbirlərinin Qarabağ iqtisadi rayonunda yaşayan erməni sakinlərinin Azərbaycan Respublikasının konstitusiya quruluşuna reinteqrasiyasını təmin edəcəyinə qəti əminliyini ifadə edir.

Eyni zamanda, terrorla mübarizə tədbirlərinə təkan verən təxribat nəticəsində şəhid olan hərbçilərin ailələrinə, qardaş Azərbaycan xalqına və hökumətinə dərin hüznlə başsağlığı verilib.

## Türkiyə MN: «Qarabağ Azərbaycan torpağıdır, hansısa status qəbuledilməzdir»



**"Qarabağ Azərbaycan torpağıdır, hansısa status qəbuledilməzdir".**

Adalet.az xəbər verir ki, bu barədə Türkiyənin Milli Müdafiə Nazirliyinin yaydığı açıqlamada qeyd olunub.

Bildirilib ki, Azərbaycan antiterror tədbirlərini özü keçirib: "Azərbaycanlı qardaşlarımızın haqlı mübarizələrində yanında olmağa davam edəcəyik. Qarabağ Azərbaycan torpağıdır. Bundan başqa, hansısa status qəbuledilməzdir. Erməni silahlı birləşmələrinin uzun müddətdir davam edən təxribatlarına cavab olaraq Qarabağda həyata keçirilən tədbirləri, atəşkəs qərarını və bölgədəki son durumu izləyirik".

Eyni zamanda vurğulanıb ki, Türkiyə Silahlı Qüvvələri Azərbaycanın keçirdiyi antiterror tədbirlərində heç bir şəkildə iştirak etməyib.

## Pakistan XİN: "Qarabağ Azərbaycanın suveren ərazisidir"

**Pakistan Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə sarsılmaz dəstəyini təsdiqləyir.**

Adalet.az xəbər verir ki, bu barədə Pakistan Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mümtaz Zəhra Bəluç həftəlik brifinq zamanı bildirib.

"Pakistan mina partlayışları nəticəsində baş vermiş insan tələfatı ilə əlaqədar Azərbaycan xalqına və hökumətinə səmimi başsağlığı verir.

Pakistan Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə sarsılmaz dəstəyini bir daha təsdiqləyir. Pakistan Qarabağa Azərbaycan Respublikasının suveren ərazisi kimi baxır. Bizim mövqeyimiz Birləşmiş Millətlər Təşkilatının və İslam Konfransı Təşkilatının Təhlükəsizlik Şurasının çoxsaylı qətnamələrinə, eləcə də beynəlxalq hüquqa tam uyğundur. Ümid edirik ki, Azərbaycanın öz suverenliyi və ərazi bütövlüyü ilə bağlı haqlı iddiaları bütün tərəflər tərəfindən qəbul olunacaq və bu, bölgədə davamlı sülhə yol açacaq", - o deyib.

## "Azərbaycanın Tehrandakı səfirliyinin fəaliyyətinin bərpasına ümid edirik"



**Azərbaycan Respublikasının İrandakı səfirliyinin fəaliyyətinin bərpasına ümid edirik.**

Adalet.az xəbər verir ki, bu barədə İran XİN sözçüsü Nasir Kənani bu gün mətbuat konfransında deyib.

"Atılan addımların başa çatdırılması nəticəsində Azərbaycan Respublikasının İrandakı səfirliyinin fəaliyyətinin bərpasına şahidi olacağımıza nikbin yanaşır, bu prosesi arzuolunan və perspektivli hesab edirik", - XİN rəsmisi vurğulayıb.

## "Qarabağın hər küncündə Azərbaycan bayrağı dalğalanacaq"

**"Qarabağın hər küncündə Azərbaycan bayrağı dalğalanacaq".**

Adalet.az xəbər verir ki, bunu Türkiyənin vitse-prezidenti Cevdet Yılmaz İzmirdə keçirilən "İş dünyası ilə məsləhətləşmə" toplantısında çıxışı zamanı deyib.

Onun sözlərinə görə, rəsmi Ankara Azərbaycanın ərazi bütövlüyünü təmin etmək məqsədilə atdığı addımları dəstəkləyir:

"Qarabağ Azərbaycan torpağıdır və Türkiyə Azərbaycanın addımlarını dəstəkləyir".

C.Yılmaz bildirib ki, Qarabağda "boz zona" yaratmaq istəyənlər boş yerə çalışırlar: "Prezident Rəvəb Tayyib Ərdoğan BMT kürsüsündə Qarabağın Azərbaycan torpağı olduğunu bir daha konkret formada diqqətə çatdırdı. Eşq olsun Azərbaycan Ordusuna! Cənubi Qafqazda sabitliyin təmin olunması hər kəsin xeyrinədir.

Bu regiondakı sabitlik hər birimizin xeyrinədir. Xaos isə yalnız digər aktorlara sərf edir".

## Füzulinin daha 73 sakini doğma yurda qayıdıb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, yenidən qurulan Füzuli şəhərinə keçmiş məcburi köçkünlərin qayıdışı davam edir.**

Adalet.az xəbər verir ki, sentyabr 15-də növbəti köç karvanı Bakı şəhərinin Qaradağ rayonundakı "Qobu park 3" yaşayış kompleksindən yola salınıb. Bu mərhələdə Füzuli şəhərinə daha 25 ailə - 73 nəfər köçürülüb.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan ordusunun qazandığı Zəfər nəticəsində məcburi köçkünlərin 30 ildən sonra könüllü, təhlükəsiz və ləyaqətlə doğma yurdlarına qayıtmasına imkan yaranıb. Daha da gözəlləşən və abadlaşan Füzuli şəhərinin sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildiriblər, bu yolda canlarından keçən şəhidlərimizi böyük ehtiramla yad ediblər.

Köçürülən ailələr Füzuli şəhərində yenidən tikilən evlərdə məskunlaşacaqlar.

**Bununla da Füzuli şəhərində 144 ailə, yəni 514 nəfərin daimi məskunlaşması təmin edilib.**

## 439 müharibə əlili yüksək texnologiyalı protezlə təmin edildi



**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi tərəfindən bu ilin 8 ayında əlilliyi olan şəxslərə ötən ilin müvafiq dövrünə nisbətən 28 faiz çox olmaqla 54,8 min reabilitasiya vasitəsi verilib.**

Nazirlikdən Adalet.az-a verilən xəbərə görə, onlardan 2231-i təkərli oturacaq, 291-i mühərrikli təkərli oturacaq, 1988-i aşağı və yuxarı ətraf, habelə döş protezi, 1232-i eşitmə aparatı olub.

Həmçinin əlilliyi olan şəxslərə 2183 cüt protez ayaqqabı, 4496 cüt ortopedik ayaqqabı, 50 səsli tonometr, 48 səsli tibbi termometr, 117 korset, 1795 qoltuqaltı və dirsəkaltı ağac,19 hərəkətli qaldırıcı qurğu və s. reabilitasiya vasitələri təqdim edilib.

Yanvar-avqust aylarında 7,5 min şəxs reabilitasiya vasitəsi ilə təmin edilib. Müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin yüksək texnologiyalı son nəsil protezlərlə təminatı işləri bu il də davam edib. Ümumilikdə 44 günlük Vətən müharibəsindən sonra sosial dəstək proqramı çərçivəsində müharibə ilə əlaqədar əlilliyi olan 439 şəxs 458 ədəd yüksək texnologiyalı müasir protezlə təmin edilib, müharibə ilə əlaqədar əlilliyi olan 1 990 şəxsə 43,1 min reabilitasiya vasitəsi verilib.

## Türkiyədə terror aktları planlaşdıran şəxslər məhv edilib

**Türkiyə xüsusi xidmət orqanları Suriyanın şimalında YPG/YPJ terror təşkilatının Münbiçdəki fəaliyyətinə cavabdeh olan terrorçu qadını zərərsizləşdirib.**

Adalet.az xəbər verir ki, bu barədə "Anadolu" agentliyi məlumat yayıb. Münbiç bölgəsində keçirilən xüsusi əməliyyat zamanı Uman Dərviş və mühafizəçiləri məhv edilib. Dərviş 1998-ci ildə terror təşkilatı PKK-ya qoşulub. O, Türkiyədə həyata keçirilməsi planlaşdırılan terror aktlarının təşkilatçısı olub.

## Paşinyan: "İmzalanmış müvafiq sənədlərə görə tənqid olunuram"



**"Son zamanlar xarici və regional siyasət apararkən 1991-ci ilin dekabrında qəbul edilmiş Alma-Ata Bəyannaməsinə və Ermənistan Respublikası tərəfindən də imzalanmış müvafiq sənədlərə əsaslandığıma görə tez-tez tənqid olunuram".**

Adalet.az xəbər verir ki, bunu Ermənistanın baş naziri Nikol Paşinyan Ermənistan Respublikasının müstəqilliyinin 32-ci ildönümü münasibətilə müraciətində deyib. Onun sözlərinə görə, çoxları birbaşa və dolayı yolla həmin sənədə əsaslanan siyasətdən əl çəkməyə çağırır: "Problem ondadır ki, Alma-Ata Bəyannaməsi və onunla bağlı sənədlər Ermənistan Respublikasının müstəqilliyinin fundamental amillərindən biridir və burada keçmiş SSRİ-nin 12 respublikasının, o cümlədən Ermənistan Respublikasının müstəqilliyinin siyasi və hüquqi əsasları qeyd olunur. Bu şərtlərin tam olması üçün sülh, yəni münaqişəsiz bir mühit lazımdır. Sülh müstəqillik və suverenliklə bərabər təhlükəsizliyi təmin edən amildir. Çoxları hesab edir ki, bu gərgin regional şəraitdə, vaxtaşırı hərbi toqquşmalar fonunda sülhdən danışmaq adekvat deyil. Amma bundan da artıq bu şəraitdə sülhə dəyər verilməli, sülhü atəşkəslə qarışdırmaq olmaz".

# Prezidentin xalqa müraciəti

**Sentyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciət edib.**

**Prezident İlham Əliyevin xalqa müraciəti**

- Əziz həmvətənlər.

Bildiyiniz kimi, dünən səhər erməni silahlı birləşmələrinin törətdikləri terror aktı nəticəsində 6 Azərbaycan vətəndaşı, onlardan ikisi mülki şəxs mina terrorunun qurbanı olmuşdur. Birinci dəfə deyil ki, bizə qarşı Ermənistan terror aktı törədir. İkinci Qarabağ müharibəsi başa çatandan sonra bu günə qədər 300-dən çox Azərbaycan vətəndaşı mina terrorunun qurbanı olmuşdur, ya da ki, ağır yaralanmışdır.

Dünənki terror aktı bu sıradan olan hadisə idi. Laçın sərhəd-buraxılış məntəqəsi qurulmayana qədər İkinci Qarabağ müharibəsindən sonra Ermənistandan Azərbaycanın Qarabağ bölgəsinə qanunsuz olaraq minalar gətirilmiş və müxtəlif yerlərdə basdırılmışdır. Bir müddət bundan əvvəl Azərbaycan Silahlı Qüvvələri tərəfindən aşkarlanmış minalar Rusiya sülhməramlı kontingentinin və Rusiya-Türkiyə Monitorinq Mərkəzinin nümayəndələrinə göstərilmiş və onlardan ciddi tədbir görülməsi tələb edilmişdir. Bu minalar 2021-ci ildə Ermənistanda istehsal olunmuş minalardır. Yəni, bu, bir daha onu göstərir ki, İkinci Qarabağ müharibəsindən sonra məqsədyönlü şəkildə Azərbaycana qarşı terror aktlarını həyata keçirmək üçün bu minalar gətirilmişdir.

Azərbaycan dərhal lazımi addımlar ataraq düşməni layiqincə cəzalandırmışdır. Lokal xarakterli antiterror tədbirlərinə başlanıldı və qarşıda duran bütün vəzifələr cəmi bir gün ərzində yerinə yetirildi. Terrorçular cəzalandırıldı və bir daha Ermənistana göstərildi ki, onların istənilən təxribatına layiqli cavab veriləcəkdir.

Dünən təxminən saat 13:00 radələrində antiterror tədbirlərinin başlanması və uğurla başa çatması nəticəsində Azərbaycan öz suverenliyini bərpa etmişdir.

Qeyd etməliyəm ki, antiterror tədbirləri nəticəsində bizim hərbçilərimiz böyük qəhrəmanlıq, şücaət, peşəkarlıq göstərmişlər. Ağır relyef şəraitində, düşmən tərəfindən uzun illər böyük mühəndislik işləri nəticəsində istehkamların mövcudluğu şəraitində, düşmən mövqelərinin təpələrdə, əlverişli yerlərdə yerləşdirilməsinə baxmayaraq, bizim hərbçilərimiz bir daha qeyd etdiyim kimi, qəhrəmanlıq, peşəkarlıq göstərmişlər və qısa müddət ərzində bütün istiqamətlər üzrə əhəmiyyətli dərəcədə hərbi uğurlar əldə etmişlər. Ermənistan dövlətinin Azərbaycan ərazisində qanunsuz yerləşdirilmiş və Ermənistan dövlətinin öhdəliyinə baxmayaraq, bu günə qədər çıxarılmamış ordunun böyük hissəsi tamamilə məhv edilmişdir. Hərbi texnika məhv edilmişdir və sıradan çıxarılmışdır.

Əməliyyat başlamazdan əvvəl mənim tərəfimdən bütün hərbi birləşmələrimizə bir daha ciddi tapşırıq verilmişdir ki, aparılan antiterror tədbirləri nəticəsində Qarabağ bölgəsində yaşayan erməni əhalisi zərbə altına düşməməlidir və mülki əhali qorunmalıdır. Biz həm yüksək dəqiqliyə malik silahlardan istifadə edərək buna nail olduq, eyni zamanda, Silahlı Qüvvələrimizin peşəkarlığı nəticəsində mülki vətəndaşlar tamamilə özlərini sığortalanmış vəziyyətdə hiss etmişlər. Eyni zamanda, göstəriş verilmişdir ki, mülki infrastruktura da heç bir zərbə dəyməməlidir, ancaq hərbi infrastruktur sıradan çıxarılmalıdır. Bir daha demək istəyirəm ki, ordumuzun, bütün Silahlı Qüvvələrimizin peşəkarlığı, texniki imkanları bizə bu vəzifəni şərəflə yerinə yetirməyə şərait yaratmışdır və bir daha Azərbaycan əsgəri, zabiti həm yüksək peşəkarlıq, həm də yüksək mənəvi keyfiyyətlər göstərmişdir.

Bir daha qeyd etmək istəyirəm ki, aparılmış qısamüddətli lokal xarakterli antiterror tədbirləri nəticəsində, düşmənin silah və texnikalarının böyük hissəsi sıradan çıxarılmışdır. Onu da bildirməliyəm ki, Azərbaycan ərazisində qanunsuz olaraq Ermənistan ordusuna məxsus yüzdən çox tank və zirehli nəqliyyat vasitələri, zirehli texnika yerləşdirilmişdir. Radioelektron mübarizə vasitələri yerləşdirilmişdir. İki yüzdən çox top və artilleriya qurğuları, hava hücumuna qarşı ən müasir qurğular yerləşdirilmişdir. 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanata zidd olaraq Ermənistan üç il ərzində öz silahlı qüvvələrini, canlı qüvvəsini və texnikasını bizim ərazimizdən çıxarmamışdır. Halbuki dəfələrlə həm Ermənistan rəhbərliyi ilə təmaslar əsnasında, eyni zamanda, beynəlxalq tədbirlərdə yüksək kürsülərdən mən dəfələrlə bu məsələyə qayıdaraq Azərbaycan dövlətinin haqlı narazılığını ifadə etmişdim. 10 noyabr üçtərəfli Bəyanatı, əslində, Ermənistan dövlətinin kapitulyasiya aktı idi və bu kapitulyasiya aktına görə Ermənistan Azərbaycan ərazilərindən bütün silahlı qüvvələrini çıxarmalı idi. Ancaq bundan imtina edirdi.

Əfsuslar olsun ki, antiterror tədbirləri zamanı şəhidlərimiz olub. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Yaralı əsgər, zabitlərimiz olub. Allah onlara şəfa versin. Onlar Vətən yolunda, haqq-ədalət yolunda, Azərbaycanın suverenliyi yolunda öz canlarını fəda etmişlər. Onların əziz xatirəsi bizim qəlbimizdə əbədi yaşayacaqdır.

Əməliyyatın uğurlu gedişatı təbii ki, Ermənistan dövlətini və onun himayəsi altında fəaliyyət göstərən qanunsuz xunta rejimini ciddi təşvişə salmışdır. Əməliyyatdan bir qədər sonra bizə vasitəçilər tərəfindən müxtəlif qeyri-müəyyən siqnallar gəlməyə başlamışdır və bizim Silahlı Qüvvələrimizin uğurlu irəliləyişi nəticəsində bu siqnallar daha intensiv xarakter almışdır. Bu gün səhər beynəlxalq tərəfdaşlardan bizə verilən məlumat ondan ibarət idi ki, qanunsuz silahlı birləşmələr, Ermənistan ordusunun bu birləşmələri artıq bizim şərtlərimizi qəbul etməyə hazırdırlar. Bizim şərtlərimizi isə mən dünən mənə zəng etmiş Amerika Birləşmiş Ştatlarının Dövlət katibinə çatdırmışdım. Məndən soruşuldu ki, antiterror tədbirlərini dayandırmaq üçün nə lazımdır? Mən dedim ki, Ermənistan ordusunun bizim ərazimizdə qanunsuz məskunlaşmış birləşmələri silahları yerə qoymalı, tərksilah olunmalı, bizim ərazimizdən tamamilə çıxarılmalıdır və eyni zamanda, bütün silahları və texnikaları təhvil verməlidirlər. Ancaq o təqdirdə Azərbaycan antiterror tədbirlərini dayandıra bilər. Əks-təqdirdə sona qədər gedəcəyik və düşmən bizim gücümüzü də, qətiyyətimizi də yaxşı bilir.



Bu gün səhər saatlarında artıq bizə bildirildi ki, bizim şərtlərimiz qəbul edilib. Üstəgəl, bir neçə ay ərzində bizim nümayəndələrimizlə görüşdən imtina edən Qarabağda yaşayan erməni icmasının nümayəndələri bizimlə dediyimiz yerdə - Yevlax şəhərində görüşməyə hazırdırlar. Mənim cavabım belə oldu ki, Azərbaycan hər zaman olduğu kimi, öz sözünə sadiqdir. Bunu dostlarımız da bilir, düşmənlərimiz də bilir. Bizim sözümüz imzamız qədər dəyərlidir və bizim şərtlərimiz qəbul olunarsa, təbii ki, tədbirlərimiz, hərbi tədbirlərimiz dayandırılacaq və bu gün saat 13-də atəşkəs elan edildi. Əfsuslar olsun ki, qarşı tərəf atəşkəsə tam əməl etməyib. Atəşkəs elan olunandan sonra da bizim mövqelərimiz atəş altına düşmüşdür. Buna baxmayaraq, prinsip etibarilə bizim şərtlərimiz tam qəbul olundu və onu da bildirməliyəm, indi saat yeddiyə beş dəqiqə işləyir.

Artıq qanunsuz erməni silahlı birləşmələrinin mövqelərdən çıxarılma prosesi başlamışdır. O cümlədən onlar bizim şərtimizi qəbul edərək silahların da təhvil verilməsinə başlamışlar. Sual olunur. Bu vəziyyətə gətirib çıxarmaq kimə xeyir gətirdi? Axı, İkinci Qarabağ müharibəsindən dərhal sonra biz haqlı narahatlığımızı ifadə edərək dəfələrlə Ermənistan rəhbərliyinə, onların xaricdəki havadarlarına və digər tərəflərə müraciət edərək deyirdik ki, Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisində qalması qanunsuzdur və buna son qoyulmalıdır. Biz deyirdik ki, qanunsuz xunta rejimi öz əski parçasından artıq olmayan dırnaqarası bayraqlarını büküb cibinə qoyub bizim torpağımızdan çıxmalıdır. Bu, bizim suveren hüququmuzdur. Qarabağ Azərbaycan ərazisidir və bunu bütün dünya tanıyır, o cümlədən Ermənistan rəhbərliyi artıq bunu başa düşüb. Əgər vaxtilə "Qarabağ Ermənistandır və nöqtə" deyirdisə, indi "Qarabağ Azərbaycandır" deyir və nəinki deyir, hətta bizim ərazimizin ölçülərini də dilə gətirməyi unutmur. Düzdür, bunu öz xoşu ilə etməyib, bunu "dəmir yumruq" hesabına etməyə məcbur olub. Amma fakt göz qabağındadır. Ermənistan Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyandan sonra Qarabağda 30 il at oynadan kriminal rejimin hansı statusu ola bilər?! Hansı dövlət atributları ola bilər?! Hansı seçkilər ola bilər?! Bütün İkinci Qarabağ müharibəsi başa çatandan sonra əldə edilmiş üçtərəfli şifahi razılaşmalara rəğmən bu ayın 9-da Qarabağda saxta "seçkilər" keçirildi, saxta "prezident" seçildi, dırnaqarası prezident. Həmin o şəxs dərhal bəyan etdi ki, onlar statusun dalınca qaçacaqlar. Yəqin ki, mənim sözlərim onların yadından çıxıb. İkinci Qarabağ müharibəsi başa çatanda, Ermənistan ağ bayraq qaldıranda, diz çökəndə, kapitulyasiya aktına imza atanda mən demişdim ki, status cəhənnəmə getdi. Müharibədən bir müddət sonra biz status haqqında cəfəng ifadələri eşitmirdik. Amma görünür ki, bu qorxu onların canından yavaş-yavaş çıxdıqca yenidən revanşist qüvvələr baş qaldırır. Ona görə bütün bu amillər bir daha onu göstərir ki, qanunsuz kriminal xunta rejimi azğınlaşıb, harınlaşıb və qudurub. Unudub ki, onlar Azərbaycan ərazisində yaşayırlar. Ona görə bizim bütün addımlarımız legitimdir, hüquqidir, ədalətlidir və bütün addımlara görə biz həm məsuliyyət daşıyırıq, həm qürur hissi keçiririk. Yenə də deyirəm, antiterror tədbirləri yüksək peşəkarlıqla, dəqiqliklə elə aparıldı ki, mülki əhali zərbə altına düşmədi, mülki infrastruktura zərər vurulmadı. Ancaq düşmən mövqeləri, onların silahları, texnikaları məhv edildi.

İndi isə əminəm ki, bölgəmizdə yeni vəziyyətin yaranması labüddür. Çünki kriminal xunta rejimi təslim olandan sonra bu gərginlik mənbəyi, bu zəhər yuvası artıq tarixdə qalır və Qarabağda yaşayan erməni əhalisi də nəhayət rahat nəfəs ala bilər. Bunu mən demişəm və bir daha demək istəyirəm, Qarabağın erməni əhalisi bizim vətəndaşlarımızdır. Sadəcə olaraq, erməni millətçiləri, müharibə cinayətkarları, Ermənistanın və Qarabağın dırnaqarası rəhbərləri o insanları girov götürmüşdü, onların beyinlərini zəhərləmişdi. Azərbaycan haqqında, Azərbaycan xalqı haqqında olmazın yalanlarını uydurub onların beyinlərinə doldurmuşdur, onların beyinlərini zəhərləmişdir. Mən əminəm ki, Qarabağda yaşayan erməni əhalisi tezliklə yaxşılığa doğru dönüşü görəcək. Çünki bizim niyyətimiz sülh, qarşılıqlı anlaşma, qarşılıqlı hörmət əsasında birgə həyat qurmaqdır. Bizim erməni xalqı ilə heç bir problemimiz yoxdur, ədavətimiz də yoxdur.

Bütün haqsızlıqlara baxmayaraq, bütün kriminal Ermənistan rejimi tərəfindən törədilmiş cinayətlərə baxmayaraq, biz erməni xalqını bu cinayətlərdə heç vaxt günahlandırmamışıq. Xocalı soyqırımında, şəhərlərimizin, kəndlərimizin dağıdılmasında, qəbirlərin qazılmasında biz erməni xalqını günahlandırmamışıq. Biz kriminal rejimin ünsürlərini, başda duranlarını ittiham etmişik və biz onları məsuliyyətə cəlb edirik və edəcəyik. Bəziləri artıq öz layiqli cəzasını alıblar, bəziləri də alacaqlar.

Yevlax şəhərində mənim nümayəndəmlə Qarabağ icmasının nümayəndələrinin görüşü əsnasında biz öz baxışlarımızı, gələcək birgə yaşayış baxışlarımızı onlara çatdıracağıq. Onların bütün hüquqları təmin ediləcək - təhsil hüquqları, mədəniyyət hüquqları, din hüquqları, munisipal seçki hüquqları. Yəni, Azərbaycan azad cəmiyyətdir, Azərbaycan çoxmillətli, çoxkonfessiyalı dövlətdir. Bu, bizim böyük sərvətimizdir. Azərbaycanda yaşayan hər bir xalqın nümayəndəsi bunu görür. Bunu izah etməyə ehtiyac yoxdur. Bu, bizim həyat tərzimizdir. Heç vaxt Azərbaycanda dini, milli zəmində ayrı-seçkilik olmayıb və olmayacaq, İkinci Qarabağ müharibəsi bir daha onu göstərdi. Bütün millətlərin nümayəndələri, bütün etnik qrupların, bütün konfessiyaların nümayəndələri bir yumruq kimi birləşdi - Azərbaycan uğrunda, ləyaqət uğrunda, Vətən uğrunda! Ona görə, bax, bu gözəl ab-hava, bu, təbii bir məkandır və biz Qarabağda yaşayan erməni əhalisini buna dəvət edirik. Biz müxtəlif sosial proqramlar icra etməyə hazırıq. Biz bütün Qarabağı və Şərqi Zəngəzuru yenidən qururuq, görün, nə qədər böyük işlər görürük, cəmi iki il ərzində. O bölgədə bəlkə də 30 il ərzində heç 1 faiz də iş görülməyib - elektrik stansiyaları, körpülər, tunellər, su anbarları, yaşayış binaları, kəndlər, şəhərlər qurulur. Cəmi iki il ərzində. Heç bir yardım almadan, özümüz. İkinci Qarabağ müharibəsi başa çatanda mən demişdim, biz Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik və çeviririk, hər gələn insan onu görür. Eyni şəraiti biz Xankəndidə, Ağdərədə, Xocavənddə, kəndlərdə yaradacağıq, Əsgəranda yaradacağıq. Bu, bizim əlimizdədir. Ona görə bizim təklifimiz budur və bu gün dönüş nöqtəsi idi. Xunta, qansoran zəlilər artıq tamamilə ifşa olundu və təslim oldu. Onlar ağ bayraq qaldırdılar!

Bu gün Qarabağda yaşayan sadə insanlar üçün yeni tarixi bir şans yaradılıb. O şansı əldən verməsinlər. Biz buna hazırıq və Azərbaycan xalqı bilir, əminəm, erməni xalqı da bilir ki, mənim sözüm sözdür. Biz bunu təklif edirik və ümid edirəm ki, bizim təklifimiz qəbul olunacaq. Çünki bu, məntiqə, tarixi ədalətə, beynəlxalq hüquqa, gələcək inkişafa əsaslanan və gələcək inkişafa hesablanan təklifdir.

Ermənistan bu dövr ərzində - dünən, bu gün deyə bilərəm ki, gözlənilmədən siyasi səriştə göstərib və biz bunu qiymətləndiririk. Bunu önəmli amil kimi görürük və hesab edirəm ki, dünən və bu gün baş vermiş hadisələr, eyni zamanda, Azərbaycanla Ermənistan arasında gedən sülh prosesinə də müsbət təsir göstərəcək.

Mən ümid etmək istəyirəm ki, bizim atdığımız addımlar və antiterror tədbirlərinin nəticələri imkan verəcək ki, nəhayət sülh danışıqları üçün olan, Ermənistan tərəfindən qoyulan, verilən, təklif olunan, necə adlandırırsınız adlandırın, maneə aradan qalxa bilər. Bu, Cənubi Qafqazda yeni reallıq yaradacaq, uzunmüddətli sülh yaradacaq. Biz əmin olmalıyıq ki, qarşı tərəf revanşist fikirlərlə yaşamır və onlar da əmin olmalıdırlar ki, bizim onların torpağında gözümüz yoxdur. Biz onların ərazi bütövlüyünü tanıyırıq və bunu bəyan etmişik, bütün ölkələrin ərazi bütövlüyünü tanıyırıq. Biz, sadəcə olaraq, tələb edirdik həm onlardan, həm onların arxasında duran və onlar üçün dar məqamda onların yanında olmayan, uzaqda, Avropada yerləşən dırnaqarası erməni cəfakeşləri bilsinlər - nə qədər uzaq dursalar bizim bölgəmizdən, o qədər də bölgə rahat nəfəs alacaq və biz bunu təklif edirik. Biz təklif edirik ki, Cənubi Qafqaz ölkələrinin gələcəyi sülhə, əmin-amanlığa, inkişafa söykənsin. Biz təklif edirik ki, bölgəmizdən uzaqda yerləşən, ancaq öz siyasi gündəliyini güdən və erməni xalqından bir alət kimi istifadə edən, onları istismar edən və dar gündə onları, necə deyərlər, satan qüvvələr, saxtakarlar, korrupsiyalaşmış siyasətçilər əl çəksinlər bizdən. Dünyanın o başında oturub bizə qarşı əsassız ittihamlar irəli sürənlər əl çəksinlər bizdən, qoysunlar Cənubi Qafqaz rahat nəfəs alsın. Bu bölgə əsrlər boyu davalar, savaşlar, qanlı toqquşmalar məkanı olmuşdur. Yetər artıq! Biz bunu tələb edirik və bir daha demək istəyirəm, Ermənistan dövlətinin dünən və bu gün sərgilədiyi mövqe ümidlər verir. Ümidlər verir ki, o gün uzaqda deyil - Azərbaycan və Ermənistan öz aralarında olan məsələləri tənzimləyəcək, sülh müqaviləsi imzalayacaq və Cənubi Qafqaz ölkələri üçtərəfli formatda gələcək əməkdaşlıq haqqında işləməyə başlayacaqlar. Ancaq bununla bərabər, onu da bildirməliyəm ki, bizə xor baxanlar, torpağımıza göz dikənlər, uğurumuzu həzm edə bilməyənlər heç vaxt, heç vaxt unutmasınlar ki, "dəmir yumruq" yerindədir və hər zaman yerində olacaq! Heç kim bizimlə diktat və ultimatum dilində danışa bilməz! Bunu heç kim unutmasın! Onu da unutmasın ki, Qarabağ Azərbaycandır!

## Sahibə Qafarova: Razılaşmalardan geri çəkilmək və yeni bəhanələr irəli sürmək Ermənistanın davranış şəklidir



**Azərbaycanın güclü iradəsinə və uzunmüddətli sülh və sabitlik istiqamətində atdığı ardıcıl addımlara baxmayaraq, Ermənistanın bunun əksinə hərəkət edir. Razılaşmalardan geri çəkilmək və yeni bəhanələr irəli sürmək, real danışıqlardan qaçmaq, hərbi-siyasi təxribatlar törətmək, ərazilərimizdə yaradılmış qanunsuz separatçı rejimi bütün mümkün vasitələrlə ayaqda saxlamaq cəhdləri Ermənistanın son iki il yarım ərzində sərgilədiyi dəyişməyən davranış şəklidir.**

Adalet.az xəbər verir ki, bunu Milli Məclisin sədri Sahibə Qafarova Asiya Parlament Assambleyasının (APA) Bakıda keçirilən Sosial və mədəni məsələlər üzrə daimi komitəsinin iclasının açılış mərasimində çıxışı zamanı deyib.

O bildirib ki, sentyabrın 19-da Azərbaycanın Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələri bir sıra irimiqyaslı hərbi təxribatlara və terror aktlarına əl atdı. Bu təxribatlara cavab olaraq, ölkəmiz regionda lokal antiterror tədbirlərinə başladı. Bu tədbirlərin məqsədi Ermənistan silahlı qüvvələrinin bölmələrinin Azərbaycan ərazilərindən tərksilah edilərək çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsi və Azərbaycan Respublikasının konstitusiya quruluşunun bərpası olub.

Milli Məclisin sədri bildirib ki, ötən gün Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərin nümayəndələrinin müraciətinə baxılaraq qeyd olunan şərtlər əsasında lokal antiterror əməliyyatlarının dayandırılması barədə razılıq əldə olunub.

Sahibə Qafarova erməni sakinlərin nümayəndələri ilə bu gün yenidən başlayan dialoqun onların Azərbaycan cəmiyyətinə reinteqrasiyası ilə nəticələnəcəyinə, öz növbəsində Ermənistanın da normallaşma prosesi çərçivəsində məsuliyyətli davranacağına və regionumuzda uzunmüddətli sülhü və sabitliyi təmin edəcək sülh sazişini imzalayacağına ümidvar olduğunu bildirib.

## "Bütün ərazilərimizdə yalnız Azərbaycan və Türkiyə bayraqları..."



**"Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən antiterror tədbirləri nəticəsində Azərbaycan əsgəri böyük Ermənistan ideyasını çox böyük bir dərinlikdə əbədi olaraq dəfn etdi"**

Bunu Adalet.az-a açıqlamasında hərbi ekspert Ədalət Verdiyev deyib. Hərbi ekspert antiterror əməliyyatının nəticələrindən danışıb:

"Bu tədbirlər nəticəsində cəmi 24 saat ərzində düşmən ağ bayraq qaldırdı və təslim olduğunu elan etdi. Bundan sonrakı müddətdə erməni silahlılarına aid texnika, vasitə, avadanlıqlar rus kontingenti tərəfindən topalanaraq Azərbaycana təhvil veriləcək və erməni silahlıları da son nəfərinə qədər Azərbaycan ərazilərindən çıxarılacaq. Ən yaxın prespektivdə rusların müvəqqəti məsuliyyət zonasında qondarma qurumun əski parçaları və işğalçı Ermənistan bayraqları tamamilə ərazilərimizdən sökülüb atılacaq. Bütün ərazilərimizdə yalnız Azərbaycan və Türkiyə bayraqları dalğalanacaq. Bizimlə yaşamaq istəyən ermənilər Azərbaycan vətəndaşlığını qəbul edərək bizimlə yaşaya biləcəklər. Kim yaşamaq istəməzsə, onlar üçün yol həmişə açıq olub və indi də açıqdır. Lakin bu son təklif bizə qarşı cinayət törədən erməni silahlılarına və onların dırnağarası rəhbərlərinə aid deyil, onların sayı təxminən 500 nəfərə yaxındır. Onlar da Azərbaycan qanunvericiliyinin tələblərinə uyğun olaraq mühakimə oluncaqlar.

Azərbaycan Yevlaxda görüş təklifini qəbul edən erməni icması ilə daha əvvəl səsləndirdiyimiz təkliflər yol xəritəsi çərçivəsində, eyni zamanda da icra olunma müddəti göstərilməklə erməni icmasına təqdim olunacaq və onlar da bu təkliflərimizi mütləq icra edəcəklər. Bunun ayrı yolu yoxdur"-deyə hərbi ekspert bildirib.

## Hərbi ekspert: "Əlbəttə ki, qanunsuz erməni silahlı birləşmələri..."



**"Bir müddət idi ki, antiterror əməliyyatından söhbət gedirdi. Amma Azərbaycan bir müddət daha çox dialoqa yer verirdi və gözləyirdi ki, Qarabağdakı erməni icmasının liderləri gəlib hansısa dialoqu başlayacaqlar. Dəfərlərlə görüş təyin olunmuşdu, amma görüşlərə gəlmədilər və hətta yenidən saxta "seçki" keçirdilər"**

Bunu Adalet.az-a açıqlamasında hərbi ekspert Azad İsazadə deyib. Hərbi ekspert Ermənistanın işğaldan azad edilmiş ərazilərimizdə terror aktı törətməsinin cavabsız qalmayacağını bildirib:

"Sonuncu dəfə bizim polis əməkdaşlarımızın terror aktı nəticəsində şəhid olması və üstəkəl iki mülki şəxsin həlakı antiterror əməliyyatının başlanmasına gətirib çıxardı. Tikinti işləri gedən ərazilərdə erməni diversiya qrupu minalar basdırıblar.

Azərbaycan sözsüz qərara gəldi ki, bunlarla danışmağın mənası yoxdur və onları tərksilah etməliyik. Tərksilah etməyənə qədər mülki əhali danışığa başlamayacaq. Dünən Qarabağdan məlumat verildi ki, ermənilər artıq sülhdən danışmağa hazır olduqlarını bildiriblər. Əgər buna hazır idinizsə, bir gün öncə edəydiniz də. Əlbəttə ki, qanunsuz erməni silahlı birləşmələri tərksilah olmayana qədər heç bir dialoq olmayacaq. Amma hələlik erməni mülki əhalisi problemini necə həll edəcəyik, onu bilmirik. Hələlik onlar ərazini tərk edirlər. Kimsə qalsa, yəqin ki, onlarla hansısa dialoqu keçirə bilərik. Silahlı dəstələri isə tərksilah etməyənə qədər yəqin ki, dialoq mümkün olmayacaq. Çünki qanunsuz silahlı birləşmələri şantaj yoluyla yerli əhalini dialoqdan uzaqlaşdırdı".

**Vasif Əlihüseyn**

## Qarabağdakı erməni separatçıları ağ bayraq qaldırıb və təslim olublar



**Azərbaycanın Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin birləşmələri silahı yerə qoyub və təslim olublar.**

Adalet.az xəbər verir ki, bu barədə Azərbaycan Müdafiə Nazirliyindən bildirilib.

Qeyd olunub ki, Azərbaycan Respublikasının Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin birləşmələri, qeyri-qanuni erməni silahlı dəstələri silahı yerə qoyur, döyüş mövqelərindən və hərbi postlardan çıxır və tam şəkildə tərksilah olunurlar.

Ermənistan silahlı qüvvələrinin birləşmələri Azərbaycan ərazilərini tərk edir, qeyri-qanuni erməni silahlı dəstələri buraxılır.

**Paralel şəkildə bütün silah-sursat və ağır texnika təhvil verilir.**

# Qarabağdakı erməni hərbi birləşmələri reinteqrasiyaya mane olurdu

### Regional məsələlər məhz regionda həll edilməlidir

**"Ermənistan silahlı qüvvələrinin Qarabağda qeyri-qanuni mövcudluğu regional sülh və təhlükəsizliyə ciddi problem idi". Bunu Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət şöbəsinin müdiri Hikmət Hacıyev bildirib. H.Hacıyev vurğulayıb ki, "Azərbaycan həmişə bildirib ki, qeyri-qanuni hərbi birləşmələrin Azərbaycan ərazisindəki mövcudluğu regional sülh və təhlükəsizliyin təmin edilməsinə böyük problemlər yaratmağa davam edir. Lakin buna baxmayaraq, Ermənistan 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli bəyanatda yer alan "Azərbaycan ərazisindəki silahlı erməni birləşmələrinin çıxarılmalıdır" öhdəliyini icra etməkdən boyun qaçırıb".**

H.Hacıyev qeyd edib ki, Azərbaycan lokal antiterror tədbirləri görməyə məcbur qaldı: "Ermənistan Azərbaycan ərazisində hərbi quruculuğunu davam etdirirdi və biz 10 min hərbçinin Azərbaycanın suveren ərazisində olmasından danışırıq. Bundan başqa, 100 tank elementi, 200 artilleriya hissəsi və raket mövcuddur. Azərbaycan dəfələrlə bunlarla bağlı çağırışlar edib, ancaq təəssüf ki, onlar Azərbaycanın çağırışlarına diqqət yetirməyiblər. Buna görə də Azərbaycan ərazisində lokal antiterror tədbirləri görməyə məcbur qaldı. Başqa seçim yox idi. Bu tədbir lokal və məhdud xarakter daşıyırdı. Biz genişmiqyaslı hərbi əməliyyatdan qətiyyən danışmırıq".

Prezident köməkçisi onu da söyləyib ki, Azərbaycan heç bir halda mülki şəxsləri hədəf almayıb: "Ancaq azərbaycanlı mülki şəxslər və polis əməkdaşları Ermənistanın Azərbaycanın Qarabağ regionundakı qanunsuz hərbi birləşmələrin təxribatçı qrupları tərəfindən basdırılmış mina qurbanı oldular".

H.Hacıyev bildirib ki, "44 günlük müharibədən sonra sülh sazişi ilə bağlı təşəbbüs Azərbaycana məxsusdur, baxmayaraq ki, 30 il ərzində işğala məruz qalan tərəfdir".

Onun sözlərinə görə, iki ölkə arasındakı sülh mətnini də Azərbaycan hazırlayıb təqdim etmişdi: "ABŞ və digər dövlətlər də sülh sazişi üçün platformalar təqdim etmişdir. Amma məsələ harada müzakirə aparmaq yox, nəyi müzakirə etməkdir.

Sülh sazişini, fikrimcə, 70 faiz razılaşdırmışdıq. Amma hazırda bu, qarşılıqlı proses olmalıdır.

Mənfi tendensiyalara görə, təəssüf ki, növbəti danışıqlar Vaşinqtonda baş tutmadı. Amma yenə də biz sülhün mümkün olduğunu düşünürük. Ermənistan da buna cəhd göstərməlidir. Ermənistanın heç bir hərbi birləşməsi bundan sonra Azərbaycan ərazisində olmamalıdır".



Qarabağdakı erməni hərbi birləşmələrin mövcudluğunun reinteqrasiyaya mane olduğunu qeyd edən H.Hacıyev bildirib ki, "Ona görə də Azərbaycan Ordusu məhdud, lokal antiterror tədbirləri keçirməli oldu. Azərbaycan Ordusu həssaslıqla davrandı, mülki obyektlərə zərbə endirmədi.

Eyni zamanda bu antiterror tədbirləri Qarabağ sakinlərinin telefonlarına göndərilmiş SMS-lər vasitəsilə onlara xəbərdarlıq edilirdi ki, hərbi obyektlərdən uzaq dursunlar. Bir daha demək istəyirəm ki, antiterror tədbirləri lokal və məhdud şəkildə həyata keçirildi".

H.Hacıyev bildirib ki, Azərbaycan Silahlı Qüvvələri Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzinə də lazımi məlumatları vermişdi:

"Azərbaycan antiterror tədbirlərinin məqsədini açıqladı. Biz təkliflərimizi verdik və prosesin dayanması barədə razılıq əldə olundu. Azərbaycan həmçinin Ermənistanla əlaqələrin normallaşmasına və sülhə sadiqdir. Artıq erməni silahlıların tərksilah olunması barədə Azərbaycana zəmanət verilib, eyni zamanda onlar hərbi mövqeləri tərk edəcək və silahlarını Azərbaycana təhvil verəcək".

Prezidentin köməkçisi bildirib ki, prosesin hansı marşrutlar üzrə həyata keçiriləcəyinin işçi mexanizmləri üzərində işlər görülür.

Digər ölkələrin öz aralarındakı geosiyasi rəqabəti Cənubi Qafqaza daşımasına ehtiyac yoxdur -deyən Prezidentin köməkçisi bildirib ki, Azərbaycanın mövqeyi ondan ibarətdir ki, regional məsələlər məhz regionda həll edilməlidir və Azərbaycan bu gündəliyin tərəfdarıdır: "Cənubi Qafqaz regionu onsuz da münaqişələrdən, təhlükələrdən uzun müddət əziyyət çəkib. Ermənistan da öz növbəsində bu kimi siyasətlərin həyata keçirilməsinə alət olmamalıdır".

**Nicat Novruzoğlu**

## Qərargah rəisləri Komitəsinə yeni rəis təyin olundu



**ABŞ senatı hərbi hava qüvvələri komandanı general Çarlz Braunu Qərargah rəisləri Komitəsinin rəhbəri vəzifəsinə təyin edilməsini təsdiq edib.**

Bu barədə məlumat verən ABC-News bildirir ki, general Braunun Baş Qərargah rəisi vəzifəsinə namizədliyini ABŞ prezidenti Co Bayden irəli sürüb. Braun bu vəzifədə 2019-cu ilin oktyabr ayından fəaliyyət göstərən general Mark Millini əvəz edəcək. Çarlz Braun köklü hərbiçidir. O, 1984-cü ildən ABŞ hərbi Qüvvələrində çalışır. 2016-2018-ci illərdə Hərbi Dəniz Qüvvələrinin Sakit okean birləşməsinin komandanı olub.

**Rüstəm Hacıyev**



*Rüstəm Hacıyev*

# Ermənilərin papaları da müraciət etdi

**Ermənilərin bacısı Makronun ardınca papaları- Roma Papası Fransisk Qarabağda hərbi hərəkətlərin dayandırılması ilə bağlı çağırış edib.**

**”Bütün dünya cəmiyyətini silahları yerə qoymağa və sülh danışıqları yollarını tapmağa çağırıram”- deyə katolik kilsəsinin rəhbəri bəyan edib.**

**Görəsən Roma Papası ermənilərin 30 ilə yaxın Azərbaycan torpaqlarını işğal etməsi, bir milyona yaxın insanın doğma yurd-yuvalarından məcburi qovulması, Xocalı qətliamını törədəndə, işğal etdikləri şəhər və kəndlərimizin altını üstünə çevirəndə, tarixi mədəniyyət və dini abidələrimizi daxğdaraq təhqir edəndə harda yatmışdı?**

**Ali Baş Komandanımızın rəhbərliyi ilə 44 gün ərzində azad edilmiş Qarabağ torpaqlarında Zəfər Qələbısindən sonra da təxribatlar törədən, dinc sakinlərin ölümünə səbəb olan, ermənilərin işğal dövründə bu ərazilərdə basdırılan mina sahələrinin xəritələrini verməyəndə niyə səsi çıxmırdı bu ”makronların”, ”papaların”?**

**2020-ci il 10 noyabr razılaşmasından sonra da təxribatlar törətməkdə davam edən separatçılara və bölgədə ”fəaliyyət göstərən” Rusiya sülhməramlılarına Azərbaycan dövləti tərəfindən dəfələrlə rəsmi xəbərdarlıqlar edilməsinə baxmayaraq , heç bir tədbir görülməməsi, Azərbaycan tərəfini öz ərazilərində terrorçu separistlərə qarşı antiterror əməliyyatları keçirmək məcburiyyəti qarşısında qaldı. Bu əməliyyatların ilkin mərhələsi uğurla həyata keçirildi.**

**Aldığımız son məlumatlara görə, Qarabağda yaşayan erməni icması Azərbaycan tərəfinin antiterror əməliyyatlarını dayandırması şərtlərini qəbul ediblər və aparılan əməliyyatlar dayandırılıb. Görək ermənilər heç olmasa bu dəfə verdikləri sözə əməl edəcəklərmi, yoxsa daha bir antiterror əməliyyatı keçirməli olacağıq?**

# *Korotçenko:* İlham Əliyev görkəmli siyasətçi, Paşinyan isə uğursuzdur

**Prezident İlham Əliyev müasir dövrün görkəmli siyasətçisidir, Paşinyan isə uğursuzdur.**

Adalet.az bildirir ki, bunu sosial şəbəkədə Xəzər Strateji Araşdırmalar İnstitutunun (HASEN) baş direktoru İqor Korotçenko yazıb.

”Qısacası, başqa cür ola da bilməzdi. Bu istənilən obyektiv analitikə məlum idi”, - HASEN-in baş direktoru qeyd edib.

Korotçenko vurğulayıb ki, BMT-nin Təhlükəsizlik Şurasının Qarabağdakı vəziyyətlə bağlı iclası artıq heç nəyi dəyişməyəcək. De-yure və de-fakto Qarabağ Azərbaycandır. Artıq həmişəlik. Reallıq budur.

Onun sözlərinə görə, Rusiya ilə Azərbaycan arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamənin imzalanması və qüvvədə olması faktı mühüm əhəmiyyət kəsb edir.

”Rusiya Prezidenti Vladimir Putinlə Azərbaycan Prezidenti İlham Əliyevin əla şəxsi münasibətləri var. Bizim ümumi məqsədimiz ABŞ və Fransanın Cənubi Qafqazda ”suyu bulandırmaması”dır. Bu istiqamətdə çalışacağıq”, - deyə o, əlavə edib.

Qeyd edək ki, üçtərəfli bəyanatın müddəalarının təmin olunması, Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması, Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərksilah edilərək ərazilərimizdən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, işğaldan azad edilmiş ərazilərə qayıdan dinc əhali, habelə bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilər və hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin olunması və Azərbaycan Respublikasının konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə bölgədə lokal xarakterli antiterror tədbirlərinə başlanılıb.

Tədbirlər çərçivəsində Ermənistan silahlı qüvvələrinin birləş-



mələrinin ön xətt və dərinlikdə olan mövqeləri və uzunmüddətli atəş nöqtələri, eləcə də döyüş vasitələri və hərbi təyinatlı obyektləri yüksək dəqiqlikli silahların tətbiqi ilə sıradan çıxarılır. Mülki əhali və infrastruktur obyektləri hədəfə alınmır, yalnız legitim hərbi hədəflər sıradan çıxarılır.

Qarabağın erməni sakinlərinin nümayəndələrinin Rusiya sülhməramlı kontingenti vasitəsilə müraciətini nəzərə alaraq, 2023-cü il sentyabrın 20-də saat 13:00-da aşağıdakı şərtlər altında lokal xarakterli antiterror tədbirlərinin dayandırılması barədə razılıq əldə olunmuşdur:

**1. Azərbaycan Respublikasının Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin birləşmələri, qeyri-qanuni erməni silahlı dəstələri silahı yerə qoyur, döyüş mövqelərindən və hərbi postlardan çıxır və tam şəkildə tərksilah olunurlar.**

**Ermənistan silahlı qüvvələrinin birləşmələri Azərbaycan ərazilərini tərk edir, qeyri-qanuni erməni silahlı dəstələri buraxılır.**

**2. Paralel şəkildə bütün silah-sursat və ağır texnika təhvil verilir.**

**3. Yuxarıda qeyd olunan proseslərin Rusiya sülhməramlı kontingenti ilə əlaqələndirilmiş şəkildə həyata keçirilməsi təmin edilir”.**



*Elxan Şükürlü*

# *Qərb açıq-aşkar qarşımızdadır...*

***Azərbaycanın Qarabağda başladığı antiterror əməliyyatlarına hansı ölkənin necə reaksiya verdiyi, bölgədə rəqabət aparan güc mərkəzlərinin rəsmi mövqeyi artıq ortadadır.***

***Gözlədiyimiz kimi, Türkiyə, Rusiya və İran Azərbaycanın yanında, Qarabağda ”Kosovo ssenarisi”nin tətbiqinə çalışan Qərb isə açıq-aşkar qarşımızdadır...***

***İndi bildiniz ki, Qərbin ölkəmizdəki ”5-ci kolon”unun təmsilçiləri niyə 3 ildir bataqlıq qurbağalarıtək çöldən və içəridən səs-səsə verib ”Rusiya Qarabağda əməliyyatlar aparmağımıza imkan vermir” tezisiylə bar-bağırır, ermənilərin törətdiyi bütün cinayətlərin məsuliyyətini məqsədli şəkildə Rusiyanın üzərinə yıxır, Paşinyan Ermənistanını qorumağa və Azərbaycandan da Rusiya əleyhinə bir cəbhənin açılmasına çalışırdılar?!***

***Bax, bugünlər üçün!***

***Bir gün Rusiya sülhməramlılarının mövcud olduğu ərazilərdə başladacağımız antiterror əməliyyatlarının uğursuzluğa düçar olması, Azərbaycan əsgərləriylə Rusiya hərbçiləri arasında toqquşmanın yaradılması və beləcə, Paşinyan hakimiyyətinin və erməni separatizminin qalıcılığının təmin edilməsi üçün!***

***Elə bilirəm, bu gün bu şəbəkəyə ən yaxşı cavabı indiyədək söydükləri Peskov və Zaxarova verdi: Rusiya açıq şəkildə Ermənistana dedi ki, Azərbaycan əməliyyatları öz ərazisində aparır, Kremldən kömək gözləməsinlər!***

***Bütün günü ”sülh göyərçini” kimi təqdim edilən Avropa İttifaqı isə Jozef Borelin bəyanatıyla artıq Azərbaycanla Ermənistan arasında sülh danışıqlarına meydança olmaq haqqını itirmiş sayıla bilər.***

***Yeri gəlmişkən, bu gün ölkəmizin keçirdiyi antiterror tədbirlərinə siyasi partiyaların dəstək Bəyanatına da yalnız 3 partiya AXCP, ”Müsavat” və ”ReAl” - qoşulmaqdan imtina edib ki, hər üçü də Azərbaycanın Avropa İttifaqına və NATO-ya inteqrasiyasının tərəfdarıdır.***



*Zaur Əhməd*

# Hər çətinliyin sonu rahatlıqdır

***Elə məqamlar var ki, vətəndaşa hansı informasiyanın verilməsini Dövlət özü tənzimləməlidir. Bu gün Dövlət bu tənzimləməni qaydasında həyata keçirir. Bir vətəndaşın nəyi bilməlidir, o deyilir. Əgər deyilməyən nəsə varsa, deməli, bu gün onun vətəndaşa aidiyyatı yoxdur. Axı, əməliyyatların hansı mərhələdə olduğu, nələrin baş verdiyini bu dəqiqə öyrənsəz, nə baş verəcək ki?***

***Lazım olan adamlar lazım olan məsələləri bilir və ona uyğun addım atırlar. Bu gün əsas iki qüvvə vacibdir: Biri antiterror tədbirlərini icra edən Azərbaycan əsgəri, ikincisi, bu planın qurucusu, əmr və məsuliyyət sahibi Ali Baş Komandan...***

***İmkan verək, hərə öz işini görsün. İndiki situasiyada media olaraq, bizə bəli bir missiya düşür, konkret konturları da verilib və bunu icra edirik. Başqa zamanlardan fərqli olaraq, bu daha səliqəli və məsuliyyətli görünürük. İstisnalar hər zaman var.***

***Xalq da ki, hər zamankı kimi ayaqdadır, narahatdır, qəlbi Ordumuzladır. İndi təmkinli olmaq məqamıdır. Çətin də olasa, təmkinli olaq. Hər çətinliyin sonu rahatlıqdır. Allah bu Dövlətə qüdrət, bu millətə firavan həyat nəsib etsin...***

# Koronavirusla bağlı əhaliyə xəbərdarlıq

**Dünyada COVİD-in yeni ştammlarının sürətlə yayılması narahatlıq doğurur. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, son 1 ayda dünya üzrə yoluxanların sayı 38% artıb.**

Adalet.az xəbər verir ki, Avropada yoluxmaya artım 39, Sakit okeanın qərbində 52, Aralıq dənizinin şərqində isə 113 faiz təşkil edir. Yoluxmaların artmasına koronavirusun sonradan ortaya çıxan yeni variantlarının, xüsusən də Eris olaraq bilinən Eg.5 və Pirola adlandırılan BA.2.86-nın səbəb olduğu qeyd edilir.

Hazırda ABŞ-də COVİD-ə yoluxma 2020-ci ilin ilk pandemiyasının statistikasına yaxınlaşır. ABŞ-də gündə 650 mindən artıq amerikalıda COVİD aşkarlanır və yaxın aylarda ölkə əhalisinin 10 faizə yaxınının virusa yoluxacağı proqnozlaşdırılır. Ölüm halları avqustla müqayisədə 5% artıb. Son həftə ərzində ABŞ-də COVİD-ə görə xəstəxanaya yerləşdirilənlərin sayı 8,7%, ölüm halları isə 4,5% artıb. ABŞ Federal Səhiyyə Təşkilatı amerikalıları COVİD-19-a qarşı vaksin olunmağı tövsiyə edib.

Almaniya, Fransa, Koreya, İtaliya, Böyük Britaniya, Avstraliya və Sinqapurda da yoluxma sayında kəskin artım qeydə alınıb. Almaniyada gündəlik yoluxmaların sayının son dörd həftə ilə müqayisədə iki dəfə artdığı açıqlanıb. Almaniyada Eris və digər alt variantlara qarşı təsirli olduğu iddia edilən yenilənmiş peyvəndlər bu gündən etibarən tətbiq olunmağa başlasa da, Fransada peyvənd kampaniyası 2 həftə erkənə alınıb. Fransadakı peyvənd kampaniyasında ilkin olaraq XBB.1.5-ə uyğunlaşdırılmış yeni Pfizer peyvəndi istifadə ediləcək.

O cümlədən, Latviyada yayda test nəticələrinin 5-10% pozitiv olduğu halda, hazırda



bu rəqəm artıq 25%-ə yaxınlaşır. Ölkə əhalisinə bir həftə evdə qalmaq və digər şəxslərlə kontakt qurmamaq, küçəyə çıxan zaman isə respiratorlardan istifadə tövsiyə olunur.

Rusiyanın Altay vilayətində COVİD-ə yoluxma artdığına görə 49 məktəbdə karantin məhdudiyyətləri tətbiq olunub, 6 məktəb isə ümumiyyətlə karantinə bağlanıb. ”Suqruntenfqaz”da yenidən maska rejiminə keçid müzakirə olunur.

ÜST risk zonasında olanlar, əsasən, immuniteti aşağı olan yaşlı təbəqəni revaksinasiya olmağa çağırır.

Xatırladaq ki, Ümumdünya Səhiyyə Təşkilatı mayın 18-də vaksinlərin dominant XBB.1 ştammlarına uyğunlaşdırılmasını tövsiyə edib. Avropa bazarlarında XBB.1.5-i hədəf alan üç yeni vaksin hazırlanıb. Avropa Səhiyyə Agentliyi sentyabrın 1-də BioNTech-Pfizer-in RNT peyvəndinin Avropada marketinq icazəsini təsdiqləyib. Modernanın oxşar peyvəndi də sentyabrın 15-də təsdiqini alıb. Novavax-dan zülal əsaslı peyvənd isə hələ qiymətləndirilmə mərhələsindədir. Avropa Səhiyyə Agentliyi qeyd edir ki, hər üç peyvənd ümidverici effektivlik əlamətləri göstərir.

Səhiyyə Nazirliyinin mütəxəssis-eksperi, infeksionist Vasif Əliyev açıqlamasında bildirib ki, hazırda qonşu ölkələrdə COVID-19-un yeni variantı aşkarlanıb:

”COVID-19-un yeni ştammı, həmçinin qrip, digər respirator infeksiyalar nisbətən yüngül formada keçdiyindən xəstələr əksər hallarda test vermək üçün xəstəxanaya və poliklinikalara müraciət etmirlər, ev şəraitində simptomatik müalicə alırlar. Bu isə öz növbəsində belə infeksiyalara yoluxmuş insanların rəsmi qeydiyyata alınmasını çətinləşdirir.

Hazırda Azərbaycanda koronavirusun ”Eris” variantının yayılması barədə rəsmi məlumat yoxdur. Vətəndaşlarımıza bildirmək istərdim ki, bütün respirator infeksiyalardan qorunma tədbirləri eynidir. Sanitar və gigiyenik qaydalara riayət edilməsi vacibdir. Bura sosial məsafənin gözlənilməsi, xəstə insanın ev şəraitində izlənilməsi, əl təmizliyi kimi qaydalar və.s. aiddir”.

## *“Ağdam-Xankəndi yolu açılmasaydı...”*



**”Beynəlxalq Qırmızı Xaç Komitəsi və rus sülhməramlıları separatçları başa saldılar ki, siz mane olmayın, çünki itkilərə məruz qalacağıq”**

Bunu Adalet.az-a açıqlamasında politoloq Zərdüşt Əlizadə Ağdam-Xankəndi yolunun açılması haqda danışarkən deyib. Politoloq daha sonra bunları əlavə edib:

”Çünki Azrbaycan Beynəlxalq Qırmızı Xaç Komitəsinə cəza tədbiq edə bilərdi, rus sülhmramlılarına isə artıq cəza tədbiq edib. Ondan sonra bildirdilər ki, rol oynamağınız kifayətdir. Biz sizə göstəriş veririk ki, o roldan çıxasınız. Separatçılar da o roldan çıxdılar.

Razı oldular ki, hər iki yoldan yüklər keçsin. Ağdam yolu açılır, o cümlədən də Azərbaycan və erməni tərəfi üçün də Laçın yolu açılır. Əslində separatçılar bu rolu rus sülhməramlılarının göstərişi ilə oynayırdılar”.

## *“Azərbaycan Ordusu onlara qarşı hərbi əməliyyat...”*

**”Ermənilər açıq sürətdə bizə qarşı müharibə elan ediblər. Sözün həqiqi mənasında öz qəlblərinə sığmırlar. Biz güzəştə getdikcə, onlar daha da ruhlanır”**



Bunu Adalet.az-a açıqlamasında politoloq Qabil Hüseynli erməni təxribatı haqda danışarkən deyib. Politoloq artıq anti-terror əməliyyatlarına ehtiyac olduğunu bildirib:

”Məncə, antiterror əməliyyatları həyata keçirilməlidir, bütövlükdə Azərbaycan ərazisində erməni silahlı birləşmələri ya silahı yerə qoyub təslim olmalıdır, rədd olub çıxıb getməlidir, ya da Azərbaycan Ordusu onlara qarşı hərbi əməliyyat keçirməlidir. Artıq başqa yolu yoxdur.

Nə Amerikadan, nə də Avropadan heç bir rica almaq lazım deyil. Biz öz suverenliyimizi, ərazi bütövlüyümüzü, insanların asayişini qoruyuruq və əgər burda bizə qarşı kimsə təxribata cəhd edirsə, onun da cəzasını verməliyik”.

**Vasif Əlihüseyn**

## *“Antiterror əməliyyatı Ermənistanın separatizm siyasətinə son qoydu...”*

**”Sentyabrın 19-da 20-nə kimi Azərbaycanın Qarabağ iqtisadi rayonunda erməni silahlı birləşmələrinə qarşı antiterror əməliyyatı uğurla həyata keçirildi. Hər hansı bir mülki obyekt və mülki insan zərər görmədi. Nəticədə Azərbaycan çox ciddi uğurlar əldə etdi”**

Bunu Adalet.az-a açıqlamasında politoloq Məhəmməd Əsədullazadə deyib. Politoloq daha sonra bunları əlavə edib:

”Demək olar ki, konstitutsiya quruluşunun bu ərazilərdə tətbiq etmək istiqamətində də ciddi irəliləyişlər əldə etdi. Artıq erməni separatçıları təslim oldular. Bu gün Yevlaxda danışıqlara gəldilər. Hesab edirəm ki, antiterror əməliyyatları uğurlu alındı. Azərbaycan daha da mütəşəkkil çevik olduğunu göstərdi. Həmçinin siyasi mövqedə apardığımız danışıqlarda Azərbaycanın mövqeyini daha da gücləndi. Düşünürəm ki, bu istiqamətdə Azərbaycan tərəfi Ermənistanla aparılan danışıqlarda da Qarabağ gündəliyini kənara qoydu, bunun Azərbaycanın daxili işi olduğunu bir daha nümayiş etdirdi. Antiterror əməliyyatının nəticəsi artıq iki yüz illik Ermənistanın işğal, separatizm siyasətinə son qoydu. Azərbaycan Xankəndi üzərində nəzarətini də bərpa edəcək”.

**Vasif Əlihüseyn**

## *Peskov:* “Qarabağda etnik təmizləmədən danışmağa əsas yoxdur”



**”Kreml hələ ki, Dağlıq Qarabağda ”etnik təmizləmə” haqqında danışmaq üçün heç bir əsas görmür .Hələlik etnik təmizləmədən danışmaq üçün heç bir səbəb yoxdur. Bunun üçün birbaşa təmaslar var və bu zaman biz mümkün narahatlıqlarımızı çatdırırıq”.**

Adalet.az xəbər verir ki, bunu Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov Birinci Kanala şərhində bildirib. Peskov qeyd edib ki, Rusiya Federasiyası Azərbaycan mülki hədəfləri vurmayacağına dair vədinə əməl edəcək. ”Biz Bakıdan yalnız hərbi hədəflərin hədəf alındığı barədə bəyanatlar eşidirik. Biz bunun doğru olduğuna ümid etmək istəyirik”, - Kreml sözçüsü bildirib. ”Biz əminik ki, Qarabağın erməni əhalisinin bütün hüquqları və təhlükəsizliyi təmin edilir”, - o vurğulayıb. Peskov bildirib ki, Rusiya Federasiyası Qarabağdakı vəziyyətin indi Azərbaycanın daxili işi olduğunu qəbul edir. ”Əlbəttə, Qarabağ Azərbaycanın daxili işidir”, - deyə o, müvafiq sualı cavablandırıb. ”Azərbaycan isə Ermənistan rəhbərliyi tərəfindən tanınan öz ərazisində fəaliyyət göstərir”, - Peskov əlavə edib.

## *"Ermənistanın və ona dəstək verən qüvvələrin törədilən terror aktlarında..."*



**”Ermənistan 44 günlük Vətən müharibəsindən sonra belə bölgədə terrorlarını davam etdirir. Xüsusən də mina terroru davam etməkdədir”**

Bunu Adalet.az-a açıqlamasında politoloq Samir Hümbətov ermənilərin işğaldan azad edilən ərazilərimizdə terror aktı törətməsi haqda danışarkən deyib. Politoloq cavab tədbirlərinin görülməsinin vacibliyini vurğulayıb:

”Ötən il də bu hal baş vermişdi və iki jurnalistimiz ermənilərin terror qurbanına çevrildi. Demək olar ki, bu artıq qarşısı alınmaz hal alıb. Bu baxımdan hesab edirəm ki, terror aktları bu gün də var. Mina xəritələrinin Azərbaycana verilməməsi və verilən xəritələrinin yanlış olması da erməni terorrunun açıq nümunəsidir. Bu baxımdan hesab edirəm ki, Ermənistanın və ona dəstək verən qüvvələrin törədilən terror aktlarında əlləri var və etdikləri hərəkətlər əslində Ermənistanın terora rəvac verməsinə şərait yaradır. Əslində bu məsələni daha da irəli aparıb dünyada sülhə, sabitliyə, stabilliyə, təhlükəsizliyə ciddi zərbə vurmasına şərait yaradır”.

## *Menendez yenə başından yekə danışdı*

**Qatı ermənipərəst mövqeyi ilə tanınan senator Menendez növbəti dəfə ağzını qoyub ”Allah yoluna”**



Adalet.az xəbər verir ki, ABŞ Senatının Xarici Əlaqələr Komitəsinin rəhbəri Bob Menendes yenə ermənipərəst olduğunu ortaya qoyub. O, məlumat verib ki, ABŞ dövlət katibi Entoni Blinkenə (guya Artsaxla sərhəddə) Azərbaycan qoşunlarının artırılması və onların təcavüzünün davam etməsi ilə bağlı narahatlığını bildirib və ötən həftə komitənin dinləmələrində münasibət bildirib: ”Biz Əliyevi məsuliyyətə cəlb etməli və Dağlıq Qarabağ ermənilərinə dərhal dəstək verməliyik”, - senator özünün X (keçmiş Twitter) mikrobloqunda yazıb.

Qeyd edək ki, bu günlərdə Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Azərbaycana qərəzi ilə seçilən amerikalı senator, Senatın Xarici Əlaqələr Komitəsinin sədri Bob Menendezə cavab verib.

Hikmət Hacıyev bununla bağlı ”X” platformasında (”Twitter”) paylaşım edib.

”Konqresmen Menendez ciddi korrupsiya iddialarına cavab vermək əvəzinə Senatın Xarici Əlaqələr Komitəsinə yalan məlumat və saxta şəkillərlə yalan danışır. Şəkildə təqdim olunan şəxs xərçəng xəstəliyindən dünyasını dəyişib. Ermənilər özləri də tibbi sübutlar təqdim etdikdən sonra bu çılpaq yalandan istifadə etdikləri üçün utanırlar.

Bu cür lobbiçilik, ”pul danışır” yanaşması, azərbaycanlılara və başqalarına qarşı açıq-aşkar yalan və irqçi nifrət ABŞ Konqresinin imicinə və qlobal reputasiyasına xələl gətirir”, - Hikmət Hacıyev paylaşımında qeyd edib.

***P.S.** Menendezin ağlı olsa ləkəli fəaliyyətindən utanıb , abrına-həyasına qısılar, heç kimi ittiham etməzdi.*

**Əntiqə Rəşid**

# Arayikin bəhanəsi Samvel üçün də keçərlidir: "1500 fərari " faktı

**30 il torpaqlarımızda at oynadan, bildiyini edən Ermənistan ordusu nəhayət 2020-ci ilin 27 sentyabrda başlanan 44 günlük müharibədə layiq olduqları cəzanı artıqlaması ilə aldı. Bu dəfə onlara nə havadar dedikləri ölkələr, nə 200-ə yaxn erməni terror təşkilatları, nə də dünyaya səpələnmiş, maliyyəsi ilə ordunu ayaqda tutmağa çalışan erməni diasporaları kömək edə bilmədi.**





Separatçı rejiminin başçısı Araik Arutyunyan 44 günlük müharibə zamanı ”Facebook” hesabında canlı yayım zamanı: ”Hadrutdan 1500 erməni hərbçisi bir neçə kəşfiyyat-diversiya qrupunun qarşısından qaçdı. Geri dönməyə və döyüşməyə razı salmağa çalışdım. Satqınlar Qarabağdan qaçan, cəbhəyə getməmək üçün Yerevanda gizlənən həmin kişilərdir”, - deyə bildirdi. ”Joğovord” nəşri ”10 mindən artıq Ermənistan vətəndaşı fərarilikdə ittiham olunur” sərlövhəli məqaləsində yazır: ”Dindirilmə zamanı təqsirləndirilən şəxslər müharibəyə asanlıqla getdiklərini, lakin ”göydən alov yağanda”, həmkarları ”gözləri önündə külə çevriləndə” ya ölməli, ya da xilas olmaq üçün qaçmalı olduqlarını deyirlər. Müstəntiqlər isə fərarilərin hərəkətlərini qanun nöqteyi-nəzərindən necə qiymətləndirəcəklərini bilmirlər. Bu məsələ hələ də səlahiyyətli orqanlar tərəfindən həllini tapmayıb”. ”Vestnik Kavkaza” nəşrində yayımlanan redaksiya məqaləsində rusiyalı hərbi ekspert Oleq Kuznetsov erməni hərbçiləri arasında yayılan fərariliyin səbəbini Azərbaycan Ordusunun gücündə olduğunu vurğulayıb: ”Məsələ Azərbaycan Ordusunun total hərbi-texniki üstünlüyündən gedir. Bu, təbii ki, mənəvi-psixoloji ruhu dağıtdı. Belə şəraitdə dözümlülüyü saxlamaq demək olar ki, mümkün deyil. Bu, kütləvi fərariliyə gətirib çıxardı”.

Uzun sözün qısası, baş separatçı Arayik o vaxt bu faktları əsas gətirib, özünü məsuliyyətdən qurtara bildi. Çünki, ötən gündən Azərbaycanın başlatdığı antiterror əməliyyatlarında silah-sursatı tükənən Ermənistan silahlı qüvvələri birləşmələrinin hərbi qulluqçuları pərakəndə şəkildə təşviş içində döyüş mövqelərini tərk edirlər. Daha dəqiq, başlarını götürüb aradan çıxdılar.

**Hazırda separatçıların yeni ”rəhbəri” Samvel Şahramanyan da Ermənistan mediasını və cəmiyyətini dərin kədərə qərq edən eyni faktlardan yapışmalıdır. Məsələn Samvel ”qədim” erməni xalqı”nın qədim adətlərindən biri olan ”səngərdən qaçmaq” döyüş fəndini əsas gətirib, özünü təmizə çıxara bilər.**

**Əntiqə Rəşid**

## *Hafiz Hacıyev: "Burda müəyyən qüvvələrin yenə oyunu ola bilər..."*

**”Bildiyimiz kimi Cənab Prezidentin göstərişi ilə uğurlu antiterror əməliyyatı keçirildi və ermənilər ağ bayraq qaldırdılar. Amma indi onlara da inanmaq olmaz. Bunlar dünən Rusiya sülhməramlı kontingentinin bir neçə əsgərini öldürdülər. Ermənilər özlərinə qoyulan millət deyillər. Qarabağda yaşayan erməni icmasının nümayəndələri Yevlaxa gəlirlər və bu gün hər şey aydın olacaq”**



Bunu Adalet.az-a açıqlamasında Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev antiterror əməliyyatının nəticələri haqda danışarkən deyib. H.Hacıyev daha sonra bunları əlavə edib:

”Biz qətiyyətlə sözümüzü deməliyik, bu məsələyə son qoymalıyıq və sonraya saxlamamalıyıq. Xankəndində, Ağdərədə və Xocalıda bizim bayraqlarımız asılmalıdır. Azərbaycanın konstitutsiyasına uyğun bizim ərazilərimizdə Azərbaycan qanunları tam işləməlidir, hakimiyyət orqanlarının orda strukturları fəaliyyətə başlamalıdır. Ora Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəsi təyin edilməlidir. Kim qanunlara hörmət edəcəksə, qalacaq, kim hörmət etməyəcəksə, qapılar açıqdır çıxıb getsin. Ona görə də ciddi şəkildə bu məsələləri ortaya qoymalıyıq və deməliyik ki, budur. Daha neçə aylarla gözləməyə yol vermək olmaz. Çünki bilirsiniz ki, burda müəyyən qüvvələrin yenə oyunu ola bilər. Biz Vətən müharibəsində Xankəndinə girmək ərəfəsindəydik və onda orda olsaydıq, bu günə qədər belə əziyyətləri çəkməzdik.

Düşünürəm ki, Cənab Prezident bunu öz çıxışı zamanı açıq şəkildə hər şeyi bildirdi. Bu ermənilərin axırıncı oyunudur. İndi özləyib görək Yevlaxdakı görüşdən sonra nə olacaq”.

**Vasif Əlihüseyn**



Faiq QİSMƏTOĞLU
faiqqismetoqlu@box.az

# BELƏ HAQSIZLIQ OLMAZ AXI!

***... Sentyabrın 18-də axşam saatlarında özəl televiziyaların birində gedən xəbərə baxandan sonra lap dilxor oldum. Dilxor oldum ki, bir çox nazirliklərdə və idarələrdə hələ də haqsızlıq və ədalətsizlik hökm sürür. Həmin süjetdə bir müəllimənin 80 bal toplamasından danışılırdı. Elm və Təhsil Nazirliyinin müəllimlərlə bağlı keçirdiyi imtahanda həmin xanım yüksək nəticə qazanıb. Amma buna baxmayaraq, neçə aydır ki, onu get-gələ salırlar və işə götürmürlər. Xanım deyir ki, mən məktəb direktorunun yanına gedirəm, o, isə and-aman edir ki, vakant yerimiz yoxdur. Bəs vakant yer yoxsa, niyə məlum nazirlik imtahan keçirir və bu sahədə müəyyən addımlar atmaq istəyir?!Təəssüf ki, bu addımlar bəzi hallarda uğurlu alınmır.***

***İndi həmin xanım qalıb Regional Təhsil İdarəsi ilə məktəblərin arasında. Hərə bir söz deyir. Amma heç kəs onun halal haqqını özünə qaytarmaq istəmir...***

***Bu xanımın həyat yoldaşı 2016-cı ildə Aprel döyüşlərində çox böyük qəhrəmanlıq və şücaət göstərib. İndi İraqda Azərbaycanın Sülhməramlılar Dəstəsində xidmət edir. Belə bir vətənpərvər, qeyrətli insanın həyat yoldaşı isə işə qəbul olunmur. Onlar fikirləşmirlər ki, belə qeyrətli oğlanların hesabına bu Vətən, bu ölkə rahat nəfəs alır?! Adamı yandıran odur ki, 30-40 bal toplayan müəlliməni işə götürürlər, amma 80 bal yığan insan qalır "oyundankənar" vəziyyətdə! Bax belə olanda haqsızlıq qalxır göyün yeddinci qatına. Sonra da deyirik ki, Allah, biz nə eləmişik ki, başımıza belə oyunlar gətirirsən? Başımıza belə oyun gətirənlər indi çox vaxt vəzifədə əyəlşir, vətənpərvər, savadlı, təmiz və namuslu adamları incidir, get-gələ salır və işlə təmin eləmirlər. Düşünürlər ki, elə ucdantutma hamıdan nəsə qoparmaq lazımdır.***

***Ancaq fikirləşmirlər ki, haqqa girməkdən böyük günah yoxdu. Bu günahı Allah heç kimə bağışlamır. Cənablar, zəhmət çəkin, haqqı tapdanan o müəlliməni işə götürün, yoxsa cəmiyyətdə Sizə o qədər də hörmətlə yanaşılmayacaq və eyni zamanda nifrət hissi oyanacaq. Bax, belə haqqı tapdanan müəllimələri görəndə adamın lap ağlamağı gəlir, təhsilimiz indi elə gündədir ki, onu bir qoca arvad lazımdır ki, dəsmal götürüb, ağı deyərək ağlasın...***

## Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu Polşa ilə əməkdaşlığın yeni istiqamətlərini müzakirə edib

**18 sentyabr 2023-cü il tarixində Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun Prezidenti Günay Əfəndiyeva Azərbaycanın Polşadakı səfirliyinin təşkilatçılığı ilə ölkəyə səfər edən Polşa Müsəlmanları İttifaqının sədri, müfti Tomaş Mişkeviç ilə görüşüb.**

Həmçinin Azərbaycan Respublikasının Polşa Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Nərgiz Qurbanova iştirak edib.

Günay Əfəndiyeva Fond tərəfindən həyata keçirilən yeni layihələrdən bəhs edərək, müxtəlif ölkələrdə yaşayan türk köklü xalqların mədəni irsinin qorunmasının və təbliğ edilməsinin təşkilatın daim diqqət mərkəzində saxlanıldığını bildirib.

Fondun prezidenti tatarların sıx məskunlaşdığı bütün ölkələr, xüsusilə Polş, Litva, Rumıniya ilə davam edən uğurlu əməkdaşlıq barədə danışaraq, onun yeni istiqamətlər ilə daha da zənginləşdirilməsinin vacibliyinə toxunub və bir sıra yeni təkliflər səsləndirib.

Polşanın Baş Müftisi Tomas Mişkeviç Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu ilə yaranmış dost münasibətlərin ölkəsində yaşayan tatar icmasının adət-ənənələrinin, folklorunun qorunmasına müsbət töhfə verdiyini vurğulayaraq, ümumilikdə təşkilatın müxtəlif sivilizasiyalar arasında gedən inteqrasiya proseslərindəki rolunun danılmaz olduğunu qeyd edib.

Bununla yanaşı, görüşdə Fond və Polşa arasında tərəfdaşlıq çərçivəsinin genişləndirilməsi və digər qarşılıqlı maraq doğuran məsələlər ətrafında söhbət aparılıb.

# SONBAHAR SEVDALI "QIZIL GÜLLƏR" DİYARI





**Uzaqdan və ya bir az yüksəkdən baxanda adam bilmir ki, bu şəhər ucubucağı görünməyən böyük düzəngahdan keçərək qarşı dağlara söykənib, yoxsa elə qarşı dağlardan üzü aşağı yol alıb? Hər nədirsə yüzillərdir ki, Zaqatala belə görünür. Dağlar qoynunda daha da böyüyür, ucalır, sanki özünün ilkin sərhədlərinə sığmır da... Son illər bu gözəl şəhərin, axarlı-baxarlı böyük rayonun inkişafını, daha da ucaldığını, sanki onu qolları arasına alıb pis nəzərlərdən qoruyan o gözəl dağları ilə zirvə yarışına can atan Zaqatalanın bu sevdasını görüb sevinmək bir yana, onun indi bu təmtəraqlı dağların qoynuna sığmayıb da daha geniş düzlərə yol açmasına, həm də necə gözəl, necə müasir bir görkəmdə göz oxşamasına heyran olmaya bilmirsən. Şəhər indi Balakən yolundan da, "Şimşək"dən də aşağılara doğru böyümək, irəliləmək əhvalındadır. Qədimliklə müasirlik gerçəkdən "Qızıl güllər" diyarının özəl ruhu, səciyyəsidir. Rayonun belə bir özünəməxsusluğu, belə bir əhval-ruhiyyəsi onu canlı varlıq kimi hər kəsə sevdirir və doğmalaşdırır.**

Qafqaz gözəlinin son illərdəki bu yüksəlişinin, daha da şöhrətlənməsinin ən birinci səbəbi qayğı və diqqət, eyni zamanda bütün bunların qiymətləndirilməsidir. Dövlətimiz, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu qədim yurdun mədəni-tarixi ənənələr üzərində daha da inkişaf etdirilməsi üçün müstəsna qayğı göstərib və göstərməkdədir.

Təkcə bunlardırmı? Xeyr, digər başqa ciddi münasibətlər də var. Bu haqda zəngin idarəetmə təcrübəsinə malik, eyni zamanda nəinki çalışdığı rayonda, bütün bölgədə böyük hörmət və nüfuz sahibi olan Zaqatala Rayon İcra Hakimiyyətinin başçısı Mübariz Əhmədzadə danışır:



-Zaqatalalılar o vaxt bölgədə baş verən ağır fəsadlı zəlzələni və bu təbii fəlakətin nəticələrinin tez bir zamanda aradan qaldırılması üçün cənab Prezidentimizin müstəsna qayğı və diqqətini unutmayıb və heç zaman da unutmayacaqlar. Rayondakı dağıntıların, ağır zədələrin bərpası ilə yanaşı, bir sıra kəndlər az qala sökülüb yenidən tikildilər. Bu yerlər indi yaraşıqlı Avropa qəsəbələrindən seçilmir. Bu sevinci, bu qüruru bizə cənab Prezident bəxş etdi... Bugünlərdə siz də bilirsiniz ki, leysan və daşqın yenidən Zaqatalaya xeyli ziyan vurdu. Bir sıra infrastrukturlar və əhali ziyan çəkdi. Ölkə rəhbərinin göstərişi ilə Fövqəladə Hallar Nazirliyi vaxtında və böyük əzmkarlıqla təbii fəlakətin nəticələrinin aradan qaldırılmasını təmin etdi. İşlər davam edir və yekunlaşmaq üzrədir...

...Bir məsələni də xüsusi vurğulamaq lazımdır. Zaqatala camaatı onsuz da öz Prezidentlərini çox sevir, həm də rəhbərin qayğı və diqqətinə cavab olaraq bütün sahələrdə uğurlar qazanmağa, vətənə daha böyük töhfələr verməyə çalışırlar. İkinci Qarabağ müharibəsi zamanı hərbi xidmətdə olanlarla yanaşı yüzlərlə zaqatalalı gənc öz arzuları ilə könüllü olaraq işğalçı düşmənlə mübarizəyə atılmış, vətənə, xalqa və Ali Baş Komandana sədaqət nümunəsi göstərmişlər. Rayonumuzda şəhidlərin xatirəsi əziz tutulur, qazilər hər yerdə böyük hörmətlə qarşılanırlar. Dövlət qayğısının digər nümunələri də rayon əhalisini ruhlandırır və onlar həmişə, hər yerdə cənab Prezidentə minnətdarlıq edir, onu sevir, adını fəxlə çəkirlər...

Böyük və gözəl bir rayonda bütün istiqamətlər üzrə nümunəvi rahatlıq, gələcəyə daha böyük inam hökm sürür. Şəhər gözəlliyi, urbanik inkişafla yanaşı, rayonun demək olar bütün kəndlərində rahat yollar, digər infrastrukturların müasirliyi, məşğulluğun təminatı bu yüksəlişin harmoniyasıdır. Bütün bunlara insanlar da, təbiət də sevinir. Axı Zaqatala həm də ölkənin turizm bazalarından biridir.



Bu səbəbdən də mövcud infrastrukturların inkişafı və müasirləşdirilməsi, yeni qurğuların tikilib istifadəyə verilməsi zəruri perspektivlərdir. Bu minvalla Zaqatalanın turizm sahəsində zəngin təcrübəyə malik olmasını çəkinmədən söyləmək mümkündür. Gözəl təbiət-dağlar, meşələr, çaylar, gül-çiçəkli düzənlər, yaraşıqlı şəhər, otellər, park və bağlar, idman qurğuları, təbiət abidələri, muzeylər, ləziz yeməklər və bir də səmimi, mehriban Zaqatala camaatı!

"...Bütövlükdə Zaqatala rayonunda işlər yaxşı gedir, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramları icra edilir. Həm şəhərdə, həm də kəndlərdə böyük quruculuq işləri aparılır. Bu proqram bizə imkan verəcək ki, yaxın zamanlarda bütün əsas sosial və iqtisadi məsələlər öz həllini tapsın.

Tikinti işləri davam edir. Sakinlər bu işlərdə fəal iştirak edirlər". Zaqatala rayonu haqqında bu uzaqgörən və dəyərli sözləri bir neçə il bundan əvvəl rayona səfəri zamanı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdi. Ölkə rəhbərinin bölgə haqqında söylədikləri məhz bugünki reallıqları ən yüksək səviyyədə əks etdirir.

Zaqatalada sakinlərin və eləcə də buraya gələn daxili və xarici turistlərin rahatlığını hər tərəfdən yüksək səviyyədə təmin etmək ənənəsi formalaşıbdır. Rayon rəhbərliyinin camaatla sıx ünsiyyəti bir çox məsələlərin həllini arzulanan səviyyədə mümkünləşdirir.

**Modernləşmə yeni xüsusiyyətlər üzərində qurulduğundan inkişafın gələcək perspektivlərinə də işıq salır, insanlarda daha böyük ruh yüksəkliyi yaradır.**

**Məzahir ƏHMƏDOĞLU**

# Pulu evdə saxlamaq lazımdır, yoxsa bankda?

**İnsanların heç də hamısı əldə etdikləri gəliri tam xərcləmirlər.Əksər insanlar qazanclarının bir hissəsinə qənaət etməyə üstünlük verirlər. Nəzəri cəhətdən pula qənaət həm də sərvət yaratmaq, etibarlı maliyyə təminatına sahib olmaq, gələcək xərclərini təmin etmək və həyatın qeyri-müəyyənliklərinə hazırlıqlı olmaq deməkdir. Pula qənaətin bu motivlərindən əlavə, mühüm məqam kimi, onu harada saxlamaq məsələsi də olduqca vacibdir.**



Son 10 ildə Azərbaycanda fiziki şəxslərin əmanətlərinin həcmi 2 dəfədən çox artmaqla, 2022-ci ildə 11.6 milyard manata bərabər olmuşdur. Onların 90%-ni isə rezidentlər tərəfindən banklara qoyulan əmanətlər təşkil etmişdir. Milli valyuta ilə ifadədə 2016-cı ildən sonra manatla əmanətlər 4 dəfədən çox artdığı halda, xarici valyutada qoyulan əmanətlərin həcmi 1 milyard manat azalmışdır. Tendensiyanın əsas səbəbi milli valyutanın məzənnəsinin zamanla sabitlənməsi və bank sektorunda baş verən fluktuasiyaların qarşısının vaxtında alınması olmuşdur.

Sosial Tədqiqatlar Mərkəzi növbəti blitz sorğu mövzusu kimi vətəndaşların pullarını harada daha etibarlı (təhlükəsiz) saxlaya biləcəklərinə dair rəyi öyrənmişdir. Qeyd etmək istərdik ki, sorğu çərçivəsində söhbət vətəndaşların gündəlik xərc təyinatlı vəsaitlərinin daha təhlükəsiz hesab etdikləri saxlama formasından gedir. Yəni spesifik olaraq yığımların daha etibarlı saxlanılması formaları ilə bağlı mövqe öyrənilməyib.

Keçirilən sorğunun nəticələrində insanların öz pulunu saxlamaq üçün daha çox banklara üstünlük verdiyi aşkar olunub. Belə ki, sorğuda iştirak edənlərin 39.9%-i pulunu evdə saxladığı halda, 56.7%-i banklara etimad göstərir. Sorğu çərçivəsində respondentlərin 1.8%-i digər cavab variantlarını qeyd edib, 1.5%-i isə bu suala cavab verməkdə çətinlik çəkdiklərini bildirib.

"Sizcə, pul vəsaitini harada qorumaq daha təhlükəsizdir?" sualına kişilərin yarısı (50.3%) "evdə" cavabı verdiyi halda, qadınların seçimi daha çox banklardan yana olub (62.9%).

Sorğu nəticələrini yaş təsnifatı üzrə təhlil etdikdə məlum olur ki, digərləri ilə müqayisədə gənclər daha çox bankları təhlükəsiz hesab ediblər. Belə ki, 18-24 yaşda olanların 65.2%-i öz seçimlərində banklara üstünlük verdiklərini bildirib. Bu məqam həmçinin özünü tələbələr üzrə də daha aydın şəkildə büruzə verib - 88.9%.

Həmçinin təhlillər orta aylıq gəliri 901-1200 manat aralığında olanların (70%) digərləri ilə müqayisədə pul vəsaitini evdə saxlamağa üstünlük verdiyini göstərib.

**Qeyd edək ki, sorğular 18 yaşından yuxarı 384 nəfər arasında telefonla müsahibə formasında keçirilib, könüllü iştirak və anonimlik prinsipləri qorunub.Sorğu 12 iqtisadi rayonu əhatə edib və gender balansı təmin edilib.Nəticələrin əminlik intervalı 95%, xəta payı 5%-ə bərabərdir.**

**Eminquey**

## Ermənilərin YUNESKO-nun iclasındakı həyasızlığı: "Qarabağdakı qədim abidələrimiz"




**Sentyabrın 10-dan 25-dək Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyadda YUNESKO-nun Ümumdünya İrs Komitəsinin 45-ci genişləndirilmiş sessiyası keçirilir.**

Sesiyada Ermənistan Azərbaycandakı Azıx və Tağlar mağaralarının Dünya İrsi Siyahısına daxil edilməsinə qarşı çıxıb. Beləki, Ermənistan nümayəndəsi Harutyun Vanyan yenə erməniliyindən əl çəkməyərək şər-böhtan atmağa başlayıb. O, iddia edib ki, Hadrut rayonunun Moxrenes kəndindəki "qədim ermənilərə məxsus" Müqəddəs Sargis kilsəsi bu yaxınlarda dağıdılıb.

Müqəddəs Sargis kilsəsinin peykdən çəkilmiş fotoşəkillərinin Azərbaycanın təkcə erməni mədəni irsinə deyil, həm də Beynəlxalq Ədalət Məhkəməsinin qərarına məhəl qoymamasının bariz nümunəsi olduğunu vurğulayıb.

Yeri gəlmişkən ermənilərin Moxrenes adı verdiyi kənd əslində Xocavənd rayonunun Tuğ kənd inzibati ərazi dairəsindəki Süsənlik kəndidir. Adını Müqəddəs Sarkis kilsəsi qoyduqları isə 13-cü əsrdə inşa olunmuş Qafqaz Albaniyasına aid məbəddir.

**Əntiqə Rəşid**

## Vaxtilə Köçkünlər torpaqlarına dönməyəcək" deyənlərə: Heç utanırsınız?

**Elan olundu ki, dövlət Qarabaglıları heç bir çətinliklə üzləşmədən yurduna göndərib.**

İndiyədək Ağalı kəndində daimi məskunlaşdırılan ailələrin sayı 133-ə (649 nəfərə) çatıb. 20 ailə (90 nəfər) Tərtər rayonunun Talış kəndinə, 247 ailə, yəni, 956 nəfəri Laçın şəhərinə köçürülüb. Füzuli şəhərində 144 ailə, yəni 514 nəfərin daimi məskunlaşması



təmin edilib.

Hələ indiyə qədər " mən Qarabağa qayıtmaq istəmirəm" deyən köçkün olmayıb...Hətta mən mərc gələrəm ki, portal söhbəti olmasaydı, indi heç dövlətlə məsləhətləşən də olmayacaqdı. Hamı öz bildiyi şəkildə yurduna dönərdi...

Yadımdan çıxmaz, bir azərbaycanlı profilli sosial şəbəkə istifadəçisi yana-yana yazmışdı:" Oturduğunuz yerdə , hökümət hər ay sizə "duru yerindən" 60 manat pul verir, burnunuzdan gəlsin, niyə rədd olub evinizə qayıtmırsınız?".

"Köçkünlər torpaqlarına dönməyəcək" deyib burda özlərinə əl qatan, köçkünlərə nifrət püskürən o qədər gerizəkali, qarışıq qanlı azərbaycanlılarla, sözün həqiqi mənasında döyüşmüşəm ki... Baxın, az qala düşmən "çıxartdığınız" köçkünlər görün necə həvəslə, sevinclə evlərinə dönürlər...! İndi necə, əziz soydaşlarım vaxtı ilə yazdığınız fikirlərə görə, heç az da olsa, utanıb, qızarırsınız?

**Sizi unutmadım haa, hələ də yadımdasınız....**

**Əntiqə Rəşid**

## "Ləhcə ilə danışan jurnalistlərlə bağlı nəzarət komissiyası yaradılmalıdır"



**"Məncə efirdə ləhcə ilə danışan jurnalistlərlə bağlı nəzarət komissiyası yaradılmalıdır. Mən ölkəmi və onun hər bir regionunu şübhəsiz sevirəm. Hər bir zonanın öz şirinliyi onun özünəməxsusluğudur amma efirə çıxıb ləhcə ilə danışmaq heç bir çərçivəyə uymur".**

Adalet.az xəbər verir ki, "Avtomız" verilişinin aparıcısı Araz Babayev öz sosial şəbəkə hesabında TV-də işləyən jurnalistlərin nitqi ilğ bağlı təklif irəli sürüb.

"Hər birimizin ata törəmə ləhcəmiz var. Elə bir zona yoxdur ki, onun kökündə danışıq dili tam ədəbi olsun amma vahid bir leksikon var, o da dilin ədəbiliyidir. Düzdür, efirlərin tək bir problemi bu deyil. Lakin ilk olaraq bundan başlamağın zamanı məncə gəlib. TV-dən, ümumyayımda dilin induvidual təbliği yolverilməzdir xanımlar və cənablar".

**Emin**

## Məşhur futbolçunun "Şuşa" travması və bugünkü sayıqlaması





**Yəqin bir çoxunuzun xatirindədir: 44 günlük müharibədən sonra Azərbaycan ordusunun hərbçiləri Şuşada Ermənistan millisinin futbolçusu o vaxt İtaliyanın "Roma" klubunun üzvü olan Henrix Mxitaryana məxsus olan villa aşkarladılar. Villanın Şuşanın ən səfalı guşəsində yerləşdiyi paylaşılan videolarda gördük. Sadəcə "möhtəşəm" deməkdən özümüzü saxlaya bilmədik.**

Hazırda İtaliyanın "İnter" klubunda çıxış edən Mxitaryan Şuşa işğalda olan müddətdə bu villadan tez-tez görüntülər paylaşır, onsuzda tarıma çəkilmiş əsəblərimizlə oynayırdı. O arada A Seriyası klubu 44 gün davam edən Qarabağ müharibəsi zamanı Ermənistana yardım göndərmişdi.İndi isə Qarabağda separatçı, terrorçu dəstələrə qarşı Azərbaycanın apardığı anti-terror əməliyyatı Mxitaryanı elə dəli edib, əsəblərini elə gərib ki, hazırda nəfəs almadan dünya ictimaiyyətinə, futbol klublarına, azarkeşlərə Qarabağdakı "təhlükə" ilə bağlı ağlagəlməz yalanlar uydurараq müraciətlər ünvanlayır. Öz xəstə təxəyyüllü xalqı kimi bir ucdan "soyqırım", "blokada", "aclıq" kimi yalanlarla dünyanın gözünü bəzəməklə məşğuldur.

İşğal altında olan Azərbaycan torpaqlarına səfərləri və separatçı Dağlıq Qarabağ rejiminə yardımları ilə tanınan futbolçu 44 günlük müharibədən sonra ağır travmalar yaşadı.

Dünya da anlayır ki, Henrix Mxitaryan bir erməni olaraq zədəlidir və nə danışdığının fərqində deyil. Adamın Şuşa kimi yerdə villası qalıb.. İndi o villanın üzərində Azərbaycan bayrağı dalğalanır... Travmadır də...

**Əntiqə Rəşid**

## İŞIQLARIMIZ TEZ-TEZ SÖNÜR



**Bakının Suraxanı rayonu Yeni Günəşli yaşayış sahəsində "D" massivindəki 13 nömrəli binada işıqlar tez-tez sönür.**

Elə bir həftə olmaz ki, bu binada işıqlar söndürülməsin. Ən qəribəsi odur ki, başqa binalarda işıqlar yananda belə bizim qonşuluqdakı 12 və bizim 13-cü binada işiqlar yanmır. İşıqlar da tez-tez söndürüləndə sakinlərin bir neçəsi liftdə qalır. Hələ payız və qış mövsümü gəlməyib belə çətinliklər yaşayırıq.

Onda görün payızda və qışda ki durumumuz necə mürəkkəb olacaq. Bizim binanın sakinləri ona görə də çox narahatdırlar. Deyirlər ki, görəsən, bizim işıqlar nə vaxta qədər belə tez- tez sönəcək?! Ona görə də aidiyyatı qurumlar 13 nömrəli binada mövcud nöqsanları vaxtında aradan qaldırmalı və sakinləri fasiləsiz elektrik enerjisi ilə təmin etməlidir.

## YAĞIŞLAR YAĞDI...

**Deyirlər ki, builki kimi ölkəmizə yağış yağmayıb. Hətta Zaqatala, Balakən, Qəbələ, Şəki bölgəsinə 3 ayda yağmalı olan yağış bir gündə yağıb. Bu isə müxtəlif fəsadlara, eyni zamanda selin gəlməsinə, təsərrüfatların və evlərin su içində qalmasına səbəb olub. Bir neçə gün bundan əvvəl yağan güclü leysan yağışdan sonra Astara rayonunda çox ağır hadisələr baş verib. Belə ki, evləri və təsərrüfatları sel suları basıb, bir neçə körpünü dağıdıb, mal-heyvan, toyuq-cücə sel sularının içində qalıb.**

Gecə saatlarında yağan yağışların nəticəsi sözün həqiqi mənasında insanlar üçün ağır olub. Hətta iki mərtəbəli evlərin birinci mərtəbəsi su altında qalıb. Bir sözlə, əlaqədar qurumlar leysan yağış yağmamışdan və sel gəlməmişdən öncə qabaqlayıcı tədbirlər görməlidirlər. Təəssüf



ki, onlar bu qabaqlayıcı tədbirləri vaxtında görmür və nəticədə isə belə çətin anlar yaşanır...

## NASAZ AVTOMOBİLLƏR

**Nazas avtomobillər həm qəza törədir, həm də atmosferə normadan artıq zərərli qazlar atır. Ona görə də bu cür nəqliyyat vasitələrinin sürücüləri həmin avtomobilləri vaxtında texniki baxışdan keçirməli və mövcud nöqsanları aradan qaldırmalıdırlar. Yay mövsümü ilə əlaqədar olaraq, kimliyindən asılı olmayaraq hamı mənzil başına avtomobillə getmək istəyir. Bu da bir çox halda qəzaların yaranmasına gətirib çıxarır.**



Baş Dövlət Yol Polisi İdarəsinin ictimaiyyətlə əlaqələr şöbəsinin baş inspektoru, polis kapitanı Toğrul Nəsirli deyir ki, texniki cəhətdən nasaz avtomobillərlə respublikanın avtomobil yollarında hərəkət etmək çox təhlükəlidir. Belə ki, texniki cəhətdən nasaz olan bu nəqliyyat vasitələri qəza şəraiti yaradır, eləcə də atmosferə normadan artıq zəhərli qazlar tullayır. Sürücülərdən xahiş edirik ki, bu cür nəqliyyat vasitəsindən ya az istifadə etsinlər, ya da heç istifadə etməsinlər. Çünki hər bir sürücü və sərnişin yarı yolda qalmaq istəmir və mənzil başına sağ-salamat çatmaq istəyir!

## BİZ YOLU KEÇƏ BİLMİRİK

**Piyadaların yol hərəkəti qaydalarına əməl etməsi əsas təhlükəsizlik tədbirlərindəndir.**

Çünki piyadalar təyin olunmuş yerdən keçməyəndə, yeraltı və yerüstu keçidlərdən keçməyəndə qəzalar qaçılmaz olur. Bütün hallarda piyadalar hərəkət iştirakçısı hesab olunur və onlar yol ilə hərəkəti qaydalarına birmənalı əməl etməlidirlər. Amma təəssüf ki, əksər piyadalar mövcud qaydalar tez - tez pozur və həyatlarını təhlükəyə atırlar. Ona görə də Bakıda piyadavurma hallar 50 faizdən yüksəkdir. Deməli, piyadalar yolu hardan gəldi keçməməli, işıqforun yaşıl işığında keçməlidir. Bununla yanaşı, piyada zolaqlarından istifadə edərkən avtomobilləri gözləməli, təhlükəsizliyə tam əmin olandan sonra yolu keçməyə çalışmalıdırlar!



**Emil FAİQOĞLU**

# Ordumuzun əsirlikdən 2-ci dəfə qurtardığı Çərəkdar kəndi: Tarixi, taleyi, aqibəti

**Ordumuz Ağdərə rayonunun Çərəkdar kəndinə daxil olduğunu bildirən görüntülər sosial şəbəkələrdə yayılıb.**

Təxminən 10 il əvvəl kənd haqqında dəqiq faktlar adıgedən kəndin o vaxt ki ərazi üzrə icra nümayəndəsindən almışdım.

Əvvəl bildirək ki, yaşayış məntəqəsini kolanı tayfasına mənsub ailələr Çərəktar adlı yerdə saldıqları üçün belə adlandırılmışdır. Çərəktar "icarəçi" deməkdir. Görunur, kəndin ərazisi əvvəllər əkin sahəsi kimi icarəyə verilirmiş. Nümayəndənin dediyinə görə, 1992-ci ildə Ağdərə rayonu ləğv edilərkən bu kənd Kəlbəcər rayon inzibati ərazisinə aid edilib.




İşğaldan əvvəl 125 ev və 553 nəfərdən ibarət olan bu kəndin əhalisi hazırda 227 evdən və 757 nəfərdən ibarətdir. Əhali 19 rayonun 38 yaşayış məntəqəsində məskunlaşıb. Xüsusən Gəncə şəhərində (50 ailə - 151 nəfər), Göygöl rayonunda (25 ailə - 75 nəfər), Şəmkir rayonunda (19 ailə - 61 nəfər), Tərtər rayonunda (39 ailə - 147 nəfər), Samux rayonunda (24 ailə - 71 nəfər), Yevlax şəhərində (22 ailə - 81 nəfər), Bərdə rayonunda (20 ailə -74 nəfər) yerləşdirilib.

Qarabağ müharibəsi zamanı bu kənddən 10 nəfər şəhid, 2 nəfər isə girov olub. Şəhidlər Yunis Muxtar oğlu Məmmədov, Şakir Yunis oğlu Ağamalıyev, Hüsü Əli oğlu Alıyev, Rasim Behbud oğlu Məmmədov, Əkbər Salman oğlu Alıyev, Nadir Qara oğlu Qasımov, Vilayət Məmməd oğlu Rüstəmov, Qardaşxan Muradxan oğlu Mehdiyev (2 nəfər mülki şəhid - Yusif Əsgər oğlu Məmişov, Namiq Vəzirxan oğlu Quluşov). Nərgiz Əliabbas qızı Qasımova və Münəvvər Rəhim qızı Məmmədova ermənilər tərəfindən girov götürülüb.

Münaqişə böyüdükcə Çərəktarda vəziyyət ağırlaşırdı. Əhalini erməni cəlladlarından qorumaq üçün Azərbaycan Respublikası Müdafiə Nazirliyinin qərarı ilə ərazi üzrə könüllülərdən ibarət batalyon yaradılıb və 126 nəfər kənd sakini bu batalyonda döyüşüb.

Ağdərəyə məxsus sonuncu kənd idi və onu təbii gözəllikləri ilə dünyanın ən gözəl guşələrindən biri hesab etmək olar. Çərəktarın qədimliyini sübut edən alban memarlıq nümunəsi olan monastr qədim və orta əsr dövrlərdə mövcud olub.

Abidə Qarabağın Yuxarı Xaçın ərazisində, Tərtər çayının sol sahilində yüksək dağlıq ərazidə yerləşir. Monastırın baş kilsəsi 1260-cı ildə inşa edilib. Kompleks tamamilə dağıdılıb. Kilsə düzbucaqlı plan quruluşlu olub ( 7 x 3 metr ) ikiqat tavanlı bazilikadan ibarətdir. Kilsə şərq tərəfdə düzbucaqlı ehrama malikdir. Yeri gəlmişkən,kənd KƏlbəcərdən 37 km, Xankəndidən 87 km məsafədə yerləşir Təbii gözəlliklərinə görə ətraf kəndlərdən fərqlənir. Məhəl təpəsi, Göydağ, Talalar, Kolavat, Qaraqaya, Alçalı boynu, Gəvrişli dərə, Arpaçəpəri, Çınqıllıtəpə, Kilsəli, Dağın qılıncı, Atapəyəsi, Arıq Alının pəyə yeri, Uzuntala, Almalı, Həsən bəyin qozlusu, Qurumdərə, Keş kəndi, Güvəli, Xırmanlar, Edilxan yurdu, Hovuzun dərəsi, Ələsvurulan, Ağavurulan, Əvəzin qəbri, Maralyalayan daş, Təkəyatan qaya, Kollucəvə, Fıstıqlı gərdən, Armudluq, Xanpərinin yeri, Astanın yeri, Bağyeri, Heyvalı, Küptalası, Ayıvurulan, Taplar, Göyqum, Qozluq yeri

**Qeyd edək ki, 1993-cü ildə Ermənistan Respublikası Silahlı Qüvvələri tərəfindən işğal olunmuşdu. Çərəktar 2020-ci ilin noyabrın 25-də azad edilsə də, Rusiya sülhməramlılarının nəzarəti altına keçib.**

**Əntiqə Rəşid**

---

**Məzahir ƏHMƏDZADƏ**

# QAXDA YENİ ŞƏHƏR ADI: İLİSU YOLU





**Bu bir həqiqətdir ki, müasir Qax rayonunun indiki yüksəlişi və möhtəşəmliyi Azərbaycanın müstəqilliyinin və ölkə rəhbərliyinin uğurlu daxili və xarici siyasətinin töhfəsidir. Ötən əsrlərdə bu bölgə İlisu sultanlığı kimi tanınsa da, sonralar inzibati bir ərazi olaraq Qax rayonu adlandırıldı. Əslində vətənimizin bu gözəl guşəsinin İlisudan da qədim kənd və qəsəbələri olub. Bir sıra yaşayış yerlərinin tarixi 2000 ili də ötüb keçir. Tarixçi alimlər İlisu və Sarıbaş aralığında yerləşən Tovlatala kəndindəki qədim qəbiristanlığın yaşını və bir çox sirlərini heç sonadək açıb başa da çıxa bilmədilər deyəsən. Eləcə Qaşqaçay, Qıpçaq, Almalı və başqa bir neçə yaşayış ərazilərinin də. Tarixə ekskurs etmək fikrim yoxdur. Məqsədim tamam başqadır. Bir onu demək istəyirəm ki, vaxtında araşdırılmayan qədim tarix, sonralar bəzi şübhə və tərəddüdlər yaradır. Hansı ki, Azərbaycan ərazisində Türkiyə türkcəsinə ən yaxın danışıq dili, sözləri, tərzi və ləhcə oxşarlığı daha çox Qax rayonuna aiddir...**

İlisunun mövcudluğu və unikallığı haqqında çox yazılıb və çox danışılıb. Bu günün özündə də bu kənd ətrafa - dərələrə, dağlara Kürmük sahillərinə doğru genişlənməkdə, keçmiş şöhrətini daha da artırmaqdadır. Təbii prosesdir. Çünki bu qədim yaşayış məskəni təkcə Qax rayonunun deyil, bütövlükdə şimal-qərb bölgəsinin brendi sayılır. Belə də olmalı idi.

Ancaq sevinc doğuran başqa bir məqam da var. İlisu öz yerində. Bu kəndə doğru aparan yolun 20-25 il bundan əvvəllərdəki görkəmi xatırlanırmı? Kürmük çayı və sağ sahildəki dağlar boyunca adda-budda primitiv evlər, boşluqlar və kiçik yeməkxanakimilər...

Qax şəhərindən İlisuya doğru 8-10 km məsafədə gözəgəlimli bir-iki bina mövcud idi. Bunlardan biri hansısa nazirliyin balansına daxil olan istirahət evi, digəri rayon Suvarma sitemləri idarəsinin binası, vəssalam.

İndi necədir? İndi həmin o keçmişdəki İlisu yolunu tanımaq olmur. Yayda nədir, digər fəsillərdə də bəzən bu yolda tıxaca rast gəlirsən. Əvvəllər boş və cansıxıcı, hətta Kürmük qorxulu bu yerlər indi az qala Avropanın ən məşhur istirahət yerləri ilə yarışa girib sanki. İlisu yolunun sağında və solunda, demək olar ki, boş yer, ərazi qalmayıb. Dəli Kürmük də sanki bu gözəlliyə heyran olub sakitləşibdir. Bu yolun üzərində indi 3, 4, 5 mərtəbəli otellər, istirahət mərkəzləri, 10 mərtəbəli yaşayış evləri, səliqəli kafe və restoranlar, kiçik park və çiçəkliklər,ayrı-ayrı vətəndaşların müasir üslübda tikdirdikləri yaraşıqlı fərdi evlər insanda ən gözəl duyğular oyadır. Yol boyu Kürmük çayının və magistrala açılan böyük-kiçik dərələrin dağlardan "daşıyıb gətirdiyi" təmiz hava, oksigen bolluğu, heç İlisunun özündə də bəzən bu dərəcədə hiss olunmur.



Qaxın abad, yaraşıqlı kəndləri, rayon mərkəzinin təbiətlə qol-boyun olan o füsunkar gözəlliyi öz yerində, mən İlisu yolu deyilən ərazini ayrıca olaraq kiçik bir şəhər də adlandırardım.



"El Rost" otel kompleksinin, əvvəllər "Green Park" adlanan istirahət mərkəzinin, digər obyektlərin cazibəsi bu yerlərin bütün fəsllərini bir-birinə bağlayır. Yeni iş yerlərinin açılması, məşğulluq məsələlərinin özünəməxsus həlli baxımından rayon rəhbərliyi ilə müxtəlif iş adamlarına şərait yaradır, eyni zamanda rayonun əlavə gəlirlərinin artması və daha da şöhrətlənməsi üçün mümkün tədbirlərin həyata keçməsinə köməklik göstərir. Musa Şəkiliyev ilə hələ başçı olmamışdan əvvəllər, ilk gənclik illərindən tanışıq. Bu vətənpərvər və ziyalı dövlət məmuru rayonda elə bir yenilik olmayıb ki, məni aparıb tanış etməsin. Əsasən də elə mənim öz istəyimlə. Bilir ki, yüksəlişə, uğurlara, modernləşməyə, ölkəmin daimi inkişaf yolunda olmasına sevinirəm. O da həm mənim, həm də başqalarının sevinməsi üçün neçə illərdir ki, gecə-gündüz camaatı ilə əl-ələ verib çalışır. Həm də təkcə Qaxın adını ucaltmaq üçün deyil, bütövlükdə vətənə ləyaqətlə xidmət göstərmək eşqi ilə.

**Bəli, bu rahatca gedib-gəldiyiniz yol, hər tərəfi urbanik və təbiət gözəlliyi ilə insanı heyran edən yol - İlisu Yoludur! Qaxın İlisu, Uludağ, İçəribazar iftixarının yeni bir səmti, dünyaya açılan İşıqlı Yolu!**

---

# "Rus-erməni xidmətçisi: "Qırmızı şeytan" yaxud terrorçu Qatır Məmməd"

*Bir dəfə bir məqalə oxudum, filologiya üzrə fəlsəfə doktoru, professor Ədalət Tahirzadə yazırdı ki, Qatır Məmməd Şaumyanla birləşib erməniləri başına yığaraq Cumhuriyyətə qarşı üsyan etdi. Həmin gün anladım ki, saxtakar sovet hökuməti növbəri bir düşmənimizi 70 il bizə "qəhrəman" kimi sırıyaraq bizi əsl qəhrəmanları görməkdən uzaqlaşdırıb.*

*Sovet təbliğatının bizə sırıdığı "qəhrəmanlar"dan biri də Qatır Məmməd idi. Bu gün onun ölüm günü olduğu üçün bu mövzunu siyasi elmlər üzrə fəlsəfə doktoru Zaur Əliyevlə müzakirə edirik.*

**-Zaur müəllim, öncə sovet hökuməti Qatır Məmmədi hansı səbəbdən 70 il "qəhrəman" "çıxartdı" Qatırın SSRİ üçün müstəsna rolu nə idi?**

- Məmmədov Məmməd Əli oğlu (Qatır Məmməd) 1887-ci ildə Gəncə qəzası Goranboy-Əhmədli kəndində anadan olub.1906-cı ilin fevralında sosial-demokrat tələbə təşkilatının təşəbbüsüylə Bakı texniki məktəbində məktəb müdriyyətinin özbaşınalıqlarına etiraz əlaməti olaraq ümumi tətil keçirildi. Məmmədin köməkliyi ilə Gəncə texniki məktəbi də Bakı tələbələrinin tətilinə dəstək verir. İki gündən sonra tətil yatırılır və Məmmədlə dostları Sibirə sürgün edilirlər. 19 yaşlı Məmməd bolşeviklərlə tanış olur. Ona həbsdə Stepan Şaumyanın yaxın adamları qaçmağa kömək edirlər. O ilk silahlı üsyanını 1906-cı ildə, cəmi 19 yaşı olarkən təşkil etdi. Yaratmış olduğu silahlı dəstəylə kəndlərə daxil olur, bəylərin, xanların var-dövlətini, torpağını müsadirə edirdi.

**- Deyilənə görə bu Qatır həbs olunanda onu həbsdən ermənilər böyük məbləğdə pul qoyaraq çıxardıb... O nə məsələ imiş elə?**

-1907-ci ilin yayı Məmmədin dəstəsi Goranboy-Əhmədlidə kəndlilərin torpağını ələ keçirmiş mülkədar Haqverdi ağa Adıgözəlbəyova qarşı intiqam reydi keçirir.

Üsyana qalxmış kəndlilər həm özlərinin zəbt olunmuş torpaqlarını, həm də Haqverdi ağanın əkin sahələrinin böyük bir hissəsni ələ keçirirlər. Xalq qəzəbindən vahiməyə düşmüş Haqverdi ağa və onun dostu milyonçu Hacı Həsən Quşbazoğlu qaçaraq Gəncə qubernatoruna sığınır, ondan üsyançılara qarşı silahlı qüvvə göndərməyi xahiş edirlər. Məmməd həbs olunaraq Gəncə qalasına salınır. 4 aydan sonra Gəncə erməniləri pul yığıb Gəncə kommunist təşkilatına verirlər və onların yardımı ilə üsyan rəhbəri çıxarıldığı məhkəmədə bəraət alır.

**- Professor Ədalət Tahirzadə də məqalələrində israrla qeyd edir ki, Qatır Məmməd Stepan Şaumyanla çox yaxın olub, qardaş qədər. Hardan qaynaqlanırdı bu "doğmalıq"?**

- 1914-cü ildə məhkəmə Qatır Məmmədin 12 illik Sibirə sürgün edilməsi barədə qərar çıxarır. O, 1917-ci il Rusiyada baş vermiş fevral inqilabına kimi Sibirdə sürgündə olur. Çar devrildikdən sonra bir çox siyasi məhbuslar kimi Məmməd də azadlığa buraxılır. Lakin yenə də ətrafına dəstə toplayıb Müsavat hökumətinə qarşı çıxış edir. Onun əsas maliyyə dəstəyi Stepan Şaumyan və onun yaxınlarından idi. Məşədi Əzizbəyov onu yaxın dostu kimi qəbul edirdi.

Bakıya bir neçə dəfə gələn Məmməd Stepanın evində qalırdı. Müsavat hökuməti qurulandan sonra Osmanlı dövlətinə Bakının azad edilməsi üçün müraciət edildiyini eşidən Stepan Şaumyan onu geri qayıdıb onların qarşısını almağı tapşırır və silahla təmin edir. "Qırmızı partizan" dəstəsi adını alan Məmmədin adamları Nuru Paşanın başçılığında Gəncədən çıxaraq Goranboy istiqamətinə doğru getməsini eşidib pusqu qurur. Gəncədən gələn Nuru Paşa və Tovuzdan gələn türk paşası Hulusi bəyin də qoşunun qarşısını alıb onların Bakıya gəlməsini bir neçə müddət gecikdirir.

**- Araşdırmalardan bilirik ki, Qatır tək əmr qulu olmayıb, həm də öz xalqının məhvi üçün peşəkar bir kəşfiyyatçı olub. Onun ən iyrənc ideyası Musavat ordusuna sızıb içəridə provakasiya etmək olub.**





-1918-ci ilin yazında Qatır Məmməd və Qaraqucaq kənd üsyançılarının rəhbəri Məşədi Səməd Bakıda Məşədi Əzizbəyovla görüşürlər. Belə qərara gəlinir ki, müsavat ordusu daxilində inqilabi iş aparmaq zəruridir.

Qatır Məmməd və Məşədi Səməd saxta sənədlər düzəltdirərək müsavat ordusuna yazılırlar. Amma Əhməd bəy Məmmədxanbəyov Qatır Məmmədi əsgərlər arasında görüb tanıyır və bunu hərbi hissə komandirinə xəbər verir. Əhməd bəy hərbi hissə komandirini əmin edir ki, o səhv etmir, çünki Məmməd yeniyetməlik vaxtı onun muzduru olduğundan onun simasını çox yaxşı tanıyır.

Qatır Məmməd və Məşədi Səməd həbs edilərək zindana salınırlar. Gəncədə səhra məhkəməsi qurulur. Məhkəmə qırmızı partizanların komandanı Qatır Məmməd və Qaraqucaqlı inqilabçı Məşədi Səmədi dar ağacından asılmaqla ölüm hökmünə məhkum edir. Edama bir gün qalmış Gəncə şəhər kommunist təşkilatının üzvləri həbsxana divarını dələrək onları qaçırmağa müvəffəq olurlar.

1919-cu ilin 11 sentyabrında Gəncə prokurorunun Azərbaycan daxili işlər nazirlinə teleqram göndərilir. Teleqramda yazılır: " Biz Qatır Məmmədi öldürmək üçün erməni daşnaklarına müraciət elədik. Onlara pul da təklif etdik. Lakin onlar Qatır bizim qardaşımızdır deyib imtina etdilər. Hal-hazırda Qatırın dəstəsində olan 150 nəfərdən 100 nəfəri erməni daşnaklarıdır"

**- Nəhayət, bu murdarın ölümü əməlləri kimi murdar və gözlənilməz olar...**

- Professor Ədalət Tahirzadənin qiymətli araşdırmasında da deyildiyi kimi, Qatır Məmməd Azərbaycan Cümhuriyyət ordusunun zabiti Teymur bəy Mirzə Hacı bəy oğlu tərəfindən 18 sentyabr 1919-cu ildə öldürülüb. Onun Cümhuriyyət zabiti tərəfindən öldürülməsini gizlətməyə çalışan bolşeviklər yerli bəylərə və ağalara qarşı başladıqları "qolçomaq" siyasətini həyata keçirmək üçün bu faktdan məharətlə istifadə edib. Goranlı Hacı Həsən Qatır Məmməd sürgünə göndərildikdən sonra onun gözəl arvadı Gülüstanla ailə qurmasını bəhanə edərək, guya bu "qısqanclıq zəmnində baş verib" adı ilə onun ölümü həmin Hacı Həsənin üzərinə yıxıblar və hacı Həsənlə birgə onlarla bəy və ağaların var dövlətlərin əllərindən alıblar. Özlərini isə gülləyiblər. Əslində isə Hacı Həsən nə Qatırın arvadın alıb, nə də Qatırın arvadının adı Gülüstan olub.

**- Bəs buna o "qatır" adını kim vermişdi?**

-Qatır Məmmədin ləqəbinin guya "katorqaya göndərilmiş Məmməd-Kator Mamed" kimi təbliğ edən bolşeviklər onun Cümhuriyyət və Çara qarşı düşmən mövqeyini bu cürə qələmə verirdilər.

Lakin "qatır" adını ona xalq vermişdi, çünki Məmmədin atla-eşşəyin törəməsi olan qatır adını onun amansız və əzazil olması ilə bağlayırdılar. Stepan Şaumyana Bakıda və rayonlarda mart qırığını zamanı silah göndərən Qatır Məmməd silahdaşları Aruşanov Martiros, Babalyan Santri, Haykaz, Koçarov Mixail, Koçarov Hamparsum, Qriqoryan Arşak, Veliyan Nazarı Gəncəbəsar zonasında mart-aprel aylarında baş verən azərbaycanlılara qarşı soyqırım törətməyə göndərmişdir. Sergey Kirov və Serqo Orconikidzenin maliyyə və silah dəstəkçisi olan Qatır Məmmədin əsas planlarından biri də daha çox pul və qızıl toplamaq olub.

Gəncənin köhnə kişiləri qeyd edilər ki, Qatır filmdə göstərilən və haqqında yazılan kimi olmayıb. O qədər qəddar və əzazil olub ki, kəndlərdən kim ona yardım etməyəndə ağır formada onu cəzalandırırdı. Güvəndiyi əsas adamlar ermənilər idi. Öləndə üstündə Şaumyanla birgə şəkli çıxmış idi. O ermənilərə elə etibar edirdi ki, onlara qızıl və pullarını verirdi ki, onlar saxlasın..

**- Belə görürük ki, Qatır Məmməd azərbaycanlıdan çox erməni imiş...**

- Səhv düşünmürsünüz, erməniyə xidmət, elə Azərbaycan xalqına düşmənçilik deməkdir. 31 mart soyqırımından sonra Gəncə-Goranboy tərəfdə yerli camaatın əsir götürdüyü erməniləri azad etmək üçün neçə dəfə silahlı hücum edir, ondan sonra kəndlilər üzərində "patron vergisi " qoyur. Vergini verməyən kəndlilərin əllərindən olanın qalanın alırdı.

Cümhuriyyətin naziri Fətəli xan Xoyskinin başçılıq etdiyi dəstəyə ağır zərbə endirən Qatır Məmməd bölgədə varlıların malikənələrini viran qoyub, dəmir yol hərəkətini pozub. Qatır Məmməd ölkənin paytaxtı ilə Qərbini birləşdirən telefon, teleqraf xətlərini dağıdıb sıradan çıxarıb, Bakı-Gəncə dəmiryolunu partladıb ki, Fətəli Xan Xoyskinin başçılıq etdiyi Azərbaycan ordusu Qarabağ, Zəngəzur, Göyçə və Gəncəbasar bölgələrində erməni soyqırımına məruz qalmış köməksiz Azərbaycan türklərini erməni-rus vəhşiliyindən qurtarmaq üçün həmin tərəfə hərəkət edə bilməsin.

**-Zaur müəllim, rusa-erməniyə xidmət göstərib, azərbaycanlılara qarşı düşmənçilik edən biri digər satqın və xain bolşeviklər kimi mükafatlandırımamış olmaz...**

- Əlbəttə, Qatır Məmmədə poema yazıldı, Gəncədə Qatır Məmmədə heykəl qoyuldu, film həsr olundu. Poemada " qırmızı terrorçu"nun əsl siması, xidmətinin mahiyyəti açıq-aydın göstərilib:

*Məmməd ilə Kolya çəkir planı,*
*Qoç Ələsgər tez haqlayır qalanı,*
*Volodyanın açılanda naqanı*
*Deşib keçir lap döşünü bəylərin.*
*İsfəndiyar Məmmədindi sağ əli,*
*Yüksək olur Arşakın hər əməli,*
*Lap kökündən uçur zülmün təməli,*
*Atır bu gün xalq daşını bəylərin.*
*Dəli Qara nərə çəkir nər kimi,*
*Qoç Hambarsum güllə atır ər kimi,*
*Noxtalayıb düşmənləri xər kimi*
*Cilovlayır on beşini bəylərin.*
*Yapon Tapdıq baxmır hərzə-hədyana,*
*Mərd Hüseyn aman vermir düşmana.*
*Babayan da güllə səpir hər yana,*
*Nəbi tökür göz yaşını bəylərin.*

**- Bəs, Hüseyn Seyidzadənin çəkdiyi filmi Mərkəzi Komitə niyə bəyənməyib?**

- Qatır Məmməd filminin çəkilməsinin ssenarisini 1969-cu ildə moskvalı kinodramaturqlar Mixail Maklyarski və Kirill Rapoport yazıblar. Ssenariyə quruluş vermək öncə Hüseyn Seyidzadəyə həvalə edilir. Elə ilk oxunuşdaca Hüseyn Seyidzadə ssenaridə kəm-kəsir olduğunu deyir və onları düzəltmək üçün hərəkətə keçir. Düz bir il ssenari üzərində işləyir. Film istehsalata buraxılandan sonra isə müəlliflər Hüseyn Seyidzadənin süjeti tamam dəyişdiyini deyirlər.

Ancaq Moskvadakı Mərkəzi Bədii Şura son anda filmin nümayişinə qəti qadağa qoyur və ekran işinin yenidən çəkilməsinə göstəriş verir. Beləliklə, "Qatır Məmməd" Hüseyn Seyidzadədən alınır. Çünki rejissor əsla xalqın qanına susamış şəxs haqqında "qəhrəman" obrazı yaratmaq istəmirdi. Sonda isə film çəkilir...

Qatır Məmməd bu xalqın düşməni olub, Stepan Şaumyan və 26 Bakı Komissarına xidmət edib. Azərbaycan Cümhuriyyətinin əsas düşmənlərindən biri olaraq gənc dövlətin yıxılması üçün əlindən gələni edib.

**- Bizə də o qalır ki, Azərbaycan Cümhuriyyətinin yıxılmasında rolu olan bütün satqın və xainlər lənətləyək! Sizə maraqlı söhbətə görə təşəkkür edirik.**

***P.S.*** 1918-20-ci illərdə mövcud olmuş Xalq Cumhuriyyəti dövrünün araşdırmaçısı Ədalət Tahirzadə Azərbaycan tarixində kifayət qədər tanınan, hətta barəsində dastan yazılan və film çəkilən silahlı birləşmə başçısı Qatır Məmməd haqqında bunları yazır:

"Kimlərsə bu gün yenə Qatır Məmməddən "xalq qəhrəmanı" düzəltmək istəyir! Şaumyanla birləşərək Cümhuriyyətimizə qarşı üsyan etmiş, erməniləri başına toplayaraq bir çox bəylərimizin qanını axıtmış, nəslini kəsmiş, var-dövlətini tar-mar etmiş bu Vətən və millət xaininə tariximizdə yer yoxdur!!!

Buyurun, onun başına topladığı quldur dəstəsindəki ermənilərlə tanış olun! Adlarını sıra ilə qeyd edirəm: Martiros Aruşanov, Haykaz, Hamparsum Koçarov, Mixail Koçarov, Arşak Avakoviç Qriqoryan, Santri Badalyan, Nazar Veliyan".

Araşdırmaçı alim daha sonra daha bir neçə foto təqdim edərək onların izahını da verib:

"Bunlar da Qatır Məmmədin quldur dəstəsindəki adı müsəlman, özü ermənidən daha qəddar olan başkəsənlərdir. Bunların hər birinə Cümhuriyyət hökuməti Azərbaycan xalqına qarşı törətdikləri cinayətlərə görə 30 il iş vermişdi. Adlarını sıra ilə yazıram: Dəli Qara, Əli, Xankişi Məmmədov, İsa Namazov, Tapdıq Nəbiyev.

Sonralar sovet hokuməti bunları "inqilabçı" adlandıraraq göylərə qaldırdı. Bu quldur dəstəsinin başqa "müsəlman" üzvləri də yaddan çıxmasın: Abdulla, Allahverdi Qurbanov, Alxas İbrahimov, İdris Şahverdiyev, Ağakişi Yusifov və digərləri...".

**Söhbətləşdi:**
**Əntiqə Rəşid**

---

# İranda hicabla bağlı yeni CƏZA qanunu

**İran parlamenti ictimai yerlərdə məcburi hicab qanununun pozulmasına görə cərimə, bank xidmətlərinin qarşısının alınması və məhkəmə prosesini nəzərdə tutan qanunun 3 il sınaq müddəti üçün icrasını təsdiqləyib.**

İranın rəsmi xəbər agentliyi İRNA-nın məlumatına görə, hökumətin məhkəmə sisteminin tövsiyəsi ilə hazırladığı və prezident İbrahim Rəisinin imzası ilə parlamentə göndərdiyi "İffət və Hicab Mədəniyyətinin Dəstəklənməsi" qanun layihəsi səsverməyə çıxarılıb.

Qanun layihəsi parlamentdə iştirak edən 201 deputatdan 34-nün əleyhinə 152 səslə qəbul edilib. 7 deputat səsvermədə bitərəf qalıb. Qərara alınıb ki, qanun 3 il müddətində sınaq təcrübəsinə keçsin.



Qanunun qüvvəyə minməsi üçün parlamentin qəbul etdiyi qanunların yekun yoxlanışını həyata keçirən Konstitusiya Keşikçiləri Şurası (AKK) tərəfindən təsdiqlənməlidir.

Ötən il İranda keçirilən Mahsa Əmini nümayişlərindən sonra geniş vüsət alan məcburi hicab qaydaları pozuntularına qarşı hazırlanan qanun layihəsinə əsasən, ilk mərhələdə hicab qaydasını pozan qadınlara sms və oxşar üsullarla xəbərdarlıq ediləcək. Xəbərdarlığa məhəl qoymayan və hicab qaydasını yenidən pozanlar cərimələnəcək.

Cərimə bir ay ərzində ödənilmədikdə, cərimə avtomatik olaraq şəxsin bank hesabından tutulacaq. Hər hansı səbəbdən cərimələrin tutulması mümkün olmadıqda, sözügedən şəxsə bütün bankları və kredit təşkilatlarını əhatə edən hər hansı bank əməliyyatları, o cümlədən bank kartının verilməsi və yenilənməsi qadağan ediləcək. Cərimələrə etiraz 10 gün ərzində edilə bilər.

Dördüncü qayda pozuntusu halında, cərimədən əlavə, məhkəmə orqanı sözügedən şəxsə qarşı iddia qaldıracaq və lazım gələrsə, onu həbs edəcək.

Qanunu pozan müəssisələr sanksiya tənzimləməsi çərçivəsində müvəqqəti olaraq möhürlənə və dövlətin təklif etdiyi vergi güzəştlərindən kənarlaşdırıla bilər.

**İctimai, siyasi, mədəni, incəsənət və ya idman fəaliyyəti ilə məşğul olanlar arasında qanun pozuntusuna yol verənlərə qarşı qanun pozuntularının sayından asılı olaraq cərimə, peşə fəaliyyətinə qadağa qoyulması, son mərhələdə isə azadlıqdan məhrumetmə cəzası tələb oluna bilər.**

**Emin**

---

# *Ekspert həyəcan təbili çaldı...*

**"Qrillərin keyfiyyəti, qiyməti və eləcə də mənşəyi ilə bağlı hər ay 2-3 dəfə Azad İstehlakçılar Birliyinə şikayət daxil olur. İstehlakçılar tərəfindən bu sahədə böyük narazılıq var. Biz qril bişirilən yerlərə getsək, ətin mənşəyini soruşsaq görəcəyik ki, divardan kağızlar asıblar. Lakin heç kəs sübut edə bilməz ki, o sənədlər bişirdikləri qrilə aiddir, yoxsa yox. Rəsmi bir yerdən sənəd alırlar və sonra vaxtı keçmiş, xəstə toyuqları qrilə çevirirlər"**

Bunu Adalet.az-a açıqlamasında Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov deyib. Ekspert bu şəkildə bişirilən qrillərin insanların həyatı üçün təhlükəli olduğunu bildirib:

"Bu sahəyə nəzarət demək olar ki, yox dərəcəsindədir. Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi təəssüf ki, bunları əhatə edə bilmir. Hələ bu vaxta qədər Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin qrillərlə bağlı bir açıqlamasını oxumamışıq. Qril bişirənlər də dönərxanalar kimi istehlakçı hüquqlarını pozan bir şəbəkədir. Qeyd edək ki, toyuq əti tez çirklənən bir ətdir. O qrillər şişə taxılana qədər gərək onun saxlanma şəraiti soyuq zəncirlə hərəkət edilmiş olsun.

Bəzən biz qrilxanalarda soyuducunun olmadığını görürük. Ona görə əhali bu qrilləri alarkən çox diqqətli olmalı və problemlə rastlaşarkən Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin 1003 Çağrı mərkəzinə məlumat verməlidirlər. Əksər hallarda qril bişirilən zaman dərisi qızarır, cəlbedici görünür, içərisi isə çiy olur. Qeyd etdiyim kimi toyuq ətindən insanlar tez zamanda zəhərlənə və xəstəliklərə düçar ola bilər. Ona görə də Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi bu istiqamətdə ciddi araşdırmalar aparmalıdır".

**Vasif Əlihüseyn**

*Əbülfət MƏDƏTOĞLU*



# Ölümsüzlərin abidəsi

*Qaşımda bir kitab var...Üç gündür ki , bu kitaba baxa-baxa dünyanın gəlimli, gedimli olduğunun fərqinə varıram...Elə bil ki dünyanın məhz bu cür etibatsız olmasında bir az mənim də günahım var...Təbii ki, bu mənim daxili yaşantımın qənaətidi... Əslində isə dünyanın öz sanibi var və nə mən, nə də mənim kimi milyardlar bu dünya ilə bacarmayıb, onun yolunu , qayda qanununu dəyişməyib ...Çünki o qüdrət, o haqq bizə aid deyil...Biz sıradan olah bəndələrik!*

*Əslində üç gündür məni düşünməyə vadar edən kitab barəsində azacıq məlumatım var.Onu da əzizim Emil Faiqoğlu öz imzalı infarmasiyası ilə oxuculara, o cümlədən mənə də çatdırıb.Və bilmişəm ki, 44 günlük Böyük və Zəfərli VƏTƏN savaşının Şəhid - ölümsüzlük zirvəsinə yüksəlmiş Elçin Tehran oğlu barəsindədi bu kitab...*




*Şəhidlərimizlə bağlı çox oxumuşam...özüm də çox yazmışam...və bu hamımızın mənəvi borcudu! Unutmamaq və Yaşatmaq bizlərin onların ruhu qarşısındakı ən böyük vəzifəsidir. Bunu gözəl anlayıram. Onu da bilirəm ki, hər bir şəhid ayrılıqda bir planetdi - onu kəşf etmək, öyrənib tanıtmaq isə onları yaşatmaqdı!...*

*Qarşımda olan kitabın məni özündən uzağa buraxmayan səbəl追indən biri, daha doğrusu birincisi üz qabığındakı şəkildi. Həmin şəkildə Elçin mənə dolu, ağıllı gözləri ilə çox, lap çox uzaqlara baxır...Sanki sonsuz bir yolun kələfini çözməyə səsləyir bizi! O baxışdakı məna o qədər sirli və düşündürücüdür ki, onu yalnız barıt qoxusunu duyan,səngər torpağını qəzəbindən xışmalayan və çiyindaşının nəşini sinəsinə sıxıb hönkürənlər daha dəqiq oxuyub anlaya bilər. Bəxtimə Birinci Qarabağ müharibəsini keçmək düşdüyündən ifadə etdiyim duyğuları Elçinin gözlərinə baxdıqca təkrar yaşayıram... Və hətta , mənim inancıma görə ( Bu barədə yazılarımda da hər zaman vurğulamışam -Ə.M.) şəhidlərin baxışları heç vaxt bizim üzərimizdən çəkilmir.! Əksinə, onlar ruhun gözləri anlamında bizi izləyir...bizi yönəldirlər...*

*Elçinin doğmalarını da, doğulduğu kəndi də,ocağı da, ailəni də yaxşı tanıyıram...Bu səbəbdən də əməkdar jurnalist Faiq Qismətoğlunun " Dünyanın o üzü" kitabını oxuyanda dayanıb nəfəs dərmədim..Ona görə ki , tanış, doğma mənzərə... sözlər...səslər.. Sanki bu kitabdakı mətni mən kağıza köçürürəm...İnanın, dərd mənə doğma olduğundan mən kitabın vərəqlərini çevirdikcə o mətinləri səs kimi, söhbət kimi eşidib dinləyirdim.. Ana fəryadının " Elçinə və yanındakılara dualar göndərirdim...dualar" yanğısı, " Evimin çırağı oğul" -deyən ata dəyanəti, "Məni hər kəs sənə bənzədir!" - söyləyən qız övladının hıçqırtısı," Atam nə vaxt gələcək?" sualından yayınmağa çalışan ömür-gün yoldaşının solğun çöhrəsi.... mənə canlı səs kimi hopurdu...*

*Məhz bu səbəbdən də mən Elçin barəsində istər ailə üzvlərinin, istər qohum, dost, əsgər yoldaşları, müəllimləri,...ümumiyyətlə onu tanıyanların söylədikləri ürəyimdə əbədiyaşarlıq işığı kimi alışır...Bu alışma da məndə böyük bir əminlik inamı yaradır .Yəni bu da Elçin Tehran oğlunun, eləcə də bütün şəhidlərimizin əbədi yaşayacaqlarına olan inamdı!*

*Faiq Qismətoğlunun "Dünyanın o üzü" adlandırdığı bu kitab dünyanın bu üzündən danışır... Elə danışa danışa da məkanları CƏNNƏT olan şəhidlərin, qazilərin tarixi missiyasını oxuculara, yəni bizə xatırladır. Müəllif vurğulayır ki," ...şəhidlər bizim çiynimizdən ağır bir yükü götürdülər.O yükü ki, 30 ildir çiynimizdə idi, çəkə bilmirdik. O yük tarixə qovuşdu və şəhidlər bir günəş kimi dünyamıza , Azərbaycanımıza işıq saçdılar.O günəşdən biri də Elçin Tehran oğlu Süleymanovdur." Bəli, bu dəqiq ifadə edilmiş həqiqətdir - Sönməyən günəşdi ŞƏHİDLƏR!*

*Mən bu kiçik yazımla Elçin üçün ucaldılmış söz abidəsinin dəyərli olduğunu və onun xidmətlərini gələcək nəsillərə çatdıracağına inadığımı da xüsusi qeyd etmək istəyirəm!. Ona görə ki, Qəhrəmanlarla bərabər Qəhrəmanlıq da ölmür!*



*Ayaz Arabaçı*

## ŞƏHİDİM

*Qeyrətini hər məqamda duyurdun,*
*Cəbhələrdə qanı qanla yuyurdun,*
*Bu torpağın, bu vətənin, bu yurdun,*
*Dar günündə yaraq olan şəhidim.*

*Zəfərlərin başla-canla yazılmış,*
*Uca namla, uca şanla yazılmış,*
*Tariximə qızıl qanla yazılmış,*
*Ən qiymətli varaq olan şəhidim.*

*Zərrə qədər qürurundan enməyən,*
*Öz andından, öz sözündən dönməyən,*
*Ürəyinin alovları sönməyən,*
*Öləndə də çıraq olan şəhidim.*

*Qaşlarının arasından öpürəm,*
*Tellərinin qarasından öpürəm,*
*Ürəyinin yarasından öpürəm,*
*Son nəfəsdə bayraq olan şəhidim.*

*Torpaq üçün, vətən üçün yox bazar,*
*Bu dastanı sənin kimi kim yazar,*
*Toy otağı ovuc boyda dar məzar,*
*Toy libası torpaq olan şəhidim.*

*Heykəlləşdin vətənin bir daşında,*
*Ömrün fidan, ömrün çiçək yaşında,*
*Ərənliyin , kişiliyin başında,*
*Qeyrət olan- papaq olan şəhidim.*

# ZİYALI ÖMRÜNÜN İŞIQ PAYI

**Həyatda rastlaşdığım, tez-tez ünsiyyət qurduğum, ürəyimdə yer alan, xətrini dünyalar qədər istədiyim ziyalılar, xeyirxah adamlar çox olub. Belə işıqlı adamlardan, İşıq adamlardan biri də görkəmli şərqşünas alim, filolgiya elmləri doktoru, professor Əsgər Rəsulovdur. O, təkcə mənim yox, çoxlarının yaddaşında, könül dünyasında müdrikliyi, xeyirxahlığı, alicənablığı ilə, eləcə də qardaş Türkiyə ədəbiyyatının ən mahir bilicisi kimi sağlığında ikən əbədiləşən bir Azərbaycan kişisidir, Azərbaycan ziyalısıdır və həm də sözə könül verən Azərbaycan şairidir. Və nə yaxşı ki, onun kimi vətənpərvər, ürəyi Vətən sevgisilə çırpınan, öz ziyası ilə yolumuza nur çiləyən, bizi düzlüyə, sədaqətli, etibarlı olmağa, haqqı nahaqqa qurban verməməyə çağıran, hər kəsdə bu keyfiyyətləri tərbiyə edən bir insanla bir kollektivdə - Milli Arxiv İdarəsində çalışıram. Əsgər müəllim Milli Arxiv İdarəsinin rəisidir və bir rəhbər olaraq həyat məktəbinin ən böyük müəllimlərindən biri kimi üzərimizə böyük məsuliyyət qoyub. Dövlət arxivində çalışmağın məsuliyyətini məhz o böyük insandan əxz elədim. O, böyük ziyalı, alim və vətənqpərvər bir insan kimi insanlığı yaşadır, haqqı-ədaləti yaşadır, düzlüyü, təmiz adı hər şeydən uca tutur, vətəninə, millətinə xidmət edən, Azərbaycanın ən sanballı alimlərindən və söz adamlarından biri kimi tanınır və sevilir. Millət üçün ömrünü şam kimi yandıran, haqq adamı, dost adamı kimi ürəklərə yol tapan Əsgər Rəsulov qəlbindəki Vətən sevgisi, el-oba sevgisi, xeyirxahlıq və səmimiyyət kimi keyfiyyətlərilə hər kəsin məhəbbətini qazanan, işdə ciddi və tələbkar olduğu qədər də qayğıkeş olan, sözü və əməli üst-üstə düşən bütöv bir şəxsiyyətdir.**



Şərəfli, ləyaqətli bir ömür yaşayan, insanlığına, xeyirxahlığına bələd olduğum, səmimiyyətinə vurulduğum professor Əsgər Rəsulov möhkəm iradəsi, arzusu, istəyi yolunda dönməzliyi, zəngin həyat təcrübəsi, təşkilatçılıq qabiliyyəti, işgüzarlığı, bir alim kimi ucalığı, bir şair kimi sözlərdən zərif, incə ruh oxşayan çələng toxuması qürurvericidir. O, elə bir insandır ki, qazandığı saysız-hesabsız uğurlar da, alim şöhrəti də, daşıdığı vəzifə də onu dəyişdirə bilməyib. Şöhrət dalınca qaçmayıb, şöhrət özü gəlib onu tapıb və xeyirxahlığı, insanlığı, sadəliyi, təvazökarlığı hər şeydən üstün tutan Əsgər müəllimin şəxsiyyətində ziyalılıqla insanlıq, sadəliklə böyüklük birləşərək onu xalqın gözündə daha da ucaldıb.

O işıqlı, nurlu insan kollektivdə hər kəsə həm ata kimi, qardaş kimi, rəhbər kimi, həm də şair və alim həssaslığı ilə yanaşır, hamının qayğı və problemlərilə maraqlanır və heç kimi diqqətdən kənarda qoymur.

Professor Əsgər Rəsulov həm müəllimdi, həm dilçidi, həm ədəbiyyatşünasdı, həm tərcüməçidi, həm də şairdi. Bunlardan öncə isə qeyrətli Azərbaycan vətəndaşıdı, əsl şəxsiyyətdir, bir ziyalı kimi qaranlıqları işıqlandıran, haqq yolunu göstərən bir ziyalıdı, işıqdı. Onun işığından hamıya pay düşür. O işıqlı adam hamını işığına çağırır, işığıyla çağırır. Onun işığına üz tutub gələnlərin sayı çoxdur, lap çoxdur. O gözəl ziyalının ümid qapısından heç kim ümidsiz geri qayıtmayıb. O, hər kəsi mehribanlıqla dinləyir, hər kəsin dərdinə əlac tapmağa çalışır, qayğısına qalır, bir ata kimi, müəllim kimi məsləhət verir, doğru yol göstərir.

Ərz elədiyim kimi Əsgər Rəsulov müəllimdi, qələmilə öyünə bilən elm adamıdı, sanballı kitabların müəllifidi. Bir müəllim kimi həyatın hər sınağından uğurla keçib və özünün həyat təcrübəsinə söykənərək həm bilik verir, həm də həyat dərsi keçir və söz düşəndə deyir ki, həyatda xoşbəxtlik həm də yaxşılıq eləməkdir və yaxşılıq eləməkdən duyulan həzzdir, elm və hünərdən alınan zövqdür. Və bir də deyir ki, insan öyrənməklə, bilik əldə etməklə ucalar.

Hər bir insana qarşı eyni dərəcədə istiqanlı və mehriban olan Əsgər müəllimin elmin sirlərinə dərindən bələd olması, pedaqoji ustalığı, əsl ziyalı mədəniyyəti nümayiş etdirməsi onun böyük hörmət və nüfuz qazanmasının əsl səbəblərindən biridir.

Əsl müəllim və xeyirxah insan olan Əsgər Rəsulovdan həmişə və hər yerdə öyrənirlər, bu işıqlı insanın həyat məktəbindən dərs alanlar da az deyil.

Hər anı ilə öyünüləsi, qürur duyulası o işıqlı insan hər kəsin qəlbinə yol tapmağı, onlara fərdi yanaşmağı, hərənin öz dili ilə danışmağı bacaran müəllimdir və bir müəllim kimi də qüruru, ləyaqəti, mənliyi hər şeydən üstün tutur.

Professor Əsgər Rəsulov dilçi və ədəbiyyatşünas alimdi və bir alim kimi şöhrəti tərcümə sahəsindəki dəyərli işlərilə də türk dünyasına yayılıb. Onu Türkiyədə daha yaxşı tanıyırlar. Bu, səbəbsiz deyildir. Axı o, Azərbaycanın türk dili və ədəbiyyatı sahəsində tanınmış şərqşünaslardan biridir, birincisidir. Təkcə onu demək kifayətdir ki, "Türk sənədli-bədii" monoqrafiyası onun kamil ədəbiyyat nəzəriyyəçisi olduğu bir daha məlum oldu. Fəxrlə demək olar ki, bu günə kimi nə dünya şərqşünaslığında, nə də qardaş Türkiyədə təxminən altıyüzillik dövrü əhatə edən ümumiləşdirilmiş tədqiqat əsəri yazılmayıb.

Professor Elxan Əzizov yazır: " Əsgər müəllim ondan artıq kitabın, on beş fənn proqramının, ölkəmizdə və xaricdə nəşr edilmiş ikiyüzə yaxın elmi və ədəbi-tənqidi məqalənin müəllifidir. Türk dilinə və əksinə çoxsaylı tərcümələr edib, bu qəbildən olan iyirmiyə yaxın kitabın ixtisas redaktorluğunu öz öhdəsinə götürüb.

O, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat institutu nəzdində fəaliyyət göstərən Dissertasiya Şurasının üzvü, Filologiya Problemləri üzrə Elmi Şura sədrinin müavinidir.

Əsgər müəllimin türk dilçiliyi sahəsində mühüm xidmətlərindən biri də ölkəmizdə ilk dəfə olaraq rus dilində nəşr etdirdiyi "Sovremennıy turetskiy yazık" (2016) kitabı ilə bağlıdır. Burada türk dilinin fonetika, leksikologiya, morfologiya və sintaksisi bütün parametrləri ilə nəzəri cəhətdən araşdırılmış, tələbə, magistrant, doktorant və müəllimlərin stolüstü vəsaitinə çevrilmişdir".

Professor Əsgəro Rəsulov 43 ildir ki, BDU-da elmi-pedaqoji fəaliyyətini davam etdirir. O, Azərbaycan, rus və türk dillərindəki mövcud nəzəri əsərləri hərtərəfli araşdırdıqdan sonra, əvvəlcə "Tərcümə nəzəriyyəsi müstəvisində Türktiyə türkcəsi və Azərbaycan dili" (2007), ardınca "Tərcümə nəzəriyyəsi və təcrübəsi" dərs vəsaitini (2015) ortaya qoyaraq bu sahədəki boşluğu aradan qaldırmış oldu. Azərbaycan türkologiyasının lüğətçilik sahəsində böyük işlər görən Əsgər Rəsulov "Türkcə-azərbaycanca-rusca dilçilik terminləri lüğəti (prof. R. Rüstəmovla birgə), "Türkcə-azərbaycanca-rusca; Azərbaycanca-rusca-türkcə;Rusca-türkcə-azərbaycanca dilçilik terminləri lüğəti və "İzahlı türkcə-azərbaycanca yalançı ekvivalentlər lüğəti dediklərimizə əyani sübutdur. Əsgər Rəsulov həm də fitri istedadı və bədii sözə vurğunluğu ilə seçilən, sözə könül verən, poetik düşüncələrini böyük ustalıqla qələmə alan şair kimi də tanınır. Şairin "Dilmanc" adlı kitabı onun bənzərsiz şeir dünyasından, sözlə nəfəs almasından, eləcə də sözə nəfəs verməsindən xəbər verir. Şairin fəlsəfi məzmunlu şeirləri, oxucunu heyrətləndirən poemaları ürəkləri ovsunlayıb, poeziyasevərlərin böyük marağına və sevincinə səbəb olub.

Azərbaycan Yazıçılar Birliyinin üzvü olan Əsgər Rəsulun bir şair-alim kimi, şərqşünas kimi həyat kredosunu aşağıdakı misralarda da görmək mümkündür:

*Küsmürəm, deyirəm qoy belə olsun,*
*Qarşılıq gözləmək çox mənasızdır.*
*Mənə edilənlər borcum sayılsın,*
*Mənim etdiklərim təmənnasızdır.*

Dərin fəlsəfi məzmunlu bu misralar Əsgər Rəsulun işıqlı ürəyindən, şərəfli həyatından, insanlara qucaq açmasından, Vətən sevdalı olmasından, ürəyinin yaxşılıq etmək arzusu ilə çırpınmasından xəbər verir. Bəli, o, təmənnasız yaxşılıq eləyən insandır, elmilə xalqı faydalandıran alimdir, şeirlərilə ruhumuzu cilalayan şairdir və bir şair kimi sözü ürəyində bişirməmiş qələmə almır. O, fikir və düşüncə şairidir. Onun şeirləri dünyaya işıq tutur və bu işıqda dünya da, insanın iç dünyası da bütün çılpaqlığı ilə gözlərimiz önündə canlanır.

Şairin şeirlərində hiss və duyğuların, ovqatın, fikrin müasirliyi o qədər orijinal təsir bağışlayır ki, heyrətlənməyə bilmirsən.

*Eşq ürəkdə gizlənir,*
*Yalan dilin bağında*
*Zalımın zalımlığı,*
*Məzlumun susmağında.*

*("Gizlənib")*

Elə bu misralardan da hiss eləmək mümkündür ki, şair Əsgər Rəsullu oxucu qəlbinin ən incə tellərini titrədən, ruhumuza sığal çəkən, könlümüzü oxşayan, insanları mənəvi təmizliyə çağıran incə qəlbli bir şairdir.

Əsgər Rəsullu sözə bükülmüş şair ürəyilə günümüzün reallıqlarını açıb-göstərir:

*Minnətsiz kəsilmir indi*
*Duz-çörək.*
*Yaxşılıq təmənna*
*Üstündə bitib.*
*Yıxır insanları*
*Acgözlük, həsəd.*
*Əl tutmaq, mərhəmət*
*Duyğusu itib...*

*"Dünyamı dəyişdi,*
*bizmi yaşlandıq")*

Ürəyinin diqtəsilə şeirlər yazan, poeziya aləmində heç kimin yoluyla getməyən, heç kimi təqlid etməyən Əsgər Rəsulun misralarında təsadüfi bir sözə, ürəyində "bişirməmiş" bir şeirə rast gəlmədim, əvəzində xalqa, zamana xidmət eləyən heirlər oxudum. Bu şeirlərdə milli yanğı, gələcəyə söykənmiş düşüncə gördüm və hiss elədim ki, şair Əsgər Rəsulun poeziyası həm ədəbiyyatın, həm də əbədiyyətin tarixinə yazılacaq.

... Bəli, professor Əsgər Rəsulov işıqlı, nurlu ziyalıdı, Azərbaycanın sayılıb-seçilən mərd kişilərindən biridir. Hər zaman ləyaqətli şəxsiyyət nümunəsi göstərən şəxsiyyətdir. Bir şəxsiyyət kimi Vətən üçün, millət üçün çox işlər görüb, tarixi əhəmiyyətli işlər görüb, bədii ədəbiyyatımızın inkişafı yolunda da yorulmadan çalışan söz adamı kimi adını tarixin ən öyünüləsi səhifələrinə yazdırıb. Böyük Qırğız yazıçısı Çingiz Aytmatovun bir çox əsərlərini dilimizə çevirib, türk şairi Fazil Nəcib Qısakürəyin şeirlər toplusuna olduqca geniş və əhatəli ön söz yazaraq o böyük söz ustadını Azərbaycan oxucularına daha yaxından tanıtdırıb.

Qalın-qalın kitablara sığmayan bir ömür yaşayan professor Əsgər Rəsulov insanları gözəlliklər yaratmağa, yaxşılıq və xeyirxahlıq etməyə səsləyir və tanın mı şalim kimi, şərqşünas və pedaqoq kimi Vətənə şöhrət gətirən bir ziyalı kimi Şərqşünaslıq institutunda kadr hazırlığı sahəsində də az iş görməyib.Tələbələrin sevimlisi, istəklisi olan professor Əsgər Rəsulov Naxçıvanın türk dünyasına bəxş etdiyi ən işıqlı ziyalılardan biridir. O, həm də Dədə qorqud öyüdlü, Dədə Qorqud nəsihətli bir insan kimi xalqın güvəndiyi, inandığı, ümid etdiyi ziyalıdır, haray deyəndə imdad verəndi, gözəl ailə başçısıdır, sevmli atadır, itstəkli babadır, təmənnasız bir ömür yaşayan şəxsiyyətdir.

Professor Əsgər Rəsulov həm də qürurlu ziyalıdır. Çünki təvazökardır. Təvazökar olanlar qürurlu olurlar.

O, sözün əsl mənasında böyük şəxsiyyətdir. Əgər yer üzündə mərifət, alicənablıq, halallıq, düzlük, şərəf və ləyaqət, dostluq və sədaqət yoxa çıxsa, onları yenidən Əsgər müəllimin qəlbində axtara bilərsiniz. Çünki o, şəxsiyyətdir.

Professor Əsgər Rəsulov mənəviyyatca təmiz adamdı, vətənə, millətə sevgiləriylə böyük adamdı. Çünki o, şəxsiyyətdir.

Professor Əsgər Rəsulov halal adamdı, Allah adamıdı. Halal adam, Allah adamı həmişə halallığında qalacaq. O, həm də Allah bəndəsinə mərhəmət göstərdiyinə görə Allah da onu ucaldır. Çünki o, şəxsiyyətdir.

Professor Əsgər Rəsulov millətin qəmiylə qəmlənir, sevinciylə sevinir, ölkənin və millətin taleyüklü məsələlərində ön sıralarda dayanır. Çünki o, şəxsiyyətdir.

Bu gün kişilik də, mərdlik də, xeyirxahlıq da, əsl ziyalılıq da üç-dörd nəfərin çiynində daşınır ki, onlardan biri də professor Əsgər Rəsulovdu. Çünki o, şəxsiyyətdir. O, vətənpərvər ziyalı, görkəmli türkoloq alim, tərcüməçi-ədəbiyyatşünas kimi insanlığın ən uca zirvəsində - kamillik zirvəsində yer alıb. Onun işığı yolumuzu aydınlaşdırır. Yüz illər keçsə də bu işıq sönməyəcək, çünki onun işığı kitablarından, monoqrafiyalarından, lirik şeirlərindən, poemalarından süzülüb gəlir.

Mən deyərdim ki, professor Əsgər Rəsulov şəxsiyyət kimi daha çox sevilir. Axı hər alim, hər elm adamı, hər vəzifə sahibi şəxsiyyəıt ola bilməz. Şəxsiyyət olmaq üçün əsl insan, əsl vətəndaş, əsl ziyalı, kamil insan olmaq gərəkdir. Əsgər müəllim bir şəxsiyyət kimi heç kimə yox, özünə arxalanır, özünə güvənir, özünə söykənir, özünə dayaq olur. Bəli, o, heç kimə söykənmir, ona söykənirlər. Çünki o, şəxsiyyətdir

O, həm də cəsarətli ziyalıdı. Haqsızlıq önündə heç vaxt susmayıb. Haqqın yanında dayanır, haqqa söykənib, haqqı danışır. Çünki o, şəxsiyyətdir. Haqqı danışmaq, haqqı söyləmək şəxsiyyətə xas olan xüsusiyyətlərdən sayılır. O da bir şəxsiyyət olaraq ədalətsizliklə üzləşəndə, ən gərgin anlarda, psixoloji şəraitdə belə özünü itirməyib, öz əqidəsinə sadiq qalıb, öz haqlı fikirlərindən daşınmayıb.

Bəli, professor Əsgər Rəsulov unudulası mümkün olmayan şəxsiyyətdir. O, xalqın qan yaddaşında əbədi olaraq yaşayacaq şəxsiyyətdir.

Və o, bir şəxsiyyət olaraq hamı tərəfindən sevilir, onunla fəxr edirlər, qürur duyurlar. Türk dünyasının o böyük alimlə, o böyük ziyalıyla fəxr etməyə mənəvi haqqı var. Professor Əsgər Rəsulov bütöv şəxsiyyətdir, fenomendir, türkün genetik kodudur, gen yaddaşıdır, söz adamıdır, ədəbiyyat adamıdır, təfəkkür sahibidir, türk dili və ədəbiyyatı elminin ən nəhəng simalarından biridir.

**Və ən nəhayət, demək istəyirəm ki, professor Əsgər Rəsulov yaşadığı ömrə imza ata biləcək şəxsiyyətdir, ömür səhifələrinə, ancaq gözəl əməllər yazan şəxsiyyətdir. O böyük insanın ziyalı ömrünün işığından hamıya pay düşür.**

**Müzahim İsmayılzadə**

# Təhsil uğurun açarıdır

**Bir gəncin işıqlı yolu onun təhsilindən başlayır. Təhsilsiz insanın cəmiyyətdə yüksək mövqe tutmağı demək olar ki, mümkünsüzdür. İnsan yalnız savadlı olmaqla, oxumaqla uca zirvələri fəth edə bilər.**

Təhsil zəhmət istəyir. Bu günün qəhrəmanı Elmira Əlizadə də bu zəhmətə qatlaşanlar sırasındadır. O, 2006-cı ildə Bakı şəhərində anadan olub. İbtidadi təhsilini Bakıda alsa da, sonra Gəncədə, daha sonra isə Balakəndə məktəbə gedib. Elmira öz uşaqlıq arzusunu reallaşdırmağı qarşısına məqsəd qoymuşdu. O, politoloq olmaq istəyirdi. Bunun üçün dayanmadan çalışırdı. Nəhayət ki, bu çalışqan qızcığaz arzusuna çatdı. O, 445 balla Bakı Dövlət Universitetinin Politologiya fakültəsinə qəbul oldu. Biz də onun sevincinə şərik olduq.

Tələbə adını qazanmış Elmira uğur qazanmağın yolunu abituriyentlərlə də bölüşüb: "Sevindirici nəticə əldə etmiş tələbə kimi, bütün abituriyentlərə deyə bilərəm ki, əvvəlcə öz hədəflərini müəyyənləşdirsinlər. Daha sonra zəhmətə qatlaşmağı bacarsınlar. Son dərəcə səbrli olsunlar. Və bir də özlərinə inansınlar. İnamla çalışmaq hər kəsə uğur qapıları açır. Belə olan halda bütün abituriyentlər arzuladıqları ali məktəbə qəbul olub, istədikləri ixtisasa yiyələnə bilərlər."



**Əntiqə Kərimzadə**

# "Beş nəfərlik faciə"




**Barəsində fikirlərimi bölüşməyə həvəsləndiyim kitabın müəllifi Qəşəm İsabəylidi. Uzun illərin sınağından keçib gələn bir ərk bağlayır məni Qəşəm müəllimə. Elə həmin ərklə də həmişə söhbətləşir, dərdləşir . arada bir də qarşılıqlı vədlərlə yolumuzu davam edirik. Elə buradaca qeyd edim ki, Qəşəm müəllim Azərbaycanın hüdudlarından kənarda da tanınan və mükafatlara layiq görülən uşaq şairi olsa da, onun çox maraqlı nəsr əsərləri də var. Və bu əsərlərin dili də, yazı üslubu da çox orjinald. Şəxsən mən bunu Qəşəm İsabəylinin özünəməxsusluğu hesab edirəm.**

Yaxın günlərin birində Qəşəm müəllimlə atüstü görüşdük...Daha dəqiq desəm avqustun 10-da elə "Azərbaycan" nəşriyyatının qarşısında hal-əhval tutduq. Mən də fürsətdən istifadə edib avqustun 14-də tamam olacaq (artıq olmuş - Ə,M.) 75 yaşı ilə bağlı onu təbrik etdim...Bir az da zarafatla onun dilindən yubley qonaqlığı barədə dəqiq söz almağa çalışdım.. O da vəd verdi...Amma anında ca mənə "Dostum, qardaşım..." avtoqrafı ilə "Beş nəfərlik faciə" -ni bağışladı...

O andan bir yerdəyəm bu kitabla.. artıq heykayələrdən və nağıl povestdən ibarət "Beş nəfərlik faciə" ilə dostlaşmışam.. Bunu ona görə xüsusi vurğulayıram ki, oxuduqca gülə-gülə düşünmüşəm...kədərlənmişəm... Hər iki halı mənə yaşadan Qəşəmin həyatda hər gün qarşılaşdığım, amma əhəmiyyət vermədiyim personajları - qəhrəmanları olub... Xüsusi ilə onun heyvan cilidindəki qəhrəmanları... Mən bu anın özündə də düşünürəm ki, kitabdakı nağıl - povest maraqlı bir senaridi...

**Masamın üstündə götürmək niyətində olmadığım bu kitabın mənim üçün bir önəmi də müəllifi , onun fikirlərinin alt qatını az-çox görə bilməyimdi... Mən tam əminəm ki, elə həmin o qatlar Qəşəm İsabəyli yaradıcılığının mahiyyətini açır... Bax bu açılışla da mən dostum, qardaşım Qəşəm İsabəyliyə uğurlar diləyirəm. O ki, qaldı "Beş nəfərlik faciə" -nin geniş yozumuna ,yəqinki, ədəbiyyatşünaslarımız gec də olsa dillənəcəklər.**

**Əbülfət Mədətoğlu**

# Repressiya qurbanları

## Türklərə qarşı vuruşmaqdan imtina edən Zeynal ağanın acı taleyi

**Zeynal ağa çar ordusunda xidmətdə olarkən, 1913-14-cü illər rus-türk müharibəsinin iştirakçısı olub. Döyüşlərin şiddətli vaxtı biləndə ki, rus əsgərləri, bu da onların içində, türklərə qarşı vuruşur, döyüşdən boyun qaçırır: "Mən türk qardaşlarıma güllə ata bilmərəm" deyib, silahını yerə qoyur, hərbçi andını pozur və çox çətinliklə də olsa baş götürüb birbaşa Azərbaycana - Şəmkirə gəlir. Atasının təsərrüfatında müəyyən işlərə rəhbərlik edir. Arabir qəzet, dərgi almaq üçün həmkəndlisi Yusif ağayla Gəncəyə gedirdi. Zeynal ağa burada həm də xalqının azadlığı, ölkəsinin müstəqilliyi uğrunda düşünüb-daşınanlarla tanış olurdu.**

Zeynal ağa təhsilli, ədəb-ərkanlı idi, ilk təhsilini kənddə molla yanında almışdı, sonra kəndə yaxın Aninnoda (indi Şəmkir rayon mərkəzi) almanlara məxsus dördsinifli məktəbi bitirmişdi. Hərbçi olmağa böyük həvəs göstərdiyindən atası da bu istəyi məmnunluqla qarşılamışdı. Aparıb Tiflisdə hərbi məktəbə qoymuşdu. Hərbi məktəbi uğurla başa vuran Zeynal ağa Bədirbəyli az sonra Rusiyada da hərbi məktəbdə oxumuşdu. O, rus və ərəb dillərini yaxşı bilirdi.

Zeynalın ağanın 29, uşaqlıq dostu Yusif ağanın isə 28 yaşı var idi. Zeynal ağa bölgədə böyük nüfuz sahibi, Cümhuriyyət qurucularına qoşulan, onlara maliyyə dəstəyi göstərən müsavatın fəallarından biri kimi tanınırdı. Şamxor (Şəmkir) rayonunda məsul vəzifə sahibi, habelə yeni hökumətin yanında sözü keçən Piri oğlu Əli 1918-ci il "Eşalon davası"nın, 1920-ci il Gəncə üsyanının, neçə-neçə erməni-müsəlman münaqişəsinin iştirakçısı olmuş Qədim ağanın böyük oğlu Zeynal ağanı, onunla yoldaşlıq edən Kərbalayi Əhmədin oğlu Yusif ağanı yaxşı tanıyırdı. Vaxtının çox hissəsini Cümhuriyyətin qayğılarına həsr edən Zeynal ağa Morulda adlı-sanlı kişilərdən olan Bəylər Alırza oğlunun qızı Maya xanıma nişanlı idi. Erməni-müsəlman qırğınları, Cümhuriyyət dövrünün çəkişmələri, Gəncə üsyanı toyun bu aydan gələn aya uzanmasına səbəb olmuşdu. Bolşevik əsgərləri və NKVD işçiləri tərəfindən iki dəfə həbs edilən məşhur mülkədar və bolşevik quruculuğunun düşməni olan atası Qədim ağanın, eləcə də qardaşlarının qolçomaq kimi həbs edilmək, sürgünə göndərilmək, güllələnmək təhlükəsi xeyir işi əngəlləyirdi.

İşlərin gedişindən gözü su içməyən Şura sədri, Qədim ağanın uşaqlıq dostu Piri oğlu Əli yaxınlaşan təhlükəni bu ailədən uzaqlaşdırmaq üçün Zeynal ağanı xəlvəti yanına çağırıb tapşırır ki, vəziyyət çox qarmaqarışıqdır, çalış gözə görünmə, baxaq, görək bu işlərin axırı necə olur...

Odur ki, Zeynal ağa dostu Yusif ağa ilə bir neçə ay idi ki, Kürqırağı meşələrdə, yataqlarda çobanların yanında, bəzən də təsadüfi tanışların evində gecələyir, qaçaq həyatı yaşayırdılar. Morula, evəeşiyə yaxın gedə bilmirdilər, gedəndə də, əyin-baş dəyişmək üçün, gecələr gizlin gəlib, tez də aradan çıxardılar. Əsasən Kürqırağı meşələrdə günlərini keçirər, gündüzlər dükan-bazara dəymək bəhanəsi ilə ətraf kəndlərdə dolaşardılar. 1920-ci il dekabr ayının axırında Zeynal ağa ilə Yusif ağa Qaracəmirlinin üstündəki meşəlikdən çıxıb Alabaşlı stansiyasına gəlirlər. Dəmir yolu vağzalında bufetdən papiros alıb, çəkə-çəkə perronda o baş-bu başa var-gəl edirlər. Onların silahlı, yaraqlı-yasaqlı olmaları buradakı ermənilərin diqqətini çəkir. Gəzinənlərin yaxın gəlmə, ya da kənar kəndlərdən olduğunu zənn edib, hər ikisini perronun sakit küncündə güllələyirlər, üstlərində olan pulu, tapançanı, xəncəri, papirosu, müştuqu və s. götürürlər. Sonra da almanlarla dost və mehriban şəraitdə yaşayan yerli camaatın arasında münaqişə yaratmaq məqsədilə onları üzümçülüklə məşğul olan almanlar öldürüblər, deyirlər. Bununla da ermənilər yerli azərbaycanlılarla almanları qarşı-qarşıya qoymaq istəyirdilər. O dövrdə terrorçu erməni dəstələri bu üsulla rusların evlərini qarət edir, qonşunun həyətindən toyuq-cücəsini, mal-qarasını oğurlayıb məqsədli şəkildə deyirdilər ki, bunu müsəlmanlar, azərbaycanlılar edib. Həmin dəstənin üzvlərindən bir neçəsi utanmadan hətta şahid kimi erməniпərəst rus məmurlarına ifadə də verirdilər: "Mən gördüm Yurikin evini Mamed apardı".

Bolşeviklərin gəlişi ilə dönəlgəsi dönən ailənin Zeynal ağanın ölümündən sonra daha faciəli günləri başlayır. Zeynal ağanın meyiti Alabaşlıdan arabayla Morula - qapıya gətiriləndə nişanlısı Maya bərk əsəb sarsıntısı keçirir, havalanır, xəstələnir, az sonra dünyasını dəyişir. Ermənilər tərəfindən öldürülən Zeynal ağanın atası və yaxınları bolşeviklərin qorxusundan nə günahkarı arayıb axtardılar, nə də harasa şikayət edə bildilər. Heç yeni hökumət özü də bu qoşa qətllə maraqlanmırdı.

**Köhnə Morul qəbiristanlığındakı Zeynal ağa Qədim ağa oğlu ilə Maya xanım Bəylər Alırza qızının qoşa məzarları, acı taleləri buraya ziyarətə gələnlərdə sovet hökumətinə, bolşevik rejiminə qarşı nifrət hissi doğurur.**

**Rəhman SALMANLI,**
**tədqiqatçı-jurnalist,**
**filologiya üzrə fəlsəfə doktoru**

**Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

№ 36 (2360) 22 sentyabr 2023-cü il

# DÜNYAYA AÇILAN PƏNCƏRƏ

**Bu gün dünyada çox böyük siyasi və iqtisadi proseslər gedir. Daha doğrusu, dünya beynəlxalq güclərin və qüdrətli dövlətlərin təsiri, təzyiqi altındadır. Ən azından ona görə ki, dünyanı idarə edən güclü dövlətlər kiçik ölkələrin inkişafına və tərəqqisinə şərait yaratmır, əksinə, ona maneçilik törədirlər. Başqa sözlə demiş olsaq, dünyanın nəhəng dövlətləri istəmirlər ki, kiçik ölkələrdə sürətli iqtisadi, hərbi və mədəni inkişaf olsun. Amma onların istəyib-istəməməsindən asılı olmayaraq artıq bir çox ölkələr, o cümlədən Azərbaycan dünya iqtisadiyyatına inteqrasiya olunmaq yolunda inamlı addımlar atır. Düzdür, bayaq dediyimiz kimi, bu addımları ləngitmək istəyən, hətta tormozlayan iri ölkələr var. Çox uzağa getməyək, Avropa ölkələri arasında Fransa açıq-açığına bizimlə düşmənçilik edir, ermənilərin haqsız işini müdafiə edir, üstəlik də məmləkətimizin iqtisadi inkişafına maneçilik törətmək istəyir. Bunu kim bilməsə də biz yaxşı bilirik. Hansı ki, Fransanın ölkəmizdə bir neçə şirkətləri uzun illərdir fəaliyyət göstərir və bundan külli miqdarda xeyir əldə edirlər. Ancaq buna baxmayaraq, onlar hər vəchlə ölkəmizin siyasi-iqtisadi, hərbi, mədəni inkişafına badalaq vurmağa çalışırlar. Düzdür, bu badalaq bizi yıxmasa da başımızı qatır və müəyyən problemlər yaradır.**

Ancaq Azərbaycan bu gün elə bir sivil, iqtisadi və demokratik, hüquqi yol tutub ki, onun qarşısını heç bir qüvvə ala bilməz. Bunun bariz nümunəsi kimi, Azərbaycanın son 20 ildə əldə etdiyi iqtisadi inkişafı xatırlamaq kifayət edir. Belə ki, bu zaman ərzində ölkəmizdə yüngül və ağır sənaye sahələri inkişaf etdirilmiş, kənd təsərrüfatında əsaslı islahatlar aparılmış və digər sosial sahələrdə böyük uğurlar əldə edilmişdir. Ulu Öndər Heydər Əliyev xalqın dəvəti ilə hakimiyyətə gələndən sonra ölkəmizdə sabitlik yaranmış, əmin-amanlıq bərpa edilmişdir. Heç şübhəsiz, nəinki Cənubi Qafqazda, keçmiş MDB dövlətləri arasında ən sağlam mühit Azərbaycanda yaradılmışdır. Torpaqlarımızın iyirmi faizinin işğal edilməsi bir çox beynəlxalq layihələrin həyata keçirilməsində çətinliklər yaratsa da, buna baxmayaraq, Heydər Əliyevin apardığı uğurlu siyasət nəticəsində Avropa ölkələrinin, İngiltərənin, İtaliyanın, Bolqarıstanın, Macarıstanın, Türkiyənin, Rusiyanın Azərbaycana maraqları əsaslı surətdə artmışdır. Çünki Ümummilli Lider Heydər Əliyev beynəlxalq layihələrdə iştirak edən hər bir ölkəyə əsaslı təminat vermişdir. Elə bu təminata və münbit şəraitə görə də Avropa ölkələrinin, eləcə də digər məmləkətlərin Azərbaycana maraqları daha da yüksəlmişdir.



Bakı-Ceyhan neft kəmərinin çəkilməsi, daha doğrusu, "Əsrin müqaviləsi"nin reallaşması Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiya olunmasına əsaslı şərait yaratdı. İngiltərənin məşhur "bp" şirkəti bu layihənin əsas iştirakçısı oldu. Azərbaycanla onlar arasında imzalanmış müqavilə zaman-zaman özünün bəhrəsini verdi. Hansı ki, bu müqavilə imzalananda xarici və daxili düşmənlərimiz düşünürdülər ki, bizim neft yataqlarından nəzərdə tutulduğu qədər məhsul istehsal edilməyəcək. Amma illər keçdikcə aparılmış birgə işlər göstərdi ki, Azərbaycanda çox böyük neft yataqları var və onlar 100 il bundan sonra da istismar edilsə belə neftimiz tükənməyəcək. Bununla yanaşı, yeni-yeni qaz yataqlarının kəşf edilməsi və orada istehsal sahələrinin qurulması ölkəmizin dünya iqtisadiyyatına daha sürətlə inteqrasiya olunmasına güclü təkan verdi. Dünya şöhrətli mütəxəssis, akademik Xoşbəxt Yusifzadə bildirmişdi ki, yeni neft və qaz yataqlarının kəşf edilməsi və istismara verilməsi ölkəmizin büdcəsinə milyardlarla dollar vəsait gətirəcək. Bəli, doğrudan da Xoşbəxt müəllimin verdiyi proqnoz çox çəkmədi ki, özünü doğrultmağa başladı. Azərbaycan neft və qaz istehsalında önəmli yerlərdən birini tutdu. İndi Azərbaycan nefti və qazı Avropaya ixrac olunur və onların digər ölkələrdən asılılığını azaldır. Azərbaycan neftinin və qazının yüksək keyfiyyətli olması əksər Avropa dövlətlərinin ölkəmizə marağını daha da artırıb. Yuxarıda adını çəkdiyimiz ölkələr bu məhsulları almaq üçün Azərbaycanla yeni-yeni müqavilələr imzalayıblar. Heç şübhəsiz, Azərbaycanın belə yüksək sürətlə inkişafına bəzi dövlətlər inanmazdılar. Amma tarix göstərdi ki, Azərbaycan kiçik ölkə olmasına baxmayaraq, dünya iqtisadiyyatında və siyasətində güc sahibidir. Heç kimə sirr deyil ki, bu gün Cənubi Qafqaz uğrunda dünyanın hegemon dövlətləri mübarizə aparırlar.

Çünki Cənubi Qafqaz strateji cəhətdən əlverişli regiondur. Bu regionun isə söz sahibi siyasi, iqtisadi və hərbi cəhətdən qüdrətli olan Azərbaycandır. Azərbaycanın razılığı olmadan heç bir Qərb dövləti Cənubi Qafqazda hegemonluq edə bilməz.

Bu gün Azərbaycanın sürətli inkişafı həm qonşularımızı, həm də bəzi Avropa ölkələrini çox narahat edir. Ən azından ona görə ki, bu gün Azərbaycanı İlham Əliyev kimi uzaqgörən və güclü bir siyasətçi idarə edir. Çünki İlham Əliyev müstəqil siyasət yürüdür və Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirir. Onun hakimiyyəti dövründə Azərbaycan siyasi, iqtisadi və hərbi cəhətdən daha da güclənib, dünyanın ən müasir texnologiyası və yenilikləri ölkəmizə gətirilib. Təbii ki, belə bir sağlam və münbit şəraitdə Azərbaycan dünya iqtisadiyyatına bir qədər də sürətlə inteqrasiya olunur. Eyni zamanda bu o deməkdir ki, ölkəmizdə yaşayan insanların həyat şəraiti günü-gündən yaxşılaşmaqla yanaşı, həm də dünyaya yeni bir pəncərə açılır. Bu pəncərədən dünya bizi görür. Dünya görür ki, Azərbaycan Avropanın ən inkişaf etmiş ölkələri səviyyəsinə yüksəlir və bu istiqamətdə inamla irəliləyir. Heç şübhəsiz, ökləmizdə mövcud olan ictimai-siyasi sabitlik və ərazi bütövlüyümüzün təmin edilməsi, bu istiqamətdə yeni addımların atılması ölkəmizin gələcəkdə daha güclü bir dövlətə çevrilməsinə əsaslı şərait yaradır. Qoy bu sürətli inkişafa görə dostlarımız sevinsin, düşmənlərimiz xar olsunlar!



**Bu gün dünyanın çox narahat anlarıdır desək, səhv etmərik. Çünki dünya üçüncü Cahan müharibəsi qarşısındadır. Dünyanı yenidən bölüşdürmək istəyən böyük ölkələr hər vəchlə bu müharibəni başlamaq istəyirlər. Ən təhlükəlisi odur ki, bu ocağı Cənubi Qafqazda yaratmağa çalışırlar. Bu müharibəyə Azərbaycanı, Rusiyanı və İranı cəlb etmək istəyirlər. Düşünürlər ki, bəlkə Ermənistanı bu yolla xilas etsinlər, ordan rus ordusunu çıxarsınlar, avropalıları gətirsinlər. Təbii ki, bunlar hamısı bir oyundur. Türkiyə, Azərbaycan və Rusiya dünya iqtisadiyyatına inteqrasiya olunmuş ölkələrdir və həmin adını çəkdiyimiz böyük dövlətlər heç vaxt Cənubi Qafqazda hegemonluq edə bilməyəcəklər. Çünki Cənubi Qafqazın öz sahibləri var!**

**Faiq QİSMƏTOĞLU**

**AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ**

# Müasir dünyada erkən nikahlar

## *Zorakılığın təzyiq və məcburetmə forması*



*Zakir Bayramlı,*
*Şair-publisist,*
*AYB və AJB-nin üzvü*

**Həmişə vaxtında və sağlam bünövrə üstündə qurulan hər bir ailə dövlətimizin və millətimizinn böyük sərvəti və parlaq gələcəyi hesab olunub. Lakin bəzən elə olur ki, biz bu sərvəti göz və bəbək kimi qorumaq əvəzinə onu dağıtmağa və gələcəyə olan işıqlı ümidlərini zəiflətməyə çalışırıq. Bütün bunların hamısı isə ictimai və dövləti maraqların səbəbindən deyil, şəxsi maraqlar üzündən başımıza gəlir.**

18 yaşı tamam olmayan yeniyetmələrin və ya gənclərin nikaha daxil olması erkən nikah və ya erkən evlilik hesab olunur. Haqq-ədalət və həyat həqiqətləri sübut edir ki, erkən nikaha daxil olanlar bir sıra ciddi problemlərlə üzləşirlər.Bunların bir qismi: erkən yaşda evlənənlərin fizioloji- psixoloji cəhətdən ailə qurmağa tam hazır olmamasını, yeni qurulmuş həmin ailələrdə hüquq bərabərliyinin ciddi şəkildə pozulmasını, müxtəlif zorakılıq hallarının geniş vüsət almasını, ana-uşaq ölümlərini və başqa fəsadları göstərmək olar.

Müasir dünyanın hüquqi prizmasından erkən nikah məsələsinə baxış demək olar ki, birmənalıdır. Beynəlxalq hüquqa görə, uşaqların erkən yaşlarında nikaha daxil olması insan hüquqlarının pozulması halı hesab olunur. Erkən nikah dedikdə respublikamızda yaşı 18-dən aşağı olan yeniyetmələrin və gənclərin nikaha daxil olması başa düşülür. Uşaqların hüquqlarının müdafiəsi məqsədilə qəbul edilmiş 1989-cu il tarixli Uşaq Hüquqları Konvensiyasına əsasən 18 yaş uşaqların nikaha girməsi üçün ən az aşağı yaş həddi sayılır.

"Save the Children" təşkilatının açıqladığı hesabatda göstərilir ki, dünya üzrə 700 milyon qız uşağı 18 yaşından tez məcburi qaydada evləndirilib. Təşkilatın qeydlərinə görə, uşaq yaşında olarkən müxtəlif təzyiq üsulları əsasında evləndirilən həmin qız uşaqlarının sayı get-gedə azalmaq əvəzinə ildən-ilə çoxalır. Təşkilatın verdiyi təxmini proqnozlara görə erkən nikahların miqdarı 2050-ci ildə 1 milyard 200 milyona qədər yüksələcəkdir. Dünya üzrə əldə edilmiş rəqəmlərlə müqayisədə Azərbaycanda erkən nikahlar azlıq təşkil etsə belə yenə də, uşaqların erkən yaşlarında nikaha daxil olması halları insan hüquqlarının pozulması cinayəti hesab olunur.

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi BMT Uşaq Fondu ilə birlikdə 2009-cu ildə "Erkən nikahlar: uşaq hüquqlarının pozulması" adlı sosial araşdırma aparmışdır. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, BMT- nin Əhali Fondunun (UNFPA) Azərbaycandakı nümayəndəliyi və Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsinin maddi və texniki dəstəyi vasitəsilə 2010-cu ildə respublikamızın rayonlarında olan şəhər və kənd yerlərində "Qızların erkən nikaha daxil olması və rəsmi və rəsmi nikahdan kənar doğum hallarının öyrənilməsinə dair" statistik müayinə keçirilmişdir. Aparılan təhlillər əsasında məlum olmuşdur ki, Azərbaycanda erkən nikahın qarşısının alınması sahəsində görülmüş tədbirlər, qanunvericilik aktlarında, siyasətdə və təcrübədə bir sıra təkmilləşdirmələrin aparılması, eləcə də, digər dəyişiliklərin və tövsiyələrin qəbul olunması öz səmərəsini vermişdir. Belə ki, 2011-ci ildə Azərbaycan Respublikası Ailə Məcəlləsində dəyişiklik edilərək qadınların nikaha daxil olması üçün minimum yaş həddi 17-dən 18 -ə qaldırılmışdır.

Azərbaycan respublikasının qanunvericiliyində kişi və qadınlar üçün nikah yaşı 18 yaş müəyyən edilmişdir. Lakin müvafiq icra hakimiyyəti orqanları müstəsna hallarda üzürlü səbəblər olduqda nikaha daxil olan gənclərin valideynlərinin rəsmi razılığına əsasən nikah yaşını bir il azaltmaq səlahiyyətinə malikdirlər.

Ölkəmizdə 17 yaşında rəsmi nikah qeydiyyatına alınmış erkən nikahların sayı Dövlət Statistika Komitəsinin rəsmi məlumatına əsasən belə olmuşdur: Şəmkir rayonunda 18 nəfər, Ağcəbədi rayonunda 17 nəfər, Sabirabad rayonunda 15 nəfər, Yevlax rayonunda 14 nəfər, Bakı şəhərində 13 nəfər, Ağdaş rayonunda 11 nəfər, Samux rayonunda 10 nəfər, Gəncə şəhəri və Tovuz rayonunun hər birində 9 nəfər, Qobustan rayonunda 8 nəfər, Quba rayonunda 7 nəfər, Abşeron, Ağdam, Bərdə, Şabran, Zərdab və Şəki rayonlarının hər birində 6 nəfər, Naxçıvan Muxtar Respublikasında və Goranboy, Göygöl, Ağstafa, Saatlı və Hacıqabul rayonlarının hər birində 5 nəfər, Füzuli, Tərtər, Lənkəran, Masallı, Yardımlı rayonlarının və Mingəçevir şəhərinin hər birində 4 nəfər , İsmayıllı, Siyəzən və Kəlbəcər rayonlarının hər birində 3 nəfər, Şamaxı, Daşkəsən, Xocavənd, Şuşa, Gədəbəy, Xaçmaz, Laçın rayonlarının və Şirvan şəhərinin hər birində 2 nəfər, Sumqayıt şəhəri, Qazax, Kürdəmir, Ucar, Beyləqan, İmişli, Balakən, Oğuz, Zaqatala, Cəbrayıl, Qubadlı, Neftçala və Biləsuvar rayonlarının hər birində 1 nəfər 17 yaşında rəsmi olaraq erkən nikah qeydiyyatına düşmüşlər.

Əvvəlki illərdə çox valideynlər, onların yeniyetmə və gənc övladları erkən nikahların yaratdığı fəsadlardan xəbərsiz idilər. Bu vaxta kimi onlar erkən nikahın nə qədər qorxulu və təhlükəli, olduqca riskli bir iş olduğunu lazımı səviyyədə dərk etməmişdilər. Ona görə də mən sadə formada yeniyetmə və gənclərimizə, onların valideynlərinə erkən bağlanan nikahların zərəri haqqında qısa da olsa açıqlama vermək istəyirəm:



1. Erkən nikahlar hər şeydən öncə qızların təhsilini yarımçıq qoyur. Və onların nadan və təcrübəsizliyi üzündən bir illik uşaqlıq dövrünü onların əlindən zorakılıqla alır.

2.Valideynlər tərəfindən qızların erkən nikaha məcbur edilməsi qızların cəmiyyətdə fiziki və zehni cəhətdən kamil şəxsiyyət kimi yetişməsinin qarşısana birdəfəlik hündür və qalın sədd çəkir.

3.Atalar və analar qızlarının hüquqlarını kobud şəkildə pozaraq onların istədiyi sənətə və peşəyə yiyələnmək hüquqlarını onların əlindən alırlar.

4.Uşaqlıq və yeniyetməlik dövrünü tam başa çatdırmamış qız uşaqları erkən ailə qursalar da onların orqanizmi həmin yaşda ərə getmək üçün hələ bərkiməmiş hesab edilir. Orqanizmin tam formalaşmamış yeniyetmənin hamilə olması da işi daha da çətinləşdirir. Gənc qadınlar hərtərəfli sağlam olsalar belə onların istər hamiləlik vaxtı, istər doğuş zamanı, istərsə də uşaq anadan olandan sonrakı dövrdə səhhətində müxtəlif ciddi problemlər yaranır.

5.Mütəxəssislərin açıqlamalarına əsasən erkən nikahlar zamanı uşağın doğulması yeniyetmə və gənc ananın, eləcə də yeni doğulan körpənin ölüm hadisəsinin baş vermə ehtimalını çox yüksək dərəcədə artırır.

6.Yuxarıda göstərilən bütün mənfi amillərin baş vermə səbəbi erkən nikaha girmiş yeniyetmələrin və ya gənclərin fizioloji cəhətdən hələ tam yetişməməsidir.

7.Yeniyetmə və ya gənc anada doğuşdan sonra müxtəlif növ xəstəliklərin baş vermə riski daha çox olur. Tədqiqatçıların rəyinə görə, 18 yaşdan kiçik hamilə qalan qadınların 35-55%-i dünyaya yarımçıq uşaqlar və ya kifayət qədər çəkisi olmayan uşaqlar gətirmə riskinə malikdirlər.Bu acınacaqlı hal isə 19 yaşlı gənc analara nisbətən 17 yaşda olan şəxslər üçün daha yüksək faizdir.

8. Tibb işçilərinin araşdırmasına görə 18 yaşdan aşağı erkən ailə quranlar arasında istər hamilə və doğuş vaxtı, istərsə də uşaq doğulduqdan sonra uşaq ölümü halları 60%-ə qədər yüksəlir. Erkən nikah təkcə gənc ananın deyil, həmçinin körpənin də sağlamlığını təhlükə altına alır.

9.Uşaq yaşlarında, yəni 18 yaşından əvvəl yeni bir ailəyə, evə köçməzdən əvvəl gənc qızlar yeni qurulmuş həyata psixoloji cəhətdən hələ tam hazır olmurlar. Bu səbəbdən də onlarda bir sıra psixoloji problemlər əmələ gəlir. Yeni meydana çıxmış bu problemli vəziyyət gənc qadınlar arasında müxtəlif psixoloji hallara, o cümlədən ağır depressiya vəziyyətinə, ürəkgetməsinə, öz-özünə qəst etməyə, eləcə də, müxtəlif intihar cəhdinə yol aça bilər. Ona görə də erkən nikaha girmiş qızlar özlərinin, həmçinin dünyaya gətirəcəkləri körpələrin sağlamlığını bütün cidd-cəhdlə qorumağa borcludurlar.

Son araşdırmalar sübut edir ki, erkən nikahlarla bağlı yeniyetmələr və gənclər arasında vaxtaşırı aparılan yüksək səviyyəli maarifləndirici tədbirlər müəyyən dərəcədə öz faydasını verə bilir. İndi nəinki gənc qızlar , hətta azyaşlı oğlanlar da erkən nikahın gələcəkdə bir sıra fəsadlar yaradacağını açıq-aydın dərk edir və görürlər.

Əldə edilən müsbət nəticələr cəmiyyətimizin bütün sahələrində təbliğat işinin və maarifləndirmənin təşkilatçılıq səviyyəsindən də aslı olacaqdır. Tədricən valideynlər və erkən nigaha məcbur edilən qızlar baş verə biləcək ciddi problemləri öyrəndikdən və təhlil etdikdən sonra düşünülmüş qaydada erkən nikah kimi belə bir qorxulu və təhlükəli addımı atmaqdan gec-tez çəkinəcəklər. Ömər Xəyyamın belə bir kəlamı var: "Dərilən gül verilməli, yazılan şeir sonlanmalı, sevilən qadınsa xoşbəxt olmalıdır. Yoxsa altından qalxa bilməyəcəyin işə baş qoşmamalısan". Ona görə də ata-anaların gənc övladları ailə qurarkən tələm-tələsikliyə, təzyiq və məcburetmə hallarına yol verməməlidirlər. Onlar emosional hisslərlə, şəxsi istəklərlə və arzularla yox, cəmiyyətimizin qayda-qanunlarına, əxlaq normalarına, eləcə də xalqımızın milli dəyərləri olan və hamı tərəfindən bəyənilmiş adət və ənənələrinə ciddi riayyət etməklə evlənməlidirlər. Həyat həqiqətləri göstərir ki, erkən nikahlarda xoşbəxtlik çox nadir hallarda uğur qazana bilir.Həqiqi sevgi olmadan gizli və şəxsi maraqlar eşqilə,cütlüyün böyük yaş fərqilə və ata-ana təzyiqinə əsasən zorla bağlanan belə nikahlar ailə adlı qpuma dəhşət yaşadır. Belə ailələrdə həmişə hərc-mərclik, dava-dalaş, zorakılıq, köləlik, ailənin təkbaşına idarə olunması prinsipi hökm sürür. Burada əsl sevgi-məhəbbətdən, hörmət-izzətdən, bir-birinə güzəştə getməkdən söhbət belə gedə bilməz.

**Azərbaycan xalqının neçə-neçə əsrlərin sınağından çıxmış gözəl bir atalar sözü var: "İnsan özü-özünə eləyəni el yığılsa eləyə bilməz"! Məhz bu səbəbdən bütün ata və analar, gənclərimiz, xüsusilə qızlarımız erkən nikahlara "yox" deməli, özlərinə keçmişdən deyil, müasirlikdən, yenilikdən və dünyanın hər gün təzələnən ən gözəl təcrübəsindən qaynaqlanan, əxlaq və qanunlarımıza və ən zəngin adət-ənənələrimizlə səsləşən xoşbəxt ailə həyatı qurmalıdırlar.**

## *Kitabxanada görüş*



**Boyat kənd kitabxanası Ağcəbədi rayonunda qabaqcıl kitabxanalardan biridir. Burada təcrübəli mədəniyyət işçisi, müdir Təhminə Quliyevanın başçılığı ilə işlər zamanının tələblərinə uyğun şəkildə qurulur. Zəngin kitab ehtiyatına malik olan kitabxanada müntəzəm olaraq sərgi və görüşlər, eləcə də oxuculara kitabı sevdirmək və onu qiymətləndirmək kimi tədbirlər keçirilir. Şəhid ailələri, qazilər, həm də kənd məktəbinin şagird və müəllim kollektivi ilə keçirilən görüş-tədbirlər gənclərdə Vətənə, Torpağa sevgini daha da gücləndirir, vətənpərvərlik hisslərinin yüksəldilməsində böyük rol oynayır.**

...Bu günlərdə ziyalı, el ağsaqqalı Eldar Əhmədov böyük Məhəmməd Füzulinin ana yurdu, Ağcabədinin Boyat kəndində dahi şairimizin abidə büstünü ziyarət edib. E. Əhmədov kənd kitabxanasının müdiri Təhminə Quliyevaya çox sayda kitab və həvəskar rəssam-xarrat Kərim Cəfərovun böyük həvəslə yaratdığı Füzulinin portretini hədiyyə edib. T. Quliyeva ağsaqqal Eldar Əhmədova bu xeyirxah və xoşməramlı işinə görə təşəkkür edib, ona sağlamlıq və yaradıcılıq uğurları arzulayıb.

**Adil Misirli,**
**Qarabağ üzrə bölgə müxbiri**

## *Kim Çen Inın bacısı dünyanın ən təhlükəli qadını adlandırılıb*



**ABŞ və digər ölkələr Şimali Koreya İşçi Partiyasının Mərkəzi Komitəsinin departament rəhbərinin müavini, Şimali Koreya lideri Kim Çen Inın bacısı Kim Yo Çjonu layiqincə qiymətləndirməlidirlər.**

Şimali Koreya üzrə ekspert Sun Yun Linin dediyinə görə, ona son dərəcə ciddi yanaşmaq lazımdır. "Kim Yo Cjon bu günkü gündə həqiqətən də Koreya tarixi boyunca və bəlkə də bütün dünya tarixində dünyanın ən təhlükəli qadınıdır.

Onun nisbətən gənc olduğuna baxmayaraq - sentyabrın sonunda 36 yaşı tamam olur - ona çox ciddi yanaşmaq lazımdır", - deyə ekspert izah bildirib.

O əlavə edib ki, Kim Yo Cjon xüsusilə narahatlıq doğurur, çünki o, Kim Çen Inla birlikdə Şimali Koreyanın nüvə arsenalı üzərində gücə malikdir.

Sun Yun Li vurğulayıb ki, KXDR liderinin bacısı iddialı, ağıllı və amansızdır.

"Kim Yo Cjon öz ölkəsinin iyerarxiyasında unikal nüfuzlu mövqe tutur", - deyə ekspert yekunlaşdırıb.

# AŞIQLAR VƏTƏN MÜHARİBƏSİNDƏ QƏLƏBƏMİZİ TƏRƏNNÜM EDİR



**Heç kimə sirr deyil ki, hər bir müharibədə sözün, musiqinin, aşıq sənətinin və ifaçıların öz yeri olub. Hətta 1941-45-ci illər - Böyük Vətən müharibəsində sənət adamları, şairlər, yazıçılar, aşıqlar, müğənnilər cəbhədə, səngərdə olub və əsgərləri döyüşə ruhlandırıblar. II Qarabağ savaşında da, daha doğrusu, 44 günlük möhtəşəm döyüşdə də qələbənin əldə edilməsində Ali Baş Komandan Prezident İlham Əliyevlə və Azərbaycan əsgəri ilə yanaşı, aşıqlarımızın da bu uğurun qazanılmasında, onların qəhrəmanlığını tərənnüm etməsi önəmli əhəmiyyət kəsb edir.**



Mən 44 gün cəbhə bölgəsində oldum, o döyüçlərdə iştirak etdim. Hər həftə Azərbaycan televiziyasının Mədəniyyət kanalında Aşıqlar Birliyinin sədri, Əməkdar elm xadimi, professor Məhərrəm Qasımlının aşıqlarla bağlı maraqlı verilişi efirə gedirdi. Füzulidə şəhid anaları əsgər anaları bu verilişi çox maraqla izləyirdi. Çünki o proqramda aşıqlarımız əsgərlərimizi döyüşə ruhlandıran mahnılar səsləndirirdi. Bu mənada "Bayrağım", "Ordumuz", "Turan marşı", "Ovşarı", "Üvertüra", "Qəhrəman" və digər səsləndirilən aşıq havaları Azərbaycan əsgərində bir coşqu yaradırdı. Bu günlərdə Aşıqlar Birliyində Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə köməkliyi ilə hazırlanmış "Aşıqlar Vətən müharibəsində qələbəni tərənnüm edir!" adlı audiodiskin təqdimatı keçiriilib. Tədbiri giriş sözü ilə Azərbaycan Aşıqlar Birliyinin sədri, Əməkdar elm xadimi, professor Məhərrəm Qasımlı açaraq, rəhbər olduğu layihənin həyata keçirilməsinin əhəmiyyətindən danışıb. Layihənin koordinatoru, Azərbaycan Aşıqlar Birliyinin katibi, Əməkdar mədəniyyət işçisi Musa Nəbioğlu layihə çərşivəsində görülən işlər barəsində məlumat verib.

Üç ay ərzində həyata keçirilən layihədə aşıqların 44 günlük II Qarabağ müharibəsində müzəffər Azərbaycan Ordusunun əldə etdiyi qələbəni tərənnüm edən ifalardan ibarət audiodisk hazırlanıb. Burada Əməkdar mədəniyyət işçiləri Ağamurad Şirvanlı və Samirə Əliyeva ilə yanaşı, aşıqlardan Qələndər Zeynalov, Nazim Quliyev, Nəbi Nağıyev, Altay Məmmədli, Kəmalə Qubadlı, Roman Azaflı və digərlərinin, eləcə də "Çeşmə" və "Misri" qruplarının ifalarında II Qarabağ müharibəsindəki möhtəşəm qələbəmizi tərənnüm edən, Ordumuzu yeni uğurlara səsləyən aşıq mahnıları təqdim olunur. Ümumilikdə,



audiodiskdə müxtəlif aşıq havalarından ibarət olan musiqilər bir daha həmin maraqlı tədbirdə adını çəkdiyimiz ayrı-ayrı aşıqlar tərəfindən yenidən səsləndirilib. Bu da tədbir iştirakçılarında xoş ovqat yaradıb, saza və sözə olan məhəbbəti bir qədər də artırıb.

Bu möhtəşəm tədbirdə professor Məhərrəm Qasımlı və Əməkdar mədəniyyət işçisi Musa Nəbioğlu ilə yanaşı, Əməkdar mədəniyyət işçisi aşıq Samirə Əliyeva, Azərbaycan Respublikasının Qeyri-Hökumət Dövlət Dəstəyi Agentliyinin əməkdaşı Nilufər Əhmədova, Əməkdar jurnalist Faiq Qismətoğlu da çıxış ediblər. Onlar qeyd ediblər ki, belə layihələrin davam etməsi dövlətçiliyimizin və eləcə də aşıq sənətinin təbliğində və tərənnümündə önəmli yer tutur.



**Bu gün aşıq sənətinə, aşıq havasına və onun təbliğinə çox böyük ehtiyac var. Ona görə də adını çəkdiyimiz layihə çox unikaldır və onun davamlı olmağını arzulayırıq!**

**EMİL FAİQOĞLU**

## NASA-dan yadplanetlilərlə bağlı açıqlama



**ABŞ Aeronavtika və Kosmos Agentliyi (NASA) ABŞ-ın paytaxtı Vaşinqtonda təşkil edilən paneldə daha əvvəl Naməlum Uçan Cisim kimi tanınan Naməlum Hava Fenomeni ilə bağlı yeni hesabat açıqlayıb.**

Adalet.az xarici mənəbəyə istinadən xəbər verir ki, paneldə çıxış edən NASA prezidenti Bill Nelson, Meksika parlamentində sərgilənən və yadplanetliyə aid olduğunu iddia edən mumiya şəkilləri ilə bağlı sualı belə cavablandırıb: "Mən də sizin kimi sosial mediada izlədim və əlimizdə şəkillərdən başqa məlumat yoxdur".

Hesabatda NASA-nın kosmos araşdırmaları mövzusunda tamamilə şəffaf olduğu və yalnız elmi məlumatlara əsaslanan məlumatları paylaşacağı bildirilib. Bu günə qədər elmi olaraq izah edilən heç bir "sirli göy cismi"nin olmadığı açıqlanıb. Nelson açılış nitqində "Biz keçmiş və indiki həyat əlamətlərini axtarırıq və araşdırmaq, hadisələrin necə yarandığını soruşmaq bizim qanımızda var" deyib.

**Emin**

## Aparıcı: "Bir ömür qaysaq tutmayan yaram..."



**Aparıcı Vüsalə Əlizadə paylaşımı ilə izləyicilərini kədərləndirib.**

Adalet.az xəbər verir ki, aparıcı instagram hesabında mərhum qardaşının şəklini paylaşaraq, doğum günü təbriki yazıb:

"Bir ömür qaysaq tutmayan yaram,doya-doya boynuna sarıla bilmediyim,kölgəsində güvənlə gəzə bilmədiyim,qardaş deyəndə çatlayan dodağım,ürəyimin sızıltısı,yanğısı,torpaq payı qardasım Mələklərlə qeyd etdiyin daha bir ad günün mübarək. Can parçam,gözümün içinə həkk olan qəm dağım,bir ömürlük həsrətim,intizarım,torpağda böyüyənim."

Qeyd edək ki, V.Əlizadənin qardaşı Əlihüseyin Əlizadə avtomobil qəzasında vəfat etmişdi. O, Dövlət Sərhəd Xidmətinin zabiti idi.

## Aktyor direktoru təhqir etdi: "Kişi deyil"

**Aktyor Kamran Ağabalayev facebookda paylaşımı ilə diqqət çəkib.**

Adalet.az xəbər verir ki, aktyorun , İrəvan Dövlət Azərbaycan Dram Teatrının direktoru İftixar Piriyevlə bağlı statusu sosial şəbəkədə müzakirəyə səbəb olub. K.Ağabalayev direktoru kəskin şəkildə tənqid edib: "Tanımıram kimdir İftixar,deyəsən aktyordur və ya teatr direktorudur. Nə bilim incəsənət xadimidir nədir,bilmirəm. Amma onu bilirəm ki, kişi deyil. Birdən əksini falan sübut etmək istəsə,nömrəm bəlli,ünvanım bəlli!

**Əntiqə**

## Azərbaycan millisi Niderlandı darmadağın etdi

**Futzal üzrə Azərbaycan millisi DÇ-2024-ün elit-raund mərhələsində ilk ev oyununa çıxıb.**

Qol.az xəbər verir ki, futzalçılarımız Niderland yığması ilə qarşılaşıb. Bakı İdman Sarayında keçiriləcək oyun Vitali Borisovun rəhbərlik etdiyi kollektivin 6:1 hesablıqələbəsi ilə başa çatıb.

**Qeyd edək ki, turnir cədvəlində Qazaxıstan 6 xalla liderdir. Rumıniya 3 xalla 2-ci,eyni xalı olan Azərbaycan isə 3-cüdür. Aktivinə xal yazdırmağı bacarmayan Niderland sonuncudur.**

# Xanlar Səfərəliyev yaxşı kişidi, yoxsa Pyotr Montin?

## yaxud Bakıda adına onlarla obyekt olan Montin kim olub?

**Nə vaxtsa qəzetlərin birində tanınmış jurnalist Faiq Şükürbəylinin "Bir mahnı haqqına" başlıqlı kiçik bir məqaləsini oxumuşdum. Müəllif tanınmış bəstəkar Bəhram Nəsibovun təhrifə məruz qalan "Qarabağ" mahnısından söz açaraq bildirirdi ki, mahnının əsl sözləri qalıb bir tərəfdə, yad-yabançı ifadələr efirlərə yol tapır. Bu mahnıda "Əməyi güllər açan Xanları, Bünyadı var" misrası "Sərdarı, Bünyadı var" kimi ifa olunur. "Bu isə böyük yanlışlıqdır. Ona görə ki, Sərdar-Bünyad, hər ikisi eyni şəxsdir. Onun adı Bünyad, soyadı Sərdarovdur. Mahnıdan Xanların adının çıxarılması təəssüf doğurur ".**

Müəllif burada paralellik aparaq bildirirdi ki, Pyotr Montin də inqilabçı idi. Hazırda Montinin adına Nərimanov rayonunda kafe, çayxana, əyləncə mərkəzi, restoran və s. fəaliyyətdə olduğu halda, Xanlar Səfərəliyevin adı hər yerdən, hətta mahnıdan da silinir. Halbuki vaxtı ilə Azərbaycanda Xanların adına iki rayon, qəsəbə, küçə, məktəb, klub, mədəniyyət evi və s. mövcud idi. Müəllif burada belə bir sual verir: Montin yaxşı kişidi, yoxsa Xanlar Səfərəliyev?

Əvvəla, Xanlar haqqında bir neçə kəlmə. ASE-də yazılır: Səfərəliyev Xanlar Həsən oğlu (1885, indiki Füzuli rayonunun Qoçəhmədli kəndi-26.09. 1907, Bakı.-fəhlə-bolşevik, mübariz inqilabçı. 1904-cü ildən RSDFP üzvü. İbtidai təhsilini kənd məktəbində almış, sonra Bakıya köçmüş, Bibiheybət neft mədənlərində, "Naftalan şirkəti" zavodunda işləmişdir. Bakı proletariatının 1904-cü il dekabr tətilinin təşkilatçılarından olmuşdur. Birinci rus inqilabı (1905-1907) dövründə Səfərəliyev RSDFP Bakı təşkilatı Bibiheybət rayon komitəsinin və bolşevik "Hümmət" təşkilatı İcraiyyə Bürosunun üzvü kimi fəhlələr arasında təşviqat və təşkilat işi aparmış, tətil hərəkatına başçılıq etmiş, bolşevik qəzet və vərəqələrinin yayılmasında fəallıq göstərmişdir. 1907-ci ilin payızında "Naftalan şirkəti" fəhlələrinin tətilinə rəhbərlik etmişdir. Səfərəliyevin yorulmaz inqilabi fəaliyyəti neft sənayesi sahiblərini hiddətləndirirdi.

Onların təhriki ilə Səfərəliyev xaincəsinə öldürülmüşdür. Səfərəliyevin dəfni Bibiheybət partiya komitəsinin çağırışı ilə Bakı proletariatının ikigünlük izdihamlı siyasi tətilinə çevrildi. Sentyabrın 29-da Şıx kəndi (sonralar Xanlar qəsəbəsi) qəbiristanında düzəldilən matəm mitinqində İ. V. Stalin, M. Ə. Əzizbəyov, S. M. Əfəndiyev və b. nitq söylədilər. Səfərəliyevin adına Azərbaycanda rayon, Bakıda qəsəbə, küçə və s. var. Qəbirüstü büstü qoyulmuşdur. Səməd Vurğunun "Xanlar" pyesi Səfərəliyevin inqilabi fəaliyyətinə həsr olunmuşdur.

Bəs Pyotr Montin kimdir?

Pyotr Vüsilyeviç Montin 1882-ci ildə Tiflis quberniyasının Ağbulaq kəndində doğulub. 19.12.1905. Bakı). 1900-cu ildən Komm.Partiyasının üzvü, peşəkar inqilabçı idi. Gizli siyasi dərnəklərdə iştirak etdiyi üçün 1902-ci ildə həbs edilmiş , 1903-cü ildə həbsdən azad olub Bakıya gəlmişdir. Burada partiya işi aparmış, ümumsiyasi tətillərin təşkilində fəaliyyət göstrmişdir. RSDFP Bakı Komitəsinin tərkibinə daxil edilmişdir. Ağşəhər, Bibiheybət rayonlarında Bakı partiya təşkilatının birləşmiş icraiyyə komissiyasına daxil olmuş, RSDFP Qafqaz ittifaqının 4-cü konfransında iştirak etmiş, silahlı üsyan hazırlanması və ona rəhbərlik edən Qafqaz bürosuna üzv seçilmişdir. 1905-ci ilin dekabrında Bakı bolşeviklərindən RSDFP-nin Tammerfors konfransına nümayəndə seçilən Montin yola düşən gün öldürülmüşdür.. Bakıda Montin adına zavod, küçə, park (burada abidəsi qoyulmuşdur)

Bəzi mənbələrdə isə bildirilir ki, Pyotr Montin fəaliyyəti dövründə milliyyətini gizlətmiş, erməni olduğunu bildirməmişdir. Onun soyadı Montin deyil, Montiyan olmuşdur.

Bu barədə tarixçi Araz Vəliyevin internet saytında yazdığı fikirləri də maraqlıdır. O yazır ki, Pyotr Montin də bizim xalqımıza qan udduran boleşviklərdən biri olub. Onu hər hansı yolla təbliğ etmək yolverilməzdir. Sovet dövründə hətta onun şərəfinə qəsəbə də saldılar. Deməli, bolevizmin təbliğində, azərbaycançılığa qarşı siyasətdə onun kifayət qədər əməyi olub ki, adı əbədiləşdirilib. Onun törətdiyi əməllər haqqında məlumat almaq üçün N.Nərimanovun yazılarını oxumaq bəs edər". Məlumata görə, hətta Pyotr Montinin əsl soyadı Montiyan olub. Bakıda Şirvanşahlar dövründən yaşayan ailəyə məxsus çaxır-likör fabrikantının ailəsində doğulan və həddindən ziyadə varlı yaşayan Pyotr Montyan tez-tez həbsxanalara düşüb. Bu səbəbdən də onun hərbi rütbəsinin olması şübhə doğurur. Montiyanın erməni terrorçusu Tatevos Amirovla birlikdə varlı müsəlman ailələrini soymaqla məşğul olduğu barədə də məlumatlar mövcuddur. Deyilənə görə, onlar varlı müsəlman ailələrin övladlarını oğurlayaraq, əvəzində pul tələb edirmişlər.

**Bolşevik qruplaşmasının üzvü olmuş P.Montiyan öz yoldaşları tərəfindən öldürülüb. Onu Qəzənfər Musabəyovun dəstəyi ilə Lavrenti Beriya vurub. Maraqlıdır ki, Bakıda onun abidəsini də məhz Qəzənfər Musabəyov açıb. Həmin vaxt Qəzənfər Musabəyov Mərkəzi İcraiyyə Komitəsinin sədri olub.**

**Elman Qasımov,**
**"Zərdabi Nəşr" MMC-nin direktoru**

# Şeyx Əbdüldən Rasim Balayevə: «Onsuz da hər gün üç litr su içirəm...»

**"Mən onu müsahibəsindən sonra müdafiə elədim. Kino mühitində hər kəs bilir kimkimdi. Onu artist kimi, məni isə ağsaqqal, söz sahibi kimi tanıyırlar. Bunlar nəfslərinə qul oldular və çaşdılar. Rüstəm İbrahimbəyovdan da istifadə etdilər. Amma hansı ki, Rüstəm İbrahimbəyov o vaxt bunların hamısını qovmuşdu"**



Bunu Adalet.az-a açıqlamasında Xalq artisti Şeyx Əbdül Mahmudbəyov deyib.

Şeyx Əbdül haqqında danışan aktyor Rasim Balayevə belə cavab verib:

"Sonradan ittifaq söhbətin ortalığa atdılar və mən kinonun maraqlarını müdafiə etməyə başladım.

Çünki bu haqda danışan yoxdu. Mən bunların məqsədin, içində bilirəm. Uzun mübarizədən sonra o iki ittifaqın fəaliyyətini rəsmi dayandırdıq. Orda bunun mənim təşəbbüsümlə olduğu da qeyd olundu. Olmayan kinonun iki ittifaqı ola və dövlətdən pul ala bilməz. İnşallah qurultay da keçiriləcək.

"Nizami" Kinoteatrında dedim ki, hörmətli Şəfiqə xanım, sizinlə 1962-ci ildə bir yerdə institutda bir yerdə oxumuşuq. Rasim müəllim, ilk dəfə kinonun qapısını üzünə mən açmışam, sonrakı fəaliyyətində bilavasitə iştirakım olub və mənim üç filmimdə baş rol oynamısan. Mən dostluqda da yerimdəyəm, yeganə mübarizəm odur ki, kinonun içində təsadüfi deyil, kinonun içində olan adamlar olmalıdır. Siz Azərbaycan kino cameəsin parçalamışdınız, ağlara-qırmızılara bölmüşdünüz. Mən bunun mübarizəsini edirəm. Biz çəkib sizi məşhur edib, aləmə tanıdırıq, amma bizləri heç kim tanımır. Adamın insafı olar. Rasim müəllim, haqqımda nə deyibsə çox sağ olsun. Onsuz da həkim məsləhəti ilə hər gün üç litr su içirəm. Həmin şeyi ona da məsləhət görürəm və qurtum-qurtum oturaq vəziyyətdə içsin. Su xeyrdi. Mən belə sözlərdən incimirəm".

Qeyd edək ki, Azərbaycan Kinematoqrafçılar İttifaqının sədri, Xalq artisti Rasim Balayev Xalq artisti, kinorejissor Əbdül Mahmudbəyovun (Şeyx Əbdül) Baku TV-də yayımlanan "Qapqara" verilişində onun barəsində səsləndirdiyi fikirlərə münasibət bildirib.

R.Balayev Ə.Mahmudbəyovun ondan inciməsi, küsülü olmaları barədə dediklərinə belə reaksiya verib: "İnciyib? Getsin su içsin..."

**R.Balayev Ə.Mahmudbəyovun onun kinoya gəlişində xüsusi rol oynaması barədə dediklərinə isə - "heç nə demək istəmirəm", - deyə cavab verib.**

**Vasif Əlihüseyn**

*Ələsgər ƏLİOĞLU*



# HEKAYƏLƏR

### HƏRBİ QƏNİMƏTLƏR PARKINDA

Turqut babası ilə Hərbi Qənimətlər Pakına gəlmişdi. O, buradakı pulemyotlara, minamyotlara, tanklara, toplara, bir sözlə, bütün hərbi sursatlara çox maraqla tamaşa edirdi. Birdən o, babasına dedi:

-Baba, bu tanklardan birini mənə alarsan?

Baba gülümsəyə-gülümsəyə dilləndi:

-Əziz balam, bunların hamısı alınıb!

-Kim alıb ki, ay baba?

-İgid oğullarımız!

-Görəsən nə qədər pulla alıblar, ay baba?

-Pulla almayıblar, bala! Qanla alıblar,qanla! Sən də böyüyəndə əsgər gedərsən. Onda lazım gələrsə, tank da alarsan, lap top da!..

-Turqut şəstlə səsləndi:

-Alaram, baba, alaram! Lap hamısından da alaram!

### CƏBHƏDƏ QALAN ƏL

Cəbhədə sağ qolunu itirən Əzəmət ordudan tərxis olunduqdan sonra evə döndü. İlk görüşüb-öpüşdüyü də üç yaşlı qızı Dəniz oldu.Tezliklə qohum-qonşular da yığışıb onun görüşünə gəldilər...

Günlərin birində Dəniz atasından soruşdu:

-Ata, niyə məni bir əlinlə qucaqlayırsan?Axı həmişə ikiəlli qucaqlayardın... Bəs o biri əlin hanı? Belə heç xoşuma gəlmir...

Əzəmət kövrəlsə də özünü bir təhər ələ alıb qızına cavab verdi:

- O biri əlim cəbhədədir, qızım!..

-Niyə cəbhədə qoyub gəlmisən?

-Düşmənlərə qarşı döyüşür...

-Bəs haçan gələcək?

-Müharibə qurtaranda!..

Dəniz hər gün arzulayırdı ki, müharibə tez qurtarsın və atası da onu hər gün cütəlli qucaqlasın!..

### ƏYRİ HÖRÜLƏN KUBİK

Mahir taxta kubiklərini döşəməyə töküb ikimərtəbəli bir ev tikdi. Bunu görən nənəsi onu həvəsləndirməyə başladı:

-Əhsən, mənim balam! Qəşəng ev tikmisən.Çox xoşuma gəldi. Amma birinci mərtəbənin aşağısındakı kubiklərdən birini əyri hörmüsən, onu düzəlt.

Mahir nənə deyən sözlərə məhəl qoymadı. Bayaqdan evdə vargəl eləyən məstan bir azdan oğlan tikən evin böyründən keçərkən quyruğu ilə barıya toxundu... Mahirin tikmiş olduğu evin kubikləri uçub töküldü...

### MÜQƏVVA DÜŞMƏN

Turqutla Aqil oyuncaq avtomatlarını götürüb həyətdə "dava-dava" oynamaq istədilər.Turqut dedi;

-Aqil, sən düşmən ol, döyüşə başlayaq.

Aqil razılaşmadı:

-Yox,sən düşmən ol...

Uşaqlar beləcə bir xeyli cəhliləşdilər.Heç biri düşmən olmaq istəmirdi.Onların cəhli çəkdiklərini görən baba yaxınlaşıb işdən halı olduqdan sonra gülümsəyə-gülümsəyə dilləndi:

-Bir az gözləyin, mən indi sizə düşmən taparam.

Baba bostana girdi və bir azdan geri döndü. O,ötən yazdan yerə sancdığı müqəvvanı əlində tutmuşdu:

-Buyurun, bu da sizin üçün düşmən!.. İndi nə qədər istəyirsiniz döyüşün...

Uşaqlar növbəylə müqəvvaya atəş açmağa başladılar...

### ARMUD AĞACINDA BƏNÖVŞƏ

Artıq yazın hənirtisi hiss olunurdu. Ağacların yarpaqları puçurundan yeni-yeni çıxmaqdaydı. Baba ilə Turqut kəndin üst tərəfindəki təpəlikdə bir qədər gəzib-dolandıqdan sonra evə qayıdırdılar. Turqut gah babasından qabağa keçir, gah arxada qalır, gah da sola-sağa burulurdu. Birdən o, sevincək halda yolun kənarındakı cır armud ağacını göstərib üzünü babasına tutdu :

-Baba, baba, armud ağacında bənövşə açıb!..

Baba əvvəlcə Turqutun bu sözlərinə məhəl qoymaq istəmədi, lakin uşağın inadkarlığı onun ayağından geri çəkdi... Doğrudan da ağacın alt gövdəsinə yaxın yerləşən oyuqda bir bənövşə vardı...

Turqut babasından soruşdu:

-Baba, armud ağacı bənövşə açarmı ki?..

Baba zəndlə ağacı gözdən keçirib gülümsəyə-gülümsəyə sözə başladı:

-Turqut, inişilki tufan yadındadırmı, bu cır armudun budağını düz dibindən- alt gövdəsindən qopartmışdı... Görürsənmi, həmin yerdə də bir oyuq əmələ gəlib... Külək əsdikcə oyuğun içi toz-torpaqla dolub... Elə bənövşə də küləyin işidir. Görünür külək bənövşənin toxumunu da toz-torpağın içində bura atıbmış...

Turqut: -Baba, bənövşəni dərimmi?.. Sabah məktəbimizdə döyüşçülərlə görüş var, onlara apararam,-dedi.

Babanın üzünü təbəssüm bürüdü. O, başını tərpətməklə öz razılığını bildirdi.

## Ceyran Haşımova: "Nisə Qasımova nankordur"



**Xalq artisti Ceyran Haşımova "Xoş gəldim" proqramının qonağı olub.**

Adalet.az xəbər verir ki, C. Haşımova Nisə Qasımovanın vəfasızlığından gileyləinib: "Nisə Qasımovanı Zeynəb Xanlarovanın yanına mən aparmışam. Ələkbər Tağıyevin evinə getmişdik. Zeynəb Xanlarova "İstəyirəm görəm səni" mahnısını məşq edirdilər. Həmin vaxt mən çaldım, Nisə Qasımova isə həmin mahnının oxudu. Zeynəb Xanlarova da ona qulaq asdı. Xoşuna gəldi. Ələkbər Tağıyevə dedi ki, bundan belə təzə nə mahnı oxusam, daha sonra həmin mahnını Nisə Qasımovaya verərsiniz". Sonra isə Ceyran Haşımova müğənnini nankorluqda qınayıb: "Nankordur. Ona yalvarmayacam ki... Haqqımı bir ona halal etmirəm, etməyəcəyəm də. Çünki onun üzərində dünyanın əziyyətini çəkmişəm".

**Əntiqə**

Faiq Qismətoğlu dostu, şair **Vahid Əlioğluna** bacısı
**Tamilla xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


Təsisçi və baş məsləhətçi:
Aqil ABBAS

Baş redaktor:
İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 434-55-98
Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 147
Çapa imzalanmışdır: 21.09.2023